AEM

ISSN: 2706-6185
e-ISSN: 2709-4197

# Qədim Diyar

Beynəlxalq Elmi Jurnal

## Ancient Land

International Scientific Journal

**AZƏRBAYCAN RESPUBLİKASI**

**THE REPUBLIC OF AZERBAIJAN**

# QƏDİM DİYAR

**Beynəlxalq Elmi Jurnal**

**Cild: 6 Sayı: 9**

# ANCIENT LAND

**International Scientific Journal**

**Volume: 6 Issue: 9**

**Bakı – Baku**
**2024**

Jurnal 31.01.2012-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir
Reyestr №3534

The journal is included in the
register of Press editions of the
Ministry of Justice
of the Republic of Azerbaijan on
31.01.2012.
Registration No. 3534

**Redaksiyanın ünvanı**
Az1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
"Azərbaycan" nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address**
Az1073, Baku,
Matbuat Avenue, 529,
"Azerbaijan" Publishing House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 99 806 67 68
+994 99 808 67 68
+994 12 510 63 99

**e-mail**
qedim.2012@aem.az

## Beynəlxalq indekslər / International Indices

**ISSN: 2706-6185**
**e-ISSN: 2709-4197**
**DOI: 10.36719**

© Jurnalda çap olunan materiallardan istifadə edərkən istinad mütləqdir.
© It is necessary to use reference while using the journal materials.
© https://aem.az
© info@aem.az

**Təsisçi və baş redaktor**

**Tədqiqatçı Mübariz HÜSEYİNOV**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
https://orcid.org/0000-0002-5274-0356

**Redaktor**

**Prof. Dr. Nigar VƏLİYEVA**, Azərbaycan Dillər Universiteti / Azərbaycan
nigar_veliyeva@yahoo.com

**Redaktor köməkçiləri**

**PhD Könül HƏSƏNOVA,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
konul_salmanova@mail.ru

**Tədqiqatçı Nəhayət HÜSEYİNLİ**, Azərbaycan Elm Mərkəzi / Azərbaycan
nehayet.huseynli@gmail.com

**Dillər üzrə redaktorlar**

**Prof. Dr. Aynel MƏŞƏDİYEVA**, AMEA, Nəsimi adına Dilçilik İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Gülçöhrə ALIYEVA**, Azərbaycan Dövlət Dəniz Akademiyası / Azərbaycan

**Elmi sahələr üzrə redaktorlar**

**Prof. Dr. Rafail ƏHMƏDLİ,** Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. Firuzə ABBASOVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Zərövşən BABAYEVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Fazil BAXŞƏLİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Təhminə ƏLİYEVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Salatın HACIYEVA**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan

**REDAKSİYA HEYƏTİ**

**Prof. Dr. Anar İSGƏNDƏROV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Abdulkadir GÜL**, Ərzincan Binalı Yıldırım Universiteti / Türkiyə
**Prof. Dr. Əsməd MUXTAROVA**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Vaqif SOLTANLI**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Coanna MARŞALEK-KAVA**, Nikolay Kopernik Universiteti / Polşa
**Prof. Dr. Ələmdar ŞAHVERDİYEV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Vidas KAVALİUSKAS**, Vilnus Biznes Universiteti / Litva
**Prof. Dr. Yaqub BABAYEV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan
**Prof. Dr. İntiqam CƏBRAYILOV**, Azərbaycan Respublikası Təhsil İnstitutu / Azərbaycan
**Prof. Dr. Nasiba SABİROVA**, Urgenc Dövlət Universiteti / Özbəkistan
**Prof. Dr. Afaq MƏMMƏDOVA**, Azərbaycan Dövlət İqtisad Universiteti / Azərbaycan
**Prof. Dr. Adil BAXŞƏLİYEV**, Sumqayıt Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Seyfəddin RZASOY**, AMEA Folklor İnstitutu / Azərbaycan
**Prof. Dr. Xəzər HÜSEYNOV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Svetlana KOJİROVA**, L.N.Qumilyov adına Avrasiya Milli Universiteti / Qazaxıstan
**Prof. Dr. Mübariz SÜLEYMANLI**, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti / Azərbaycan
**Prof. Dr. Sərvər ABBASOV**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Prof. Dr. Mönsüm ALIŞOV**, "İdrak" liseyi / Azərbaycan
**Assoc. Prof. Dr. İosefina BLAZSANİ-BATTO**, Rumın Dili və Mədəniyyəti Mərkəzi / Rumıniya
**Assoc. Prof. Dr. Cəbi BƏHRAMOV**, AMEA, A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu / Azərbaycan
**Assoc. Prof. Dr. Mehriban İMANOVA,** Naxçıvan Dövlət Univetsiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Taleh XƏLİLOV**, Naxçıvan Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Sevinc RUİNTƏN**, Bakı Dövlət Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Andrey RAQULİN**, Rusiya Federasiyasının DİN Moskva Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Mübariz ƏSƏDOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

**Assoc. Prof. Dr. Fərqanə ƏLİYEVA**, DİN-nin Polis Akademiyası / Azərbaycan
**Assoc. Prof. Dr. Lyudmila CAVADOVA**, İqtisadiyyat və Hüquq üzrə Pedaqoji Kollec / Rusiya, Dağıstan Respublikası
**Assoc. Prof. Dr. Şəhla ƏHMƏDOVA**, Bakı Slavyan Universiteti / Azərbaycan
**Assoc. Prof. Dr. Andrey SIZRANOV**, Həştərxan Dövlət Universiteti / Rusiya
**Assoc. Prof. Dr. Rəşad SADIQOV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti / Azərbaycan

## Founder and Editor-in-Chief

**Researcher Mubariz HUSEYINOV**, Azerbaijan Science Center / Azerbaijan
+994 50 209 59 68
tedqiqat1868@gmail.com
https://orcid.org/0000-0002-5274-0356

## Editor

**Prof. Dr. Nigar VALIYEVA**, Azerbaijan University of Languages / Azerbaijan
nigar_veliyeva@yahoo.com

## Assistant editors

**PhD Konul HASANOVA,** Azerbaijan State Pedagogical University / Azerbaijan
konul_salmanova@mail.ru

**Researcher Nahayat HUSEYINLI**, Azerbaijan Science Center / Azerbaijan
nehayet.huseynli@gmail.com

## Language editors

**Prof. Dr. Aynel MASHADIYEVA**, ANAS, Institute of Linguistics named after Nasimi / Azerbaijan
**Assoc. Prof. Dr. Gulchora ALIYEVA**, Azerbaijan State Marine Academy / Azerbaijan

## Editors in scientific fields

**Prof. Dr. Rafail AHMADLI**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Firuza ABBASOVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Zarovshan BABAYEVA**, Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Fazil BAKHSHALIYEV**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Tahmina ALIYEVA**, Azerbaijan State Pedagogical University / Azerbaijan
**Assoc. Prof. Dr. Salatin HAJIYEVA**, Nakhchivan State University / Azerbaijan

## EDITORIAL BOARD

**Prof. Dr. Anar ISGANDAROV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Abdulkadir GUL**, The University of Arzinjan Binali Yildirim / Turkey
**Prof. Dr. Asmad MUKHTAROVA**, Baku State University / Azerbaijan
**Prof. Dr. Vagif SOLTANLI**, Baku State University / Azerbaijan
**Prof. Dr. Joanna MARSZALEK-KAVA**, Nicolaus Copernicus University / Poland
**Prof. Dr. Alamdar SHAHVERDIYEV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Vidas KAVALIUSKAS**, Vilnius Business University / Lithuania
**Prof. Dr. Yagub BABAYEV,** Azerbaijan State Pedagogical University / Azerbaijan
**Prof. Dr. Intigam JABRAYILOV**, Institute of Education of the Republic of Azerbaijan / Azerbaijan
**Prof. Dr. Nasiba SABIROVA**, Urgench State University / Uzbekistan
**Prof. Dr. Afag MAMMADOVA,** Azerbaijan State University of Economics / Azerbaijan
**Prof. Dr. Adil BAKHSHALIYEV**, Sumgait State University / Azerbaijan
**Prof. Dr. Seyfaddin RZASOY**, ANAS Institute of Folklore / Azerbaijan
**Prof. Dr. Khazar HUSEYNOV**, Nakhchivan State University / Azerbaijan
**Prof. Dr. Svetlana KOJIROVA**, L.N.Gumilyov Eurasian National University / Kazakhstan
**Prof. Dr. Mubariz SULEYMANLI**, Azerbaijan State University of Culture and Arts / Azerbaijan
**Prof. Dr. Sarvar ABBASOV**, Baku State University / Azerbaijan
**Prof. Dr. Monsum ALISHOV**, Idrak Lyceum / Azerbaijan
**Assoc. Prof. Dr. Iosefina BLAZSANI-BATTO**, Romanian Language and Cultural Center / Romania
**Assoc. Prof. Dr. Jabi BAHRAMOV**, ANAS, Institute of History and Ethnology named after A.A.Bakikhanov / Azerbaijan
**Assoc. Prof. Dr. Mehriban IMANOVA**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Taleh KHALILOV**, Nakhchivan State University / Azerbaijan
**Assoc. Prof. Dr. Sevinc RUINTAN**, Baku State University / Azerbaijan
**Assoc. Prof. Dr. Andrey RAGULIN**, Moscow University of the Ministry of Internal Affairs of the Russian Federation / Russia
**Assoc. Prof. Dr. Mubariz ASADOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan

**Assoc. Prof. Dr. Fargana ALIYEVA**, Police Academy of the Ministry of Internal Affairs / Azerbaijan
**Assoc. Prof. Dr. Lyudmila JAVADOVA**, Pedagogical College on Economy and Law / Russia, The Dagestan Republic
**Assoc. Prof. Dr. Shahla AHMADOVA**, Baku Slavic University / Azerbaijan
**Assoc. Prof. Dr. Andrey SIZRANOV**, Astrakhan State University / Russia
**Assoc. Prof. Dr. Rashad SADIGOV**, Azerbaijan State Pedagogical University / Azerbaijan

https://doi.org/10.36719/2706-6185/39/7-15

**Əsmətxanım Məmmədova**
Bakı Dövlət Universiteti
filologiya üzrə fəlsəfə doktoru
kamillik@mail.ru

# Nizami Gəncəvi "Xəmsə"sində sintaktik üslubi xüsusiyyətlər

**Xülasə**

Məqalədə sintaksisin söz birləşmələri kimi maraqlı bir bölümünü klassik bədii irsimizin misilsiz incisi olan Nizami Gəncəvi "Xəmsə"sinin beytləri əsasında araşdırmağa çalışmışıq. Tədqiqat nəticəsində aydın olmuşdur ki, məsnəvilərin hər biri üslubi cəhətdən diqqəti cəlb edən nominativ xarakterli söz birləşmələri ilə zəngindir. Məqaləmizdə, əsasən, tabesizlik əlaqəli */və/* bağlayıcılı birləşmələr üslubi məqamları ilə seçilir. Bu birləşmələr dilin ümumi inkişaf qanunauyğunluqlarının nəticəsi kimi formalaşaraq lüğət tərkibinin zənginləşməsinə xidmət edən dubletlərdir.

Nizami məsnəvilərində işlənmiş, şairin üslubu üçün səciyyəvi olan /*və*/ bağlayıcılı qoşa sözləri aşağıdakı kimi qruplaşdırmaq olar: 1) sinonim sözlərin yanaşı işlənməsi ilə formalaşan qoşa leksemlər, 2) antonim sözlərin yanaşı işlənməsi ilə əmələ gələn qoşa leksemlər, 3) bir-birini tamamlayan və biri digərinin əlavəsi olan qoşa sözlər, 4) qafiyələnən dubletlər, d) alliterasiyalı qoşalıqlar.

***Açar sözlər:*** *Nizami Gəncəvi, Xəmsə, sintaksis, söz birləşmələri, sinonim, antonim*

**Asmatkhanim Mammadova**
Baku State University
Doctor of Philosophy in Philology
kamillik@mail.ru

# Syntactic Characteristics in Nizami Ganjavi "Khamsa"

**Abstract**

In this article, an interesting part of the syntax, such as word combinations, is presented based on the verses of Nizami Ganjavi's "Khamsa", an incomparable pearl of our classical artistic heritage. We tried to investigate. As a result of the research, it became clear that each noun is rich in nominative word combinations that attract stylistic attention. In our article, subordination is distinguished mainly by the related /and/ conjunctions and stylistic points. Double words with the conjunction /and/ are doublets formed as a result of the general development laws of the language and serve to enrich the vocabulary.

The double words with the conjunction /and/ used in Nizami's works, which are characteristic of the poet's style, can be grouped as follows: 1) double lexemes formed by the simultaneous use of synonymous words, 2) double lexemes formed by the simultaneous use of antonyms, 3) each other double words that complement and complement each other, 4) rhyming doublets, 5) alliterated doublets.

***Keywords:*** *Nizami Ganjavi, Khamsa, syntax, word combinations, synonym, antonym*

## Giriş

"Çoxşaxəli Nizami irsinin öyrənilməsi ilə bağlı araşdırmalar əminliklə deməyə əsas verir ki, ədəbiyyat tariximizdə müstəsna əhəmiyyətə malik bu əsərlərin elmi-nəzəri dilçilik prizmasından tədqiqi onların ideya-tematik və poetik xüsusiyyətlərinin araşdırılması ilə müqayisədə kifayət qədər arxa planda qalmışdır. Əlbəttə, Nizami dilinin lüğətlərini, filoloji və mənzum tərcümələrini hazırlayan alimlərin gördükləri mühüm və müsbət işlər bu baxımdan istisna təşkil edir. Lakin görülən işlərlə kifayətlənmək olmaz" (Məmmədova, 2022, s. 37).

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

Nizami "Xəmsə"sinin dastanları üzrə apardığımız araşdırma nəticəsində aydın olmuşdur ki, hər bir poema üslub baxımından diqqət çəkən nominativ xüsusiyyətli söz birləşmələri ilə zəngindir. Tabelilik əlaqəsi üzrə yaranan saysız-hesabsız izafət tərkibləri /*və*/ tabesizlik bağlayıcısı əsasında formalaşan söz birləşmələri üslubi məqamları, mikro-mətni dəqiqləşdirməyə xidməti ilə seçilir. Mürəkkəb sözlərin bir qolu olan */və/* bağlayıcılı söz birləşmələri həm Azərbaycan, həm də fars dilinin lüğət tərkibinin zənginləşməsində müəyyən əhəmiyyət kəsb edən dubletlər – leksemlərdir.

"Xəmsə"də */və/* bağlayıcılı sabitləşmiş qoşa sözlər məsnəvilərin leksikasının əsas tərkib hissələrindəndir. Bu qoşa sözlər mürəkkəb leksemlərə yaxınlaşır və bir çox hallarda tərkib kimi təzahür edirlər. Fars dilindəki */cour o setəm/* – zülm; */əhd o peyman/* – əhd-peyman; */nam o neşan/* – ad-san, xəbər kimi tərkiblər poetik fiqurlar rolunda çıxış edərək mənanı dəqiqləşdirir.

Hind qrammatikləri qoşa sözləri dilin qədim qatlarına məxsus dil hadisəsi kimi tədqiq edərək, bu tipli leksemlər üçün "dvanda" terminini işlətmişlər. Fars dilində yanaşı işlənən, qoşalıq təşkil edən dubletlər ayrıca, geniş şəkildə tədqiq olunmayıb. Yalnız poetikaya dair kitablarda "təzmin-əl müzdəvəc", "müraətün-nəzir", "mütənasib" adlanan poetik fiqurların izahında qoşa sözlərə diqqət yetirilmişdir.

**Tədqiqat**

Artıq farsdilli poeziyada sabitləşmiş qoşa sözlərin yaratdığı tərkiblərin geniş yayılması, bədii-estetik dəyəri onları üslubi kateqoriya dərəcəsinə qaldıra bilmişdir. Nizami "Xəmsə"də bu kimi leksemlərdən öz poetik təxəyyülünü dəqiqləşdirmək, bədiiləşdirmək məqsədilə müəyyən işlənmə tezliyi ilə istifadə etmişdir.

Nizami məsnəvilərində işlənmiş, şairin üslubu üçün səciyyəvi olan /*və*/ bağlayıcılı qoşa sözləri aşağıdakı kimi qruplaşdırmaq olar: 1) sinonim sözlərin yanaşı işlənməsi ilə formalaşan qoşa leksemlər; 2) antonim sözlərin yanaşı işlənməsi ilə əmələ gələn qoşa leksemlər; 3) bir-birini tamamlayan, komplementarlıq daşıyan və biri digərinin əlavəsi olan sözlər qoşalığı; 4) qafiyələnən dubletlər; 5) alliterasiyalı qoşalıqlar.

**1. Sinonim sözlərin yanaşı işlənməsi ilə formalaşan qoşa leksemlər**

Tərəfləri sinonim, yaxud yaxın mənalı olan qoşa sözlər məsnəvilərdə işlənmə tezliyinə görə nisbətən üstünlük təşkil edir. "Leyli və Məcnun" poemasında "Qoca qarının Məcnunu Leylinin xeyməsinə aparması bölümündə" deyilir:

*/və u-ra şode xərab o abad,*
*coz nam o neşan-e Leyli əz yad*
*hər kəs ke bedu coz in soxən qoft,*
*ya tən zəd, ya qorixt, ya xoft/* (Leyli and Majnun, 1991, p. 135).
Gördülər yamandır onun bu halı,
Leylidən xəbər axtarır darğın xəyalı.
Yanında başqa söz danışsaydılar,
Ya özünü döyər, ya qaçar, ya da yatardı...

"İskəndərnamə" poemasından nümunə kimi verəcəyimiz aşağıdakı beytin ilk misrasında şair ənənəvi, sabitləşmiş dublet olan */əhd o peyman/* – əhd-peyman qoşa sözlərini ikinci misradakı */vəfadarı/* – vəfadarlıq leksemi ilə qarşılaşdıraraq dərin mənalı kompozisiya daxilində insan olanın ən gözəl xasiyyətlərindən birinin əhdə vəfa etməsi olduğunu təkidlə bəyan edir:

*/şeşom əhd o peyman negəhdaştən,*
*vəfadari əz yad nəqzaştən/* (Sharafname, 1991, p. 64).
Altıncı əhdi-peymanı gözləmək,
Vəfadarlığı yaddan çıxarmamaqdır.

Nizami "Xəmsə"nin məsnəvilərində həm əsli, həm də nisbi sinonimlərdən formalaşan dubletlərdən bədii üslubda istifadə etməklə ekspressivliyi, mətnin dərkini, bədii ifadə qüdrətini

artırır. Buraya */cour o cəfa*/ – zülm; */setəm o cəfa/* – zülm; */cah o cəlal/* – cah-cəlal; */mal o molk/* – əmlak, mülk, var-dövlət */molk o mal/* – əmlak kimi birləşmələri aid etmək mümkündür.

Nümunələrə nəzər salaq:

"Xosrov və Şirin" məsnəvisində "Şirinin Xosrova nəsihəti" bölümündə şair deyir:

*/bebin dur əz to, şahani ke mordənd,*
*ze mal o molk-e şahi hiç bordənd?/* (Khosrov and Shirin, 1991, p. 91)
Səndən uzaq, o şahlar ki ölmüşlər,
Şahlıq mülkündən nə isə aparmışlar?

Məsnəvilərdə şairin arzusuna, şeirin daxili ritminə, vəznin tələbinə görə bir çox hallarda belə dubletlərin tərəflərinin yerinin dəyişilməsinə də rast gəlinir. Məsələn, "Yeddi gözəl"dən aldığımız aşağıdakı beytdə olduğu kimi:

*/molk o mal-e xəzine-ye şahi,*
*həme darəm ze mah ta mahi/* (Nizami Ganjavi, 1991, p. 190).
Şahlıq xəzinəsi, hər cür varidat,
Dəryadan aya qədər nə desən varımdır.

Geniş dünyagörüşə, sərhədsiz biliyə, müdrik filosof düşüncəsinə malik Nizami məsnəviləri boyu bəşəriyyətə, insanlara yol göstərməkdən, layiqli tövsiyələr verməkdən çəkinmir, yorulmur. O, insanlara acgöz, dünya malının əsiri olmaqdan çəkindirir. Dünya malının, ailə, övladın, vəzifənin, gücün, qüdrətin yalnız "qəbr evinə", "məzara" qədər davam edəcəyini lokanik bir şəkildə "Xosrov və Şirin" poemasının aşağıdakı beytində təqdim edir:

*/ze mal o molk o fərzənd o zən o zur,*
*həme həstənd həmrah-e to ta gur/* (Khosrov and Shirin, 1991, p. 427).
Məzara qədərdir bütün bu dövlət,
Övlad, qadın, bu mülk, bu mal bu qüdrət.

Başqa bir qrup mənaları yaxın və bir-birini tamamlayan qoşa sözlərin bir hissəsi məna cəhətdən səbəb və nəticə bildirən dubletlərdir: /fetne vo fəsad / – fitnə və fəsad; /mehr o vəfa/ – məhəbbət və vəfa və s.

"İqbalnamə"də şair İskəndəri mədh edərək deyir:

*/dər in mehreban şah -e izədpərəst,*
*ze mehr o vəfa hərçe xahənd həst/* (Igbalname, 1991, p. 31).
Allahtanıyandır bizim hökmdar,
Məhəbbət, vəfa ilə dolu qəlbi var.

**2. Antonim sözlərin yanaşı işlənməsi ilə əmələ gələn qoşa leksemlər**

Bildiyimiz kimi, antonimlər insan və ətraf mühit münasibətlərində baş verən əksklikləri və ziddiyyətləri ifadə etmək məqsədilə yaranmışdır. İnsanın intellektual təfəkkürü genişləndikcə ətraf aləm hadisələrinin qavranılmasında yeniləşmələr meydana çıxır. Həyat hadisələrinin həmişə birxətli inkişafının mövcud olmadığını düşündükcə insanlar əksklikləri, ziddiyyətləri də ifadə etməyə ehtiyac duymuşlar. Tədqiatçıların ümumi şəkildə gəldiyi fikir ondan ibarətdir ki, antonimlər insan cəmiyyəti yarandığı gündən formalaşmağa başlamışdır. İnsanlar əhatələrində olduqları mühiti dərk etdikcə yaxşını pisdən, acını şirindən, istini soyuqdan, işığı qaranlıqdan, dostu düşməndən fərqləndirməyə başlamışlar.

Antik dil nəzəriyyəsində əksliklər, təzadlar haqqında deyilir: "Əgər nitqimizdə belə bəzəklərə müraciət etsək, o zaman nitqimiz cilvəli və əzəmətli olar". Nizami də əksliklər, antonimlərlə qur-

duğu təzadlar sistemi ilə məsnəvilərini daha cilvəli, daha əzəmətli etmişdir. Şair bəhs olunan mövzuya daxil olan əksliklərin, antonimlərin leksik-semantik xüsusiyyətlərini əhatə etməklə fars dilinin bütün incəliklərindən bəhrələnmiş olur. Nizami özünəməxsus bacarıqla həm eyni obyektin əks atributlarından (işıq, nur: *mah ≠ xorşid; mah ≠ afetab* – ay ≠ günəş), eyni məfhumun əks qütblərindən (zaman: *şəb ≠ ruz; sobh ≠ şam* – səhər ≠ axşam*;* gecə ≠ gündüz), eləcə də təzadlı keyfiyyətlər, əlamətlərdən (*nik ≠ bəd; niki ≠ bədi* – yaxşı ≠ pis; yaxşılıq ≠ pislik) istifadə etmişdir.

"Xəmsə"də dini mövzulara aid verilmiş əkslik bildirən qoşalıqlar məsnəvilər boyu səpələnmişdir: *həram ≠ həlal; həlal ≠ həram* – haram ≠ halal*;* halal ≠ haram; *eslam ≠ kofr* – eslam ≠ kafir*; kafər ≠ mosəlman* – kafir ≠ müsəlman*; səvab ≠ xəta* – savab – xəta; *xeyr ≠ şər* – xeyr ≠ şər və s. Bu nisbi və mütləq əksliklər, antonimlərlə şair həmişə olduğu kimi, islamın vacib qanunlarını, şirki, qadağaları şərh və bəyan etməklə insana, insanlığa dünya və axirət həyatındakı təzadlara diqqət yetirməyi, düz və halal yaşamağı, insanlıq adına şər və pis işlərdən çəkinməyi tövsiyə edir.

"Yeddi gözəl" məsnəvisinin "Bəhram şahın həftənin birinci günü yaşıl günbəzli sarayda üçüncü iqlim şahının qızının nağılını dinləməsi" bölümündə deyilir:

*/həme danım be əğl-e xiş təmam,*
*vagəhi darəm əz həlal o həram/* (Sharafname, 1991, p. 16).
Öz ağlım müqabilində hər şeyi bilirəm,
Halal və haramdan (halallıqdan) xəbərdaram.

Həmin bölümdən alınmış aşağıdakı beytdə isə *xeyr ≠ şər* – xeyr ≠ şər antonimini işlədərək Allaha təvəkkül edən, onun verəcəyi qismətə bel bağlayan, təqvalı, doğruçu, əmin (əmanətə sadiq) qəhrəmanının dili ilə Şeyx Nizami deyir:

*/ta xodayi ke xeyr o şər danəd,*
*bər mən in kar səhl gərdanəd/* (Sharafname, 1991, p. 200).
İnsana xeyir, yaxud şər qismət edəcəyini,
Bilən Allah, mənim bu işimi asanlaşdırar.

"Xosrov və Şirin" poemasında "Xosrov Pərvizin peyğəmbər (s.ə.) yuxuda görməsi" hissəsində şair *kofr* – küfr və *eslam* – islam dini leksemləri qarşılaşdırmaqla təzad yaradır.

*/be çərbi qoft ba u key cəvanmərd,*
*rəh-e eslam gir, əz kofr bərgərd.*
*cəvabeş dad ta bi sər nəgərdəm,*
*əzin ayin ke darəm bər nəgərdəm/* (Khosrov and Shirin, 1991, p. 131).
Mülayimcəsinə dedi ki, ey cavanmərd,
Küfrü tərk elə, islamın yolunu tut.
Ona cavab verdi ki, bu yolda ölsəm də,
Öz din və ayinimdən əl çəkmərəm.

Əlbəttə, şeyx Nizami öz böyüklüyü, islam dininə sevgisi, etiqadı, əqidəsi ilə bu söhbəti bu şəkildə tamamlaya bilməzdi. Poemanın bu bölümündə deyilir ki, peyğəmbər (s.ə.) şahın yuxusuna gəlir və ona məsləhət görür ki, atəşpərəstlikdən, küfrdən əl çəkib, islamı qəbul etsin. Gözəl bir ərəb atınına səvar olmuş peyğəmbər şahın inkar cavabını eşitdikdə, ona bərk bir taziyanə vuraraq atını çapıb uzaqlaşır. Yuxudan hövlnak oyanan şah üç ay bu yuxunun təsirindən çıxa bilmir, xəstə yatır...

Məsnəvilərdə antonimlik, əkslik təşkil edən */və/* bağlayıcısı ilə işlənən */bəd ≠ nik/* – yaxşı ≠ pis; */bəd ≠ nik/* – pis ≠ yaxşı*; niki ≠ bədi/* – yaxşılıq-pislik kimi əsli və nisbi sifətlərdən formalaşan dubletlər müəyyən tezliklə işlənmişdir:

*/be-cay-e to gər bəd konəd kəsi,*
*to niz ər koni nekui ba kəsi,*
*həm an-ra, həm in-ra fəramuş kon,*
*zəban əz bəd o nik xamuş kon/* (Nizami Ganjavi, 1940, p. 101).
Bir nakəs sənə pislik eylərsə,
Sən də başqasına yaxşılıq etmisənsə,
Həm onu, həm də bunu unut.
Yaxşı və yamandan söz etmə, sus.

Şair insanlara verdiyi başqa bir nəsihətini də əkslik yaradan dubletlə aşağıdakı kimi bəyan edir:

*/hər ke be niki əməl ağaz kərd,*
*niki-ye u ruy bedu baz kərd.*
*qonbəd-e gərdənde ze ru-ye qeyas,*
*həst be niki-yo bədi haqşenas/* (Nizami Ganjavi, 1940, p. 102).
Kim yaxşılıqla məşğul olarsa,
Onun yaxşılığı özünə qayıdar,
O fırlanan çərxi-fələk ölçü-biçisilə,
Yaxşılıq və pisliyin haqqını biləndir.

Məsnəvilərdə daha bir qrup insan münasibətlərini bildirən və güclü bədii təsirə malik təzadlar silsiləsi mövcuddur: /dust ≠ doşmən/ – dost ≠ düşmən; /yar ≠ əğyar/ – yar ≠ özgə və s.

*/çenan dər mirəmid əz dust o doşmən,*
*ke cadu əz sepənd o div əz ahən/* (Khosrov and Shirin, 1991, p. 223).
Cadu üzərlikdən, div dəmirdən qorxub qaçan kimi,
Dost və düşməndən o şəkildə hürküb qaçardı.

İnsanın xarici görünüşünü, fiziki keyfiyyətlərini əks etdirən əksliklərin yaratdığı təzadlar qoşalığı da məsnəvilərdə xüsusi üslub çalarları ilə seçilir: /xub ≠ zeşt/ – yaxşı ≠ çirkin; */pir ≠ cəvan/* – qoca ≠ cavan; */borna ≠ pir/* qoca ≠ cavan, */mərd ≠ zən/* – kişi ≠ qadın və s.

*/pir o cəvan bər xətər əz kar-e to*
*şəhr o deh azorde ze peykar-e to/* (Nizami Ganjavi, 1960, p. 191).
Sənin işlərindən qoca və cavan təhlükədədir,
Sənin əməllərindən kənd və şəhərlər zülmdədir.

“Xəmsə” poemalarında təbiətlə bağlı zəngin antonim qoşalıqları da işlənmə tezliyinə görə diqqət cəlb edir: */kuh ≠ dəşt/* – dağ ≠ düzənlik; */beyaban ≠ kuh/* – biyaban ≠ dağ; */nur ≠ zolmət/* – işıq ≠qaranlıq; */aseman ≠ zəmin/* – göy ≠ yer və s.

“Xosrov və Şirin” poemasında “Fərhadın Şirinin eşqində ah-fəğan etməsi bölümündə” şair bu əksliyi bir beyt daxilində işlədərək maraqlı kompozisiya yaratmışdır:

*/gerefte kuh o dəşt əz biqərari,*
*vəzu dər kuh o dəşt oftade zari/* (Khosrov and Shirin, 1991, p. 222).
Dağda və düzəngahda qərar tapmırdı,
Dağa-çölə ağlamağı haray salmışdı.

“İskəndərnamə” poemasının ikinci hissəsi “İqbalnamə”də “İskəndərin peyğəmbərlik məqamına çatması” bölümündə şair deyir:

*/be hər ca gerayeş konəd can-e to,*
*bovəd nur o zolmət be fərman to,*
*bovəd nurət əz piş o zolmət ze pəs,*
*to bini, nəbinəd to-ra hiç kəs/* (Igbalname, 1991, p. 139).
Ürəyin haraya getmək, varmaq istəsə,
İşıq və zülmət sənin fərmanında olacaq.
İşıq önündə, zülmət arxanda olduğundan,
Sən hər kəsi görəcək, səni heç kəs görməyəcək.

Tədqiqatçıların gəldiyi ümumi fikrə görə, sözü zehnində, düşüncəsində mum kimi əridib, varaqlara düzən Nizami məsnəvilərində sinonimlərə, mənaların yaxınlığına gözəl üslubi priyom şəklində yer verdiyi kimi, antonimlərdən, əksliklərdən də gen-bol, işlənmə tezliyi ilə istifadə etmişdir.

Şair aşağıdakı beytdə böyük ustalıqla dörd antonim qoşalığı bir beyt daxilində işlətmişdir:

*/qəm o şadi negar o bim o omid,*
*şəb o ruz afərin o mah o xorşid/* (Nizami Gəncəvi, 1960, s. 2).
Ümid, qorxu, fərəh, qəm-qüdrətindən,
Gecə, gündüz, Günəş, Ay – xilqətindən (Nizami Gəncəvi, 2018, s. 14).

**3. Bir-birini tamamlayan, komplementarlıq daşıyan və biri digərinin əlavəsi olan sözlər qoşalığı**

"Sirlər xəzinəsi"ndən aldığımız beytdə */del o can/* – canla-başla, ürəkdən; "Xosrov və Şirin"dən nümunə verdiyimiz beytdə isə */can o del/* – ürəkdən, canla-başla qoşa sözləri işlənmişdir. Araşdırma göstərir ki, bu birləşmələr təxminən yaxın mənaları versələr də, Nizami poemalarında ikinci birləşmə daha işləkdir.

*/del o can/* – ürək və can*; /can və ürək/* – can və ürək*; /divar o dər/* – divar və qapı (yaşayış yeri); */zər o sim/* – qızıl-gümüş; */sim o zər/* – gümüş-qızıl və s.

Nümunələrə nəzər salaq:

*/bəs ke bebayəd del o can taftən,*
*ta gohəri tacneşan yaftən/* (Makhzan al-Asrar, 1991, p. 150).
Ürək və canı gərək tamam əridəsən ki,
Taca vurulmağa, layiq bir gövhər tapasan (Əliyev, 1981, s. 157).
*/cəvanmərdan ke dər del cəng bəstən,*
be-can o del *ze can ahəng bəstənd/*
(Khosrov and Shirin, 1991, p. 421).
O mərd cavanlar ki, qoşar savaşa,
Canla-başla canı fəda edərlər.

"Sirlər xəzinəsi"ndə peyğəmbərin (s.ə.) meracından bəhs edən hissədə şair qoşa dubleti bir beyt daxilində təkrar edərək, maraqlı kompozisiya qura bilmişdir:

*/çon tənə-ye ərş be payan rəsid,*
*kar-e del o can be del o can resid/* (Nizami Ganjavi, 1940, p. 16).
(Nəhayət) ərşin sahəsi ona yetəndə,
Ürək və canın işi də ürək və cana yetişdi (Əliyev, 1981, s. 31).

Yuxarıdakı beytlərdən gördüyümüz kimi, bir-birinin dubleti olan sözlərin bir qismi yerlərini dəyişsələr də, mənaya xələl gətirmədiyindən şair şeirin vəzninə, ritminə uyğun olaraq, onların müxtəlif variantından istifadə etməkdən çəkinməmişdir.

*/ze divar o dər qofti aməd xoruş,*
*ke Keyxosrov-e xofte aməd be huş/* (Sharafname, 1991, p. 330).
Evdən, dər-divardan elə hay-küy qopdu ki,
Yatmış Keyxosrov yuxudan oyandı.

Bu növdən olan dubletlərin kompozisiya cəhətdən tərəflərinin yerdəyişməsi bəzi sabitləşmiş qoşalıqlara yenilik gətirir. Belə ki, */zər o sim/* – qızıl və gümüş dubleti farsdilli şeirdə geniş yayılmış qoşa leksemlərdəndir. Məsnəvilərdə bu söz birləşməsi */sim o zər/* – qızıl və gümüş variantında, yəni komponetlərinin yeri dəyişilmiş şəkildə də işlədilir. Aşağıdakı beytlərdə dubletlərin hər iki variantı əks poetik fiqurlar yaratmışdır:

*/beheşti ze hər qəsri əngixtənd,*
*zər o sim-ra bər zəmin rixtənd/* (Sharafname, 1991, p. 521).
Sarayı behiştə çevirdilər,
Hər yerə qızıl-gümüş səpdilər.
*/vər sekke-ye to zənənd bər səng,*
*kəs dər nəzənəd be sim o zər çəng/* (Leyli and Majnun, 1991, p. 36).
Əgər sənin sikkəni vursalar daşa,
Gümüş – qızıl olar yer başdan-başa.

**4. Qafiyələnən dubletlər**

“Xəmsə”də tərəfləri sinonim, antonim olan sözlərdən qoşalıqlardan başqa diqqəti cəlb edən xüsusi ahəngdarlıq və ritmə malik olan qafiyəli söz qoşalıqları da vardır. Belə dubletlər şeirin daxili qafiyəsini gücləndirməklə fərqlənirlər. Məsələn: */kar o bar/* – iş və yük; iş-güc; */peykan o baran/* – ox və yağış (düşmən başına yağış kimi yağan ox) və s.

*/pir yeki ruz dər in kar o bar,*
*kar fəra piş dər əfzud kar/* (Nizami Ganjavi, 1940, p. 120).
Qoca bir gün öz işində-gücündə ikən,
Fələyin əmrilə işi bir qədər də artdı.
*/bər əngixt rəzmi ço barənde miğ,*
*təgərgeş ze peykan o baran ze tiğ/* (Sharafname, 1991, p. 211).
Qara buluda bənzər bir döyüş başladı,
Dolusu oxlar idi, yağışı isə xəncər.

**5. Alliterasiyalı qoşalıqlar**

Qoşa sözlərin bir çoxunun “Xəmsə” məsnəvilərində eyni hərflə başlanması bununla da alliterasiya hadisəsi yaratmasıdır. Alliterasiya həm sinonim, həm də korrelyativ mənalı qoşalıqlarda müşahidə olunur:

SS – */sər o saman/* – sər-saman
MM – */molk o mal/* – mal-mülk
KK – */kur o kər/* – kar-kor
CC – */cesm o can/* – cism və can və s.

*/əlac-e dərd-e bisaman nədanest,*
*qəm-e xod-ra sər o saman nədanest/* (Nizami Ganjavi, Ganjoor).
Dərmansız dərdin əlacını bilmədi,
Öz dərdini sər-samana sala bilmədi.

“İqbalnamə” məsnəvisinin “İskəndərin peyğəmbərlik məqamına çatması” bölümündə verilən vəzifənin çətinliyini dərk edən İskəndər deyir:

*/dər an cay-e bigane əz xoşk o tər,*
*çe dərman konəm, xasse ba kur o kər?/* (Igbalname, 1991, p. 138)
O quru (səhra) və yaş (soyuq) olan yad yerdə,
Karlara və korlara nə xüsusda dərman edə bilərəm?

Beytlərdə şair bu qoşa sözlərin ikinci komponentində daha poetik leksemə müraciət etməklə həm bədiiliyi artırır, həm də nəticə olaraq bir fikir, düşüncə sərgiləyir. "Xosrov və Şirin" poemasının "Xosrovun məqbərəsində Şirinin özünü öldürməsi" bölümündə */cesm o can/* – cism və can nisbi sinonim dubletinin ilk lekseminin maddiliyi, ikincinin mənəvi çaları ilə tamamlanır:

*/əz an geryəm ke cesm o can-e dəmsaz,*
*be həm xu kərdeənd əz digərgəh baz/*
(Khosrov and Shirin, 1991, p. 425).
Ağlayıram, çünki bu bədən, bu can,
Çoxdan bir-birinə olub mehriban.

Dahi Nizaminin "Xəmsə"sinə daxil olan məsnəvilərdə qoşa sözlərin fonetik xüsusiyyətləri, morfoloji strukturu, semantik quruluşu komponentlərin bağlılıq üsulları, növləri fikrimizcə, daha geniş araşdırma materialı ola bilər. Onun söz xəzinəsindən istifadə etmək üçün, özü demişkən, qapısı həmişə hər kəsin üzünə açıqdır:

*/dər ma be ru-ye kəsi dər məbənd,*
*ke dər bəstən-e dər bovəd napəsənd,*
*ço ma-ra soxən nam-e dərya nəhad,*
*dər-e ma ço dərya bebayəd qoşad.*
*rəha kon ke ayənd cuyəndeqan,*
*bebinənd dər- şah-e quyəndeqan/* (Sharafname, 1991, p. 381).
Qapımı heç kəsin üzünə bağlama,
Çünki üzə qapı bağlamaq yaxşı iş deyil.
Söz bizə "Dərya" adı verdiyinə görə,
Qapımız da da dərya kimi açıq olmalıdır.
İmkan ver ki, axtaranlar gəlsinlər,
Və şairlər şahının qapısını görsünlər.

Nizami şeiri başdan-başa insanlıq adına, insana sevgi naminə yaradıldığından onun "dərya" yaradıcılığı, qurduğu "söz sarayı" illər, əsrlər uzunu yaşayacaq, bəşəriyyətə örnək olacaq.

## Nəticə

Nizami "Xəmsə"sinin dastanları üzrə apardığımız araşdırma nəticəsində aydın olmuşdur ki, hər bir poema üslub baxımından diqqət çəkən nominativ xüsusiyyətli söz birləşmələri ilə zəngindir.

Məqaləmizdə, əsasən, tabesizlik əlaqəli */və/* bağlayıcılı birləşmələr üslubi məqamları ilə seçilir. Bağlayıcılı qoşa sözlər dilin ümumi inkişaf qanunauyğunluqlarının nəticəsi kimi formalaşaraq lüğət tərkibinin zənginləşməsinə xidmət edən dubletlərdir. Nizami məsnəvilərində işlənmiş, şairin üslubu üçün səciyyəvi olan /*və*/ bağlayıcılı qoşa sözləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1) sinonim sözlərin yanaşı işlənməsi ilə formalaşan qoşa leksemlər,
2) antonim sözlərin yanaşı işlənməsi ilə əmələ gələn qoşa leksemlər,
3) bir-birini tamamlayan və biri digərinin əlavəsi olan qoşa sözlər,
4) qafiyələnən dubletlər,
5) alliterasiyalı qoşalıqlar.

Bu tədqiqat işi Nizami Gəncəvinin "Xəmsə"sinə daxil olan məsnəvilərdə sintaksisin bu bölməsi üzrə ilk araşdırma idi. Fikrimizcə, məsnəviləri dilçiliyin bütün bölmələri üzrə tədqiqata cəlb etmək, klassik mətnləri öyrənmək işində səmərəli olar.

## Ədəbiyyat

1. Əliyev, R. (1981). *Nizami Gəncəvi. Sirlər xəzinəsi* (filoloji tərcümə). "Elm" nəşriyyatı.
2. Məmmədova, Ə. B. (1922). *Nizami Gəncəvi yaradıcılığı üzrə filoloji tədqiqlər*. "Elm və təhsil" nəşriyyatı.
3. Nizami Ganjavi. (1960). *Makhzan al-Asrar* (scientific-critical text). Azerbaijan SSR Academy of Sciences.
4. Nizami Ganjavi. (1991). *Makhzan al-Asrar*. *In The Complete Works of the Khamsa of Nizami Ganjavi*. Mahtab Publications.
5. Nizami Ganjavi. (1991). *Khosrov and Shirin*. *In The Complete Works of the Khamsa of Nizami Ganjavi*. Mahtab Publications.
6. Nizami Ganjavi. (1991). *Leyli and Majnun*. *In The Complete Works of the Khamsa of Nizami Ganjavi*. Mahtab Publications.
7. Nizami Ganjavi. (1991). *Haft Peykar*. *In The Complete Works of the Khamsa of Nizami Ganjavi*. Mahtab Publications.
8. Nizami Ganjavi. (1991). *Sharafname*. *In The Complete Works of the Khamsa of Nizami Ganjavi*. Mahtab Publications.
9. Nizami Ganjavi. (1991). *Igbalname*. *In The Complete Works of the Khamsa of Nizami Ganjavi*. Mahtab Publications.
10. Nizami Ganjavi. (1940). *Thousand Wisdoms*. (Vahid Dastgird, trans.). Armaghan.
11. Nizami Gəncəvi. (2018). *Xosrov və Şirin*. (M. C. Zəki, tərc.). "Qanun" nəşriyyatı.
12. Nizami Gəncəvi. (1960). *Xosrov və Şirin.* (L. A. Xatequrov, tərt.). Elmi-tənqidi mətn. Az.SSR EA-nın nəşriyyatı.
13. Nizami Ganjavi. (n.d.). Ganjoor. https://ganjoor.net/nezami

Daxil oldu: 02.07.2024
Baxışa göndərildi: 22.07.2024
Təsdiq edildi: 18.08.2024
Çap olundu: 30.09.2024

https://doi.org/10.36719/2706-6185/39/16-22

**Ziat Fayssal**
Echahid Cheikh Larbi Tebessi University
Doctor of Philosophy in Philosophy of Science
fayssal.ziat@univ-tebessa.dz
https://orcid.org/0009-0009-2577-6327
**Shahrazad Derras**
University of Oran 2 Mohamed Ben Ahmed
Doctor of Philosophy in Philosophy of Science
derras.shahrazad@univ-oran2.dz
https://orcid.org/0009-0009-9675-0298

# The Hermeneutic Method in Human Sciences: Wilhelm Dilthey and the Emergence of a New Epistemological Paradigm

## Abstract

This study analyzes Wilhelm Dilthey's approach to methodology in the humanities. Dilthey's work was a major topic of debate among philosophers in the nineteenth century, a period marked by rising scientific progress and heightened interest in methodology. Dilthey focused on distinguishing between understanding and interpretation, advocating that understanding was the most suitable approach for the humanities. His work prompted a new epistemological question: how to examine the concepts and strategies of the hermeneutic approach to develop a fresh perspective on hermeneutics in the humanities. This includes theorizing and explaining the epistemology of the scientific approach to the humanities.

The study concludes that Dilthey's project significantly advanced the humanities, helping to address methodological challenges by considering both epistemological and ontological dimensions in analyzing human phenomena. Ultimately, Dilthey's approach is seen not just as a method but as a comprehensive framework for historical consciousness. It emphasizes that understanding expression is essential for grasping truth and, consequently, for understanding life.

***Keywords:*** *humanities, method, understanding, interpretation, methodology*

**Ziat Fayssal**
Echahid Cheikh Larbi Tebessi Universiteti
elmlər fəlsəfəsi üzrə fəlsəfə doktoru
fayssal.ziat@univ-tebessa.dzh
https://orcid.org/0009-0009-2577-6327
**Şəhrazad Derras**
Oran Universiteti 2 Məhəmməd Ben Əhməd
elmlər fəlsəfəsi üzrə fəlsəfə doktoru
derras.shahrazad@univ-oran2.dz
https://orcid.org/0009-0009-9675-0298

# İnsan elmlərində hermenevtik metod: Vilhelm Diltey və yeni epistemoloji paradiqmanın yaranması

## Xülasə

Bu araşdırma Vilhelm Dilteyin humanitar elmlərdə metodologiyaya yanaşmasını təhlil edir. Dilteyin işi elmi tərəqqinin yüksəlməsi və metodologiyaya marağın artması ilə əlamətdar olan XIX əsrdə filosoflar arasında əsas müzakirə mövzusu idi. Diltey əsas diqqəti başa düşmə ilə təfsir arasında fərq qoymağa yönəldir, başa düşməyin humanitar elmlər üçün ən uyğun yanaşma olduğunu müdafiə edirdi. Onun işi yeni qnoseoloji suala səbəb oldu: humanitar elmlərdə hermenevtikaya yeni perspektiv yaratmaq üçün hermenevtik yanaşmanın konsepsiyalarını və strategiyalarını necə

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0) 

araşdırmaq. Buraya humanitar elmlərə elmi yanaşmanın qnoseologiyasının nəzəriyyələşdirilməsi və izahı daxildir.

Tədqiqat belə nəticəyə gəlir ki, Dilteyin layihəsi humanitar elmləri əhəmiyyətli dərəcədə irəlilətdi, insan hadisələrinin təhlilində həm epistemoloji, həm də ontoloji ölçüləri nəzərə alaraq metodoloji problemlərin həllinə kömək etdi. Nəhayət, Dilteyin yanaşması yalnız bir üsul kimi deyil, həm də tarixi şüurun hərtərəfli çərçivəsi kimi görünür. O vurğulayır ki, ifadəni dərk etmək həqiqəti qavramaq və nəticədə, həyatı dərk etmək üçün vacibdir.

***Açar sözlər:*** *humanitar elmlər, metod, anlayış, şərh, metodologiya*

## Introduction

Addressing the method in the humanities, particularly through Wilhelm Dilthey’s approach, raises the question of what hermeneutics can contribute to understanding and interpreting human phenomena. Hermeneutics, as both a philosophy and method, offers insights into this issue by focusing on understanding rather than merely interpreting. Dilthey distinguished between interpretation, which he associated with the natural sciences, and understanding, which he applied to the human sciences. He posited that while nature is interpreted through empirical methods, human experiences must be understood in their own context (Sarir, 2021, pp. 732-733).

Despite the scientific advances achieved through interpreting natural laws and controlling natural phenomena via experimental methods, human phenomena remain a significant challenge in philosophical research (Mustafa, 2015, p. 3).

The human sciences deal with complex psychological, cultural, and spiritual dimensions affecting social and civilizational life. This complexity has made these sciences essential, though their progress has been slower compared to the natural sciences. Many scholars attribute this delay to methodological issues, believing that the humanities face a methodological problem that hinders their development. As a result, researchers have sought to identify an appropriate methodology for the humanities (Bouzar, 2019, p. 112).

Some argue for adopting the interpretive methods used in natural sciences, especially those aligned with positivism. In contrast, other philosophers oppose this view, emphasizing that the humanities have unique characteristics requiring a methodology suited to their specific nature (Mustafa, 2015, p. 3). Dilthey proposed understanding as a method for studying human phenomena across various historical, psychological, and social contexts.

### Significance of the Study

This study is significant because it explores what hermeneutics can offer the humanities by addressing the challenges faced by researchers in this field and proposing solutions from an epistemological perspective. Dilthey’s work, which includes establishing the epistemological foundations for the humanities and advocating for the approach of understanding over interpretation, provides valuable insights. Researchers can benefit from these findings to enhance their understanding of the humanities.

### Objectives

The research aims to present Dilthey's method of hermeneutics in the humanities and its role in raising new epistemological questions. It seeks to clarify the importance and nature of hermeneutics as both a philosophy and a method for understanding. The objective is to differentiate between the methodologies of natural sciences and humanities through an epistemological lens.

### Methodology

This study employs a historical approach to outline the characteristics of the humanities within their methodological context from ancient times. Additionally, an analytical and epistemological descriptive approach is used to collect, analyze, and critically read information, leading to well-founded conclusions.

### Study Plan

To address the problem of how Dilthey’s approach to understanding contributes to the scientific study of human phenomena, and whether it advances these sciences as legitimate fields, the study is organized around two main axes:

1. Wilhelm Dilthey and the Epistemological Question of Hermeneutics in the Humanities: This axis explores Dilthey's contribution to epistemological discussions about hermeneutics in the humanities
2. The Understanding Approach in the Humanities (Epistemological Development of the Approach to Understanding): This axis examines how the approach of understanding has developed epistemologically within the humanities.

**The First Axis: Wilhelm Dilthey and the Epistemological Question of Hermeneutics in the Humanities**

Interpretation remains a prominent philosophy in contemporary thought, gaining increasing importance in modern philosophy. Despite the rise of hermeneutics, which has diversified and become vital in today’s symbol-rich and sign-oriented world, its core focus remains on interpreting, translating, and understanding texts. Hermeneutics distinguishes between literal and deeper meanings, or between single and multiple interpretations. Western criticism has evolved through various stages: structuralism with narrative theorists, semiotics focusing on signs, deconstruction by difference and anatomy philosophers, and hermeneutics with key figures like Schleiermacher, Dilthey, Heidegger, Ricoeur, Bultmann, Hirsch, Gadamer, and Merleau-Ponty. Hermeneutics has been extensively applied in theology, philosophy, and literary interpretation (Hamdaoui, 2018, p. 25).

Wilhelm Dilthey (1833-1911) was a German philosopher and sociologist, a representative of Post-Hegelian philosophy during the late nineteenth and early twentieth centuries. His time was formative for intellectual life in Germany due to scientific advancements and historical development. This period saw the emergence of critical Kantian works and the influence of philosophers like Fichte, Schilling, Hegel, Schleiermacher, and Schopenhauer (Cheriki, 2011, p. 110).

Dilthey is also recognized as a key figure influenced by Schleiermacher, who is considered a co-founder of hermeneutics. Dilthey's focus on "understanding" is central to his work. In his book The Origin of Hermeneutics, he poses the question: How can the humanities and historical sciences develop a methodology in hermeneutics distinct from the philosophy of the natural sciences? (Ben Hillal, 2018, p. 134)

The scientific discourse has traditionally been divided into two main approaches: interpretation or explanation, and understanding. Interpretation or explanation is associated with the natural sciences, focusing on defining the conditions of phenomena. In contrast, understanding is linked to the human sciences, emphasizing the significance of purposes and meanings (Zouawi, 2000, p. 251).

**The History of the Humanities**

The history of the humanities has not advanced in the same continuous manner as the natural sciences. Unlike the natural sciences, where each step builds upon the previous one, progress in the humanities has often been marked by periods of regression and darkness. There have been moments of advancement, but these have frequently been followed by setbacks and periods of stagnation (Qaniswa, 2007, p. 23).

Despite reaching a level where the humanities are deemed comparable to the natural sciences, this comparison reveals a significant gap in progress. The relative stagnation of the humanities compared to the natural sciences is often referred to as the "crisis of the humanities". Edmund Husserl termed this the "European Crisis of Sciences" in one of his works. His phenomenology reflects his attempts to bridge the gap between the natural and human sciences. Husserl rejected the simplistic adoption of naturalistic models, such as those promoted by positivists and advocates of scientific unity (Oba, 2017, p. 152).

Rise of realism in literature and the arts marked a departure from idealism, which had previously influenced society's views. This shift led to a decline in belief in the stability of society and fostered a focus on social construction as the basis for scientific progress and the outcomes of the Industrial Revolution. During this time, there was a strong emphasis on competition, and the challenge became how to reconcile the universe and our place within it with the advancements in

scientific knowledge. In other words, the question arose: How can life be meaningful in a world increasingly dominated by science and machinery? (Cheriki, 2011, p. 110)

With Dilthey, a different perspective emerges, centered on the idea that the core issue is understanding the human world, or what he terms "human truth." This approach led Dilthey to examine the knowing self from an epistemological standpoint, questioning what enables it to understand (Cheriki, 2011, p. 112).

Dilthey is considered one of the most influential philosophers in the philosophy of life. He is closely linked with the historical movement or philosophy of history, which he viewed as a philosophy of understanding – a tool for revealing the essence of life itself.

Dilthey's philosophy is built on the premise that philosophy originates from everyday life problems and must be intimately connected with the knowledge of life. For Dilthey, life itself is the ultimate truth that needs to be understood. This perspective extends to the "human studies" sciences, including history, sociology, law, and politics, which reflect this understanding of life and its complexities.

The goal of the humanities is to address various issues of civilized reality and not to detach from the complexities of human life and its demands. The humanities should not retreat into academic neutrality or submission but should strive for scientific objectivity and actively engage with the challenges and realities of human existence. This engagement should not be about instigating chaos or rejecting established norms under the guise of scientific progress. Rather, it is crucial to integrate the cultural and value contexts into the knowledge content of the humanities. This integration is essential for addressing and solving many of the problems within this field. A productive interaction between these contexts and the study of human phenomena is necessary, with each aspect playing its role effectively (Taref El-Khuli, 2012, p. 136).

Wilhelm Dilthey, initially a theologian, then a philosopher, and later a historian, worked to reform hermeneutics, drawing from Schleiermacher's foundations. He introduced a new method that positioned hermeneutics as fundamental to the humanities. Dilthey established the epistemological foundations for the humanities and distinguished them from the natural sciences, advocating for an approach centered on understanding rather than interpretation for the humanities

Hermeneutics, as a novel approach, focuses on understanding and meaning, particularly in the historical analysis of texts. It seeks to bridge the gap between the past and the present, recognizing that each interpretation is influenced by its specific context and the interests of its time. Different eras pose distinct questions to texts based on their temporal distance and differing concepts and perceptions (Cheriki, 2011, p. 112).

Wilhelm Dilthey aimed to bridge the gap between the past and the present through a philosophical approach centered on differentiating between the curricula of the natural sciences and the humanities. He established the framework for human studies based on hermeneutic principles.

Avropa, Cənubi Qafqaz və Asiya arasında quru nəqliyyat dəhlizi ideyası bir neçə onillik ərzində mövcud olmuş olsa da, belə layihələrə ayrılan investisiyaların həcmi son vaxtlara qədər az idi (Zhangrui, 2021). Ancaq Avropanı Mərkəzi Asiya və Çinlə birləşdirəcək infrastruktur layihələrinə maraq 2022-ci ildə Rusiya-Ukrayna müharibəsinin yenidən alovlanmasından sonra sürətlə artıb. Buna səbəb isə Avropanın yaranmış yeni situasiyada Rusiyadan hərtərəfli asılılığını azaltmaq üçün həm də əsas nəqliyyat arteriyalarını ondan uzaqlaşdırmaq istəyidir. Məsələn, Aİ-nin 2022-ci ildə Azərbaycanla enerji sazişi imzalaması (EU and Azerbaijan enhance bilateral relations, including energy cooperation, 2022), Orta Dəhlizin inşasının sürətləndirilməsi bu məqsədə xidmət edən addımlara nümunədir. Aİ Rusiyadan yan keçmək üçün səylərini gücləndirdiyi bir vaxtda isə Çinin Rusiya ilə ticarəti son bir neçə ildə artıb (Birləşmiş Millətlər Təşkilatının məlumat bazası). Bununla belə, Aİ Çin üçün daha gəlirli ticarət tərəfdaşıdır və Cənubi Qafqazdakı infrastruktur layihələri bu mənada onun Avropa ilə ticarətini asanlaşdırır.

Azərbaycan özünü KYT-nin və Orta Dəhlizin açar qovşaq nöqtəsi kimi təqdim edə bilib. Azərbaycan iqtisadiyyatını neft-qaz asılılığından xilas etməyə çalışır və bunun üçün özünün sənaye sektorundakı layihələrində Çinin aktiv iştirakına ümid edir. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, Azərbaycan və Çin əsl strateji tərəfdaşlardır. Təsadüfi deyildir ki, Bakı və Pekin əməkdaşlığı genişləndirir: iki ölkə 2019-cu ildə 2-ci “Kəmər və Yol Forumu” çərçivəsində 821 milyon dollar dəyərində müqavilələr imzaladılar (Pekində Azərbaycanla Çin şirkətləri 821 milyon dollarlıq sənədlər imzalayıb, 2019). Digər tərəfdən, Çin şirkətləri Azərbaycanda elektrik enerjisi istehsalında da fürsətlərə can atırlar. Məsələn, 2023-cü ilin sentyabrında Çinin Azərbaycandakı səfiri Azərbaycanın ilk irimiqyaslı bərpa olunan elektrik stansiyalarının tikintisi üçün çinli podratçıların cəlb edildiyini bildirib. 2024-cü ilin may ayında isə tərəflər KYT-nin əhəmiyyətini bir daha vurğulayaraq ikitərəfli münasibətləri yeni zirvəyə qaldırma sözü veriblər. Bundan başqa, Çin-Azərbaycan ikitərəfli ticarəti 2023-cü ildə illik müqayisədə 43,5 faiz artaraq 3,1 milyard dollara çatıb və beləcə, Çin Türkiyəni qabaqlayaraq ilk dəfə Azərbaycanın ikinci ən böyük ixracatçısına çevrilib (Yenpinq, 2024).

2015-ci ildə Çinin Avrasiyada öz nüfuzunu artırmaq və “ABŞ-ın başçılıq etdiyi dünya nizamına” meydan oxuyan təşkilatlar yaratmaq cəhdinin bir parçası olan Şanxay Əməkdaşlıq Təşkilatında (ŞƏT) Azərbaycana dialoq tərəfdaşı statusu verilib. ŞƏT Azərbaycan üçün geniş iqtisadi məkan yaradır və Asiya ilə Avropa arasında ticarət-iqtisadi əməkdaşlıqda onun oynadığı rolu bir qədər də möhkəmləndirir. Belə demək olar ki, ŞƏT Azərbaycanın orta güc statusunu gücləndirməsinə şərait yaradan bir platformaya çevrilib.

Azərbaycan həmçinin İran və Rusiya ilə də strateji tərəfdaşlıq əlaqələrini inkişaf etdirir və onların sanksiyalardan yan keçərək iqtisadi əlaqələrini canlı tutma cəhdlərində əvəzolunmaz rol oynaya bilər. Bu kontekstdə Azərbaycan və Türkiyənin müttəfiqliyi isə Azərbaycana regional təsirini artırmağa və Rusiya və İranla daha sıx münasibətlərdə “riskli” davranışlar sərgiləməyə imkan verir. Bakının sabitliyini təmin etmək, onu regional gərginliyin azaldılmasında güclü tərəfdaşa çevirmək Çinin də maraqlarına uyğun olardı.

Çin və Ermənistan arasındakı münasibətlər də son illərdə, xüsusən də KYT çərçivəsində müəyyən bir inkişaf yolu keçib. Bununla belə, KYT-nin Orta Dəhliz və Transxəzər Qaz Kəməri kimi əsas komponentlərinin Ermənistanı hələlik əhatə etməməsi diqqəti cəlb edir. Ermənistanın Qara

dənizdən Fars körfəzinə gedən ticarət yollarını birləşdirən dəmir yolunun yaradılmasını nəzərdə tutan Şimal-Cənub Yol Dəhlizi layihəsində iştirakına baxmayaraq, yetərsiz maliyyələşmə bu layihədə ciddi irəliləyişə mane olub. Bunun əksinə olaraq, Rusiya, İran və Azərbaycan dəmir yolu infrastrukturunu inkişaf etdirərək alternativ şimal-cənub nəqliyyat dəhlizi yaratma planı üzərində işə başlayıblar (Boltuc, 2023). Bu əməkdaşlıq Azərbaycanın İran ərazisi vasitəsilə öz eksklavı olan Naxçıvana çatmaq imkanlarını da genişləndirir və Ermənistanı Şimal-Cənub Yol Dəhlizi layihəsinin icrasından kənarlaşdırır.

Cənubi Qafqazda Ermənistanın coğrafi imkanları zəifdir və buna görə də çox vaxt xarici investorların diqqətindən kənarda qalır. Onun coğrafi mövqeyindən danışarkən həm neftlə zəngin Xəzər dənizinə, həm də olduqca vacib Qara dənizə birbaşa çıxışının olmadığı reallığını kənara atmaq olmaz. Bundan başqa, Ermənistanın Azərbaycanla 30 ildən çox davam edən və hələ də yekun sülh müqaviləsinin imzalanmadığı münaqişəsi və aralarında etimadın o qədər də yüksək olmadığı tərəfdaşı Rusiyadan asılılığı onu təcrid strategiyalarına qarşı kövrək edir. Nə Azərbaycan, nə də Rusiya Ermənistanın başqa ölkələrlə əməkdaşlıq qurmasına imkan verməkdə maraqlıdır və bununla da onun infrastrukturu və beynəlxalq ticarət əlaqələri ləngiyir. Qeyri-sabitlikdən hər zaman çəkinən Çin, çox güman ki, Ermənistanla əlaqələrinə də bu səbəblərdən dolayı tərəddüdlə yanaşır. Əvəzində, Çin potensial olaraq təklif etdiyi sabitliyə görə, enerji baxımından zəngin Azərbaycanla əməkdaşlığa daha maraqlı görünür. Lakin 2023-cü ilin dekabrında açıqlanan rəqəmlər Çinin Ermənistanla da əməkdaşlığı genişləndirməkdə olduğunu göstərib (China Emerges as Armenia's Second-Largest Trade Partner with $1.5 Billion Turnover, 2023).

Ermənistan və Azərbaycanın tarixi sülh sazişinə yaxınlığı onilliklərlə davam edən münaqişədən sonra regionda sülhün bərqərar olması perspektivini gücləndirir. Bununla belə, Azərbaycanın Ermənistanı kənarda saxlamaqda maraqlı olması hətta yeni sabitlik şəraitində belə onun variantlarını məhdudlaşdıra bilər. Ticarət və təhlükəsizlik baxımından Ermənistanı özündən asılı saxlamağa çalışan Rusiya Ermənistanın əsas idxal və ixrac tərəfdaşı olaraq qalır. İkinci ən böyük idxal və üçüncü ən böyük ixrac tərəfdaşı kimi ortaya çıxan Çin özünü Ermənistan üçün yeni potensial tərəfdaş təqdim edir (Birləşmiş Millətlər Təşkilatının məlumat bazası). Bununla belə, bu tərəfdaşlığın reallaşması Çindən Ermənistan iqtisadiyyatına və infrastrukturuna əhəmiyyətli investisiyaların yatırılmasını tələb edəcək və bu, Rusiyanın regionda qəbul edilən ərazi təsirinə meydan oxuyacaq.

2023-cü ilin iyul və avqust aylarında keçirilən görüşlər zamanı Tbilisi və Pekin strateji tərəfdaşlıqlarını elan ediblər (Joint Statement of the People's Republic of China and Georgia on Establishing a Strategic Partnership, 2023). Gürcüstan 2024-cü ildə Qara dənizdə Anaklia dəniz limanı layihəsinin tikintisinə başlamağa hazırlaşır. Bu liman Gürcüstanın ticarət infrastrukturunda böyük əhəmiyyətə malikdir və Qara dənizdə Türkiyə və Avropa ilə ticarətə mane olan dərin dəniz limanı çatışmazlığını aradan qaldıracaq. 2017-ci ildə ABŞ-da yerləşən "Conti International" və Gürcüstanın "TBC Holding" şirkətlərindən ibarət konsorsium dəniz limanının tikintisinə razılıq vermişdi. Bununla belə, amerikalı sərmayəçilərin layihəyə cəlb olunması Rusiya və Çinin də içində olduğu bir geosiyasi qarşıdurmaya çevrilib. Gürcüstanın son zamanlardakı anti-Qərb oriyentasiyasından məntiqi nəticəsi kimi bu razılaşma Gürcüstan hökuməti tərəfindən ləğv edildi. Bu potensial dəyişiklik Gürcüstanın Qərblə əməkdaşlıqdan açıq şəkildə uzaqlaşmasını da göstərir. Son illərdə həmçinin Çin Gürcüstanı Orta Dəhliz üçün vacib hesab etməyə başlayıb.

Gürcüstan hökuməti, nəhayət, 29 may 2024-cü ildə Çin konsorsiumunun strateji Anaklia limanını tikəcəyini elan etdi. Bu günə qədər sövdələşmə ilə bağlı bir neçə təfərrüat ortaya çıxmışdı, lakin Gürcüstanın İqtisadiyyat və Davamlı İnkişaf naziri Levan Davitaşvili mayın 29-da bildirib ki, "China Communications Construction Company" və Sinqapurda yerləşən "China Harbour Investment" şirkətləri dərin dəniz limanının tikintisi və istismarı üçün tenderdə yeganə iddiaçılar olub. O əlavə edib ki, digər iki Çin şirkəti – "China Road and Bridge Corporation" və "Qingdao Port International" layihənin subpodratçısı qismində çıxış edəcək (Georgian Economy Minister says Chinese consortium to be announced as private partner for Anaklia port project, 2024).

Çin və Cənubi Qafqaz regionunun digər kəsişmə sahəsi ərazi bütövlüyü ilə bağlı hekayələri əhatə edir. Gürcüstan və Çin strateji tərəfdaşlıqlarını imzaladıqları üçün Gürcüstanın qeyd-şərtsiz

qoşulduğu paketin bir hissəsi də Vahid Çin Prinsipidir (VÇP). VÇP Çin adı altında yalnız bir suveren dövlətin olmasını, Çin Xalq Respublikasının sözügedən Çinin yeganə qanuni hökuməti olmasını və Tayvanın Çin dövlətinin ayrılmaz hissəsi olmasını nəzərdə tutur. Abxaziya və Cənubi Osetiyadakı vəziyyəti nəzərə alaraq, suverenlik ətrafındakı diskurs Gürcüstan üçün xüsusi əhəmiyyət kəsb edir. İşğal olunmuş Abxaziya və Cənubi Osetiya ilə Tayvan əraziləri arasında paralellik göz qabağındadır: əgər Tbilisi Tayvanın müstəqilliyinin tanınmasına işarə edəcək hər hansı bir addım atsa, bu, Pekini Abxaziya pasportlarını tanımaqla kontr-cavab addımı atmağa sövq edə bilər.

Çinlə strateji tərəfdaşlıq Gürcüstanın Qərblə münasibətləri üçün müsbət təsir etməyə bilər. Məsələn, Gürcüstan Çinin qlobal liderlik təşəbbüsü olan Qlobal Təhlükəsizlik Təşəbbüsünə (QTT) dəstəyini ifadə etdi. Politoloqlar QTT-ni Qərbin rəhbərlik etdiyi qaydalara əsaslanan beynəlxalq nizama qarşı mübarizə aparmaq və NATO-nun bütün dünyada təsirini azaltmaq üçün ortaya atılan siyasi mexanizm kimi qiymətləndirirlər (Chaziza, 2023). Beləliklə, Gürcüstanın QTT-yə dəstəyi Çinin təhlükəsizlik təminatçısı kimi rolunu artırmasında maraqlı olduğunu göstərir. Gürcüstanın bu cür mövqeyi onun NATO-ya üzv olmaq ambisiyaları ilə tamamilə ziddiyyət təşkil edir. Üstəlik, Çinlə yaxınlaşma Gürcüstanın həm də Rusiya ilə münasibətləri yenidən yaxşılaşdırma meyilləri ilə də üst-üstə düşür.

Ərazi bütövlüyü kontekstində Azərbaycan siyasi ideologiyası da Çinin siyasəti ilə üst-üstə düşür. Gürcüstan kimi Azərbaycan da VÇP-yə sadiqliyini bəyan edib. Əvvəllər Ermənistan tərəfindən işğal edilmiş Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisi olan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ilə bağlı münaqişə uzun illər Azərbaycanın xarici siyasətini yön verən əsas faktorlardan biri olub. Buna görə də Çinin Tayvan və suverenliklə bağlı prinsipləri Azərbaycanda dərin rezonans doğurur. Prezident İlham Əliyev "China Media Group" media korporasiyasına 2023-cü il iyulun 24-də verdiyi müsahibəsində Çin-Azərbaycan ikitərəfli münasibətləri ilə bağlı aşağıdakı fikirləri səsləndirməsi bu baxımdan anlaşılandır: "Beynəlxalq gündəliyə aid təməl məsələləri götürsək görərik ki, bizim mövqelərimiz suverenlik, müstəqillik, ərazi bütövlüyü, digərlərinin daxili işlərinə qarışmamaq məsələlərində üst-üstə düşür" (İlham Əliyev Çinin "China Media Group" media korporasiyasına müsahibə verib, 2023). Azərbaycan perspektivindən Çinlə müttəfiqlik öz məqsədlərinə doğru strateji addımdır və milli maraqlarını təmin etmək üçün qəbul etdiyi praqmatik yanaşmanı nümayiş etdirir.

2023-cü il dekabrın 7-də tarixdə ilk dəfə olaraq Azərbaycan və Ermənistan iki xalq arasında hərtərəfli sülhə ümid verən birgə bəyanat yaydı (Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatının birgə açıqlaması, 2023). Qeyd edilməsi vacib amil budur ki, bu irəliləyiş heç bir üçüncü tərəfin iştirakı olmadan Bakı və İrəvan arasında birbaşa ikitərəfli danışıqlar yolu ilə əldə edilmişdi. Sülh və normallaşmaya can atmaq həm Bakının, həm də İrəvanın maraqlarına uyğundur. Çünki bu, həm iqtisadi inkişaf üçün yeni imkanlar təklif edir, həm də üçüncü tərəflərin regionda hibrid müharibəsinin əsas alətlərindən birini aradan qaldırmış olur. Eyni zamanda bu inkişaf Çin üçün də qapılar açır. Region sabitləşdikcə Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması Orta Dəhliz çərçivəsində əməkdaşlıq və investisiyalar üçün imkanlar yarada bilər.

## Nəticə

Cənubi Qafqazın regional dinamikasının sürətlə dəyişdiyini iddia etmək yanlış olmaz. Ənənəvi olaraq Rusiya ilə Qərb burada təsir dairəsi üzərində mübarizəyə davam edərkən, Çin səssiz şəkildə başqalarının yaratdığı boşluğu doldurmaq üçün hərəkətə keçib. Bununla belə, eyni zamanda region ölkələrinin özləri də, xüsusilə Azərbaycan və Gürcüstan ticarət sazişləri və strateji tərəfdaşlıqlar vasitəsilə mövqelərini möhkəmləndirməklə ortada gedən bu mübarizədən öz maraqlarının diktəsi üçün istifadə etməyə çalışır. Buna görədir ki, adıçəkilən region ölkələri fokuslarını təkcə Aİ-yə deyil, həm də şərqə, Çinə çevirərək ticarət sazişlərini şaxələndirməyə çalışırlar. Asiyadan Avropaya gedən ticarət yollarında həyati əhəmiyyət kəsb etmək qarşıdakı bir neçə onillik üçün region ölkələrinin geosiyasi çəkisini müəyyən edəcək açar amildir.

Cənubi Qafqazda Rusiya və Çin arasındakı güc dinamikası onların strateji tərəfdaşlığının həm güclü, həm də zəif tərəflərini nümayiş etdirir. Çin və Rusiyanın fikir ayrılıqlarını idarə etmək üçün bir-birini ehtiyatlı şəkildə tarazlaşdırdığı bir "Orta Asiya" presedenti olsa da, Rusiyanın tarixən çox geniş təsir imkanlarına sahib olduğu "yaxın xaric"i Çin-Rusiya münasibətləri üçün hər zaman partlamağa hazır potensial "barıt çəlləyi"dir. Üzərində durulmalı əsas risk odur ki, Rusiya ticarət axınını pozmaq və özünü yenidən ticarət tərəfdaşı kimi aktuallaşdırmaq üçün Cənubi Qafqaz ölkələri və Orta Dəhlizi hibrid üsullarla hədəf ala bilər. Buna görə də əsas sual Rusiyanın regional gücünü məhdudlaşdırma cəhdlərinə reaksiya verib-verməyəcəyi yox, bu reaksiyanın nə vaxt və hansı miqyasda olacağıdır.

## Ədəbiyyat

1. *Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatının birgə açıqlaması*. (2023, 7 dekabr). Azərtac. https://azertag.az/xeber/azerbaycan_respublikasi_prezidentinin_administrasiyasi_ve_ermenistan_respublikasi_bas_nazirinin_aparatinin_birge_achiqlamasi-2844025
2. Birləşmiş Millətlər Təşkilatının məlumat bazası (UN COMTRADE).
3. Boltuc, S. (2023, October 9). *Strategic Significance of the new Azerbaijan-Iran Railway Project: Shaping South Caucasus Geopolitics*. Special Euraasia. https://www.specialeurasia.com/2023/10/09/azerbaijan-iran-railway/
4. *China Emerges as Armenia's Second-Largest Trade Partner with $1.5 Billion Turnover*. (2023, December 11). Caucasus Watch. https://caucasuswatch.de/en/news/china-emerges-as-armenias-second-largest-trade-partner-with-15-billion-turnover.html
5. Chaziza, M. (2023, May 5). *The Global Security Initiative: China's New Security Architecture for the Gulf*. The Diplomat. https://thediplomat.com/2023/05/the-global-security-initiative-chinas-new-security-architecture-for-the-gulf/
6. *EU and Azerbaijan enhance bilateral relations, including energy cooperation*. (2022, July 18). European Union. https://ec.europa.eu/commission/presscorner/detail/en/ip_22_4550
7. *Georgian Economy Minister says Chinese consortium to be announced as private partner for Anaklia port project*. (2024, May 29). Azərtac. https://azertag.az/en/xeber/georgian_economy_minister_says_chinese_consortium_to_be_announced_as_private_partner_for_anaklia_port_project-3028902
8. *İlham Əliyev Çinin "China Media Group" media korporasiyasına müsahibə verib*. (2023, 24 iyul). President.az. https://president.az/az/articles/view/60572*Joint Statement of the People's Republic of China and Georgia on Establishing a Strategic Partnership*. (2023, August 7). Embassy of the People's Republic of China in Georgia. http://ge.china-embassy.gov.cn/eng/xwdt/ 202308/t20230807_11123383.htm
9. *Pekində Azərbaycanla Çin şirkətləri 821 milyon dollarlıq sənədlər imzalayıb*. (2019, 24 aprel). Azərtac. https://video.azertag.az/video/74342
10. Yenpinq, Y. (2024, April 24). *Azerbaijan hoping to attract more Chinese investors amid closer economic relations*. Global Times. https://www.globaltimes.cn/page/202404/1311157.shtml
11. Zhangrui, X. (2021, February 9). *28 years on, China-Europe land bridge forging stronger ties*. CCTV.com. https://english.cctv.com/2021/02/09/ARTInbczf4WN06i5blgpfFX3210209.shtml

Daxil oldu: 29.06.2024
Baxışa göndərildi: 20.07.2024
Təsdiq edildi: 11.08.2024
Çap olundu: 30.09.2024

https://doi.org/10.36719/2706-6185/39/36-42

**Fatma Hacıyeva**
Naxçıvan Dövlət Universiteti
fatmahaciyeva022@gmail.com

# Naxçıvan Muxtar Respublikasının orta məktəblərində müəllim-şagird münasibətləri

### Xülasə

Məqalədə Naxçıvan Muxtar Respublikasında yerləşən orta məktəblərdə müəllim-şagird münasibətlərindən danışılmış, onların birgə əlaqələrindən, yaradıcı müəllimlərin dövlət standartlarına əməl etməsindən, şəxsi təhsilinin artırılmasından, hər dərs üçün müxtəlif tədqiqetmə formalarının mövcudluğundan və bütün bunların şagirdlərə müsbət təsirindən danışılır.

Məqalədə həmçinin müəllimlərin konkret hədəflərindən, məqsədlərindən, yumor hisslərindən, risk bacarıqlarından, işlərini ardıcıl yerinə-yetirmələrindən, valideynlərlə əlaqələrindən, işlərindən zövq almalarından, sinifdə aparılan dəyişikliklərdən və s. danışılmış, bunların şagirdlərə müsbət təsiri ətraflı şəkildə şərh olunmuşdur.

Müəllim-şagird münasibətlərinin düzgün qurulması, şagirdlərimizin həm təhsildə, həm də həyatda yüksək mövqe tutmaları, keyfiyyətli təhsil üçün sinfin düzgün idarə edilməsinin əhəmiyyəti qeyd edilmişdir. Məqalədə həmçinin Naxçıvan Muxtar Respublikasında ümumtəhsil sahəsində görülən işlər, aparılan islahatlardan bəhs olunmuşdur.

Nəticə olaraq qeyd edə bilərik ki, təhsildə aparılan kompleks islahatların təsiri nəticə etibarilə sinif otaqları mühitində reallaşır və şagirdlərin göstərdiyi təlim nəticələrinin yüksəldilməsinə xidmət edir. Məktəblərdə "müəllim-şagird" münasibətinin düzgün qurulması, şagirdlərə fərdi yanaşaraq onlara bilik, bacarıq və vərdişlərinin üzə çıxarılması, onların qabiliyyətlərini müəyyənləşdirib həmin istiqamətdə yönəldilməsi şagirdlərin düzgün şəkildə formalaşmasına və inkişaf etməsinə kömək edir.

***Açar sözlər:*** *müəllim, şagird, yeniliklər, hədəflər, təhsil, tədris, nizam, intizam*

**Fatma Hajiyeva**
Nakhchivan State University
fatmahaciyeva022@gmail.com

# Teacher-Student Relationship in Secondary Schools of Nakhchivan Autonomous Republic

### Abstract

The article talks about the teacher-student relationship in secondary schools located in the Nakhchivan Autonomous Republic, their joint relationship, compliance of creative teachers with state standards, increasing their personal education, the presence of different forms of research for each lesson, and their positive impact on students.

The article also talks about teachers having specific goals, having the right goal, having a sense of humor, being able to take risks, doing their work consistently, relationships with parents, enjoying their work, changes in the classroom, etc. were talked about, and the positive effect of these on the students was explained in detail.

The correct establishment of the teacher-student relationship, the importance of the proper management of the class for quality education and the high position of our students both in education and in life has been mentioned. The article also talks about the work done in the field of general education and the reforms carried out in the Nakhchivan Autonomous Republic.

As a result, we can note that the effect of complex reforms in education is ultimately realized in the classroom environment and serves to improve the4 learning results of students. Correct establishment of the "teacher-student" relationship in schools, approaching students individually

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

and revealing their knowledge, skills and habits, identifying their abilities and directing them in that direction helps students to form and develop properly.
***Keywords:*** *teacher, student, innovations, goals, education, teaching, order, discipline*

## Giriş

Bəşəriyyətin çoxəsrlik, zəngin tarixi təcrübəsi sübut edir ki, ictimai, sosial tərəqqinin əsasını təhsil və elm təşkil edir. Azərbaycan dövlətçilik əsaslarını yaratmış ulu öndər Heydər Əliyev xalqımızın tərəqqisinin yeganə yolunu təhsildə, elmdə və mədəniyyətdə görmüş, öz həyatını və fəaliyyətini bu məqsədin həyata keçirilməsinə həsr etmişdir. Ulu öndərimiz elm və təhsili inkişafın ən qüdrətli vasitəsi hesab edirdi.

Təhsilin hər bir cəmiyyətin, dövlətin mühüm sahəsi olduğunu dərindən bilən ulu öndər qeyd edirdi ki, "Azərbaycan xalqının, müstəqil Azərbaycanın gələcəyi gənclərin bu gün aldıqları bilik, təhsil və tərbiyədən asılıdır. Bunlar xalqımızın mənəvi dəyərlərini, ölkəmizin müstəqilliyini qoruyub saxlayacaqdır".

**Tədqiqat**

Heydər Əliyev xalqımızın uzun əsrlər boyu formalaşmış yüksək milli-mənəvi dəyərləri qorumağı öyrənməyi və gələcək nəsillərə ötürməyi tövsiyə edirdi. Ona görə də müəllimin fəaliyyətinə həm də şagirdin bilik, bacarıq və vərdişlərini qiymətləndirmək, nailiyyət və geriləmələrin səbəbini axtarıb tapmaq da daxildir. Müəllim dərs dediyi sinfi çox yaxşı tanımalıdır, öyrənmə-öyrətmə prosesinin mövzuya, sinfə və müəllimə uyğun olması, təhsilin sonunda öyrənmə səviyyəsinin ölçülməsinin və bütün təhsil fəaliyyətinin müxtəlif yönümlü istiqamətləndirməsi lazımdır. Bütün bu işlərin aparılmasında ölçmə və qiymətləndirmə fəaliyyəti əhəmiyyətli funksiyaya malikdir.

Azərbaycan Respublikası Prezidentinin 25 fevral 2008-ci il tarixli, 714 nömrəli fərmanı ilə "Ən yaxşı müəllim müsabiqəsinin keçirilməsi Qaydaları" təsdiq edilmişdir. Müsabiqənin keçirilməsində başlıca məqsəd, ölkənin ümumtəhsil müəssisələrində çalışan yaradıcı müəllim potensialını üzə çıxarmaq, müasir təlim texnologiyalarının tətbiqi sahəsində uğurlu nəticələri ilə fərqlənən istedadlı müəllimləri müəyyən etmək, novatorluğa və innovasiyalara meyilli müəllimlərə pedaqoji ustalıqlarını nümayiş etdirmək üçün səmərəli şərait yaratmaq, cəmiyyətdə müəllimin statusunu və nüfuzunu yüksəltmək, dövlətin təhsil siyasətinin həyata keçirilməsində müəllimin rolunun getdikcə artmasına nail olmaq və onların peşəkarlıq səviyyəsinin yüksəldilməsində stimullaşdırıcı tədbirlərin mühüm əhəmiyyət daşıdığını geniş ictimaiyyətin diqqətinə çatdırmaqdan ibarətdir. Yaxşı müəllim yaxşı şagird deməkdir. Müəlim nə qədər savadlı, peşəkar olarsa, şagirdlərimiz də bir o qədər savadlı və istedadlı olarlar.

Azərbaycan məktəblərində günü-gündən artan nailiyyət göz qabağındadır. Müəlim-şagird münasibətlərinin gözəl olması yüksək istedadlı və səviyyəli tələbə deməkdir. Uğurlarımız getdikcə davam edir, nailiyyətlərimiz artır (Süleymanova, 2014, s. 58).

Naxçıvan Muxtar Respublikasında elektron təhsilin tətbiqinin yüksək səviyyədə təşkili və həyata keçirilməsi müasir tələblərə uyğunlaşmanın ən bariz nümunələrindən biridir. Naxçıvan Muxtar Respublikası təhsilinin inkişafının əsas istiqamətləri müəyyən edilərkən informasiya və kommunikasiya texnologiyalarının ümumtəhsil məktəblərində ön plana çəkilmiş, 2005-ci ildən etibarən təhsil sistemində informasiya və kommunikasiya texnologiyaları (İKT) tətbiq edilməyə başlamışdır ki, bu da həm müəllimlərimizin, həm də şagirdlərimizin işini daha da asanlaşdırmışdır.

2003-cü ildən bu vaxta qədər informasiya və kommunikasiya texnologiyalarına dair xüsusi təlimlərdən keçmişdir. Respublikamızın 50 təhsil müəssisəsində "Elektron məktəb" layihəsinə başlanmış, mövcud DATA mərkəzi, elektron təhsil resursları bazası, vahid təhsil portalı səmərəli idarəetməni təmin etməyə başlamışdır. Bu da müəllim və şagirdlərin daha yaxşı anlaşmalarına stimul verir və dərsin mənimsənilməsinə, yüksək nailiyyətlər əldə edilməsinə, səmərəli idarəetməyə, yüksək uğur qazanmağa nail olunur (Süleymanova, 2014, s. 58).

Ölkəmiz müstəqillik qazandıqdan sonra bütün sahələrdə, eyni zamanda təhsil qarşısında da mühüm vəzifələr qoyulmuşdur. Təhsil sisteminin dəyişilməsi və yeniləşməsi problemləri irəli sürülmüş, ABŞ, Avropa və s. bu kimi qabaqcıl ölkələrin təhsil sisteminə inteqrasiya olunması

məsələləri ön plana çəkilmişdir. Ulu öndər Heydər Əliyev demişdir: "İndi təhsil sistemində islahatların əsas məqsədi ondan ibarətdir ki, Azərbaycan təhsil sistemi dünya təhsil sisteminin standartlarına uyğunlaşsın".

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda təhsil sisteminin dövlət təhsil standartlarına cavab verən inkişaf istiqamətləri və müasir tələblərə uyğun hədəfləri müəyyənləşdirilmiş, təhsil işçiləri qarşısında yeni məsul vəzifələr qoyulmuşdur" (Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası, 2013, s. 105).

Naxçıvan Muxtar Respublikasında da təhsil sistemi ən qabaqcıl ölkələrin təhsil prinsiplərindən istifadə etməklə öz təhsilini təkmilləşdirir, məzmun və struktur dəyişiklikləri aparır, təhsilin bütün pillələri üzrə kurikulumların hazırlanması məsələlərinə baxılır. Naxçıvan Muxtar Respublikasının bütün məktəbləri yenilənmiş və təhsil sistemi yüksək sürətlə inkşaf etmişdir.

Ümumiyyətlə, respublikamızın bütün məktəblərində həm də müasir texnologiyalardan istifadə olunur.

Tədris universal bir məşğuliyyətdir. Hər kəs bir-birinə nə isə öyrədir. Tədris öyrənmə prosesinin təsirli ola bilməsi üçün öyrədən və öyrənən arasında xüsusi bir əlaqənin qurulması vacibdir.

Yaxşı müəllim, onu yaxşı edən hər hansı xüsusiyyətlərə malik olmalıdır. Əgər müəllimlə şagird arasında qarşılıqlı fəal dinləmək, hörmət və etibar, birgə problem həll etmək, öz fikirlərini bölüşmək kimi xüsusiyyətlər formalaşırsa, deməli, müəllim-şagird əlaqəsi məqsədəuyğun qurulmuşdur.

Bəzən təlim zamanı müəllimlər şagirdlərə elə mesajlar verirlər ki, bu şagirdi qıcıqlandırır. Məsələn, şagirdlərə xəbərdarlıq etmək, əxlaq dərsi vermək, qorxutmaq və s. hədələr şagirdi əsəbləşdirir.

Müəllim bunları edərkən şagirdə kömək etdiyini düşünür. Lakin bu zaman şagirdin şəxsiyyətinə təsir edir və o, müəllimdən, dərsdən, məktəbdən incik düşür (Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası, 2015, s. 105).

Bəzən şagirdi tənqid etmək və ya yersiz tərif etmək də onda qıcıq yaradır. Müəllimin qarşısında duran ən ümdə məqsəd şagirdə keyfiyyətli təhsil verməkdir ("Kurikulum" jurnalı, 2016, s. 23).

Demək olar ki, hər bir məktəbdə aşağıdakı kateqoriyalı müəllimlər vardır:

- yaradıcı müəllimlər,
- pedaqoji çalışqanlığı olan müəllimlər,
- xüsusi diqqət tələb edən müəllimlər.

Yaradıcı müəllimlər dövlət standartlarına əməl edir, şəxsi təhsilini artırır, hər dərs üçün müxtəlif təqdimetmə formaları tətbiq edir və s. Onların dəqiq müəyyənləşdirdiyi hədəfləri vardır.

Təhsil dünyasında müəllimin şagird üçün müəyyənləşdirdiyi hədəflər məqsədlərinə çatmaqdır. Uğurlar və məqsədyönümlü təlim prosesinin təşkili əvvəlcədən mükəmməl hazırlanmış planlaşdırmadan asılıdır.

Pedaqoji çalışqanlığı olan müəllimlər isə dövlət standartlarına əməl etməyə çalışır, öyrənməyə həvəslidir, qaydalara düzgün əməl edir, şagirdlərdə hər hansı bacarıqlar formalaşdıra bilir. Onlar öz üzərlərində işləyərək, gələcəkdə yaradıcı müəllimlərə çevriləcəklər (Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası, 2013, s. 93). Xüsusi diqqət tələb edən müəllimlər isə müasir tələblərə cavab verməyənlərdir. Onlar tədris etdiyi fənlərə, yeniliklərə, dövlət standartlarına biganədirlər. Bu cür müəllimləri seminarlara, təlimlərə cəlb etmək və şəxsi təhsillərini diqqətdə saxlamaq lazımdır.

Müəllimlik dövlətin təhsil, tədris və bununla əlaqədar idarəetmə vəzifəsini üzərinə götürən xüsusi ixtisasdır.

Müəllimlər davamlı olaraq fərqli şagird potensialı ilə qarşılaşırlar. Bu fərqliliklər yaş qrupları, potensial səviyyələrdə mövzu sahələri və sosial-iqtisadi quruluş şəklində ortaya çıxa bilər. Belə olan hallarda müəllimlərdən fərqli yanaşma, üsul və texnikalardan istifadə etmə tələb edilir.

Müəllim təhsili idarə edənlərin sırasında ilk və təməl pillədir. Təhsilin idarə edilməsinin keyfiyyəti müəllimin sinfi idarəetməsinin keyfiyyəti ilə bağlıdır. Sinfin idarə edilməsini reaksiyaverici, tədbirləyici, inkişafetdirici və vahid model olaraq qruplaşdırmaq olar.

Reaksiyaverici modelin istifadəsində demokratiklik önəm daşıyır. Sinfə kitab-dəftər gətirməyən şagird davranışının dəyişdirilməsi məqsədilə reaksiyaverici modeli istifadə edərkən, şagirdlə görüş,

valideynlərlə görüş, ictimailəşdirmə kimi üsullardan istifadə edilir. Bu üsulların istifadəsi və formaları fərqli variantlarla həyata keçirilir. Reaksiyaverici model klassik model də adlandırılır (Mehrabov, 2005, s. 71).

Tədbirləyici model planlaşdırılmış modeldir. Bu modelə görə arzuolunmaz nəticə və davranışlar üçün əvvəlcədən tədbirlər planı hazırlanmalıdır. Modelin məqsədi, sinif problemlərinin ortaya çıxmasına imkan vermədən nizam-intizam yaradaraq reaksiyaverici modelə ehtiyacı azaltmaqdır. Bu model sinif fəaliyyətini ictimailəşdirir, səhv davranışları sistemləşdirir (Mikhaylova, 2012, s. 57).

İnkişafetdirici model sinfin idarə edilməsində şagirdlərin fiziki, idraki inkişaf səviyyələrinin reallaşdırılmasına əsaslanır. Bu modellə sinfi idarə etmək üçün əvvəlcə bu bacarıqları şagirdlərdə formalaşdırmaq lazımdır.

Sadalanan tədbirlər müddətində seçiləcək davranış qaydaları şagirdin inkişaf pillələri ilə uyğun olmalıdır. Modellər sinif idarəetməsinin sistemi olub, məktəbdə, ailədə, asudə vaxtda şagirdlərin fəaliyyətini özündə cəmləşdirir. Sinfi idarəetmə çoxistiqamətli və böyük səy tələb edir. Gün ərzində şagirdlərlə birlikdə olmaq onların davranışlarını planlaşdırmaq, sinifdəki hər şeydən xəbərdar olmaq lazımdır. Müəllim şagirdlərlə mütəmadi məşğul olmalıdır. Təəssüf ki, bəzi müəllimlər bunun fərqinə varmırlar (Ümumtəhsil səviyyəsində yeni dövlət proqramları (kurikulumları), 2013, s. 92).

Sinfin idarəedilməsində ən əhəmiyyyətli açar sevgi və qarşılıqlı hörmətdir. Belə mühitdə müsbət intizam olacaqdır. Unutmamalıyıq ki, qarşılıqlı sevgi olmadan təlim-tərbiyə prosesi yaxşı nəticə verə bilməz. Əvvəlcə şagirdlərə məktəbi və sinfi sevdirməli, sonra tədrisə keçilməlidir.

Bəzən məktəblərdə müəllimlər özbaşına qərarlar verirlər. Lakin hər verilən qərar şagirdlərlə birgə müzakirə edilməlidir. Ortaq məxrəcli qərarların olduğu sinifdə onlara riayət etmək müəllimdən əvvəl şagirdlərin diqqətindən yayınmır. Bu da sinfin idarə olunmasında əhəmiyyətlidir. Təbii ki, müəllimin də qəbul edəcəyi, xüsusilə zəruri olan qərarları vardır. Ümumiyyətlə, dövlətimizin əsas məqsədi keyfiyyətli təhsildir. Təhsil sahəsində bütün islahatların məqsədi məhz onun keyfiyyətinin yüksəldilməsinə nail olmaqdır.

Şagirdin təlim nəticələri təhsil sahəsində baş verən bütün fəaliyyətlərin yekun nəticəsi kimi ortaya çıxdığından, şagirdin təlim nəticələrindən çıxış edərək müəllimin tədris fəaliyyəti təhsil müəssisələrinin, bütövlükdə ölkənin təhsil sisteminin fəaliyyətini də qiymətləndirmək mümkündür. Azərbaycan Respublikasının ümumi təhsil sistemində qiymətləndirmə sistemi yaradılmaqdadır (Məmmədova, 2022, s. 72).

Müəllimin fəaliyyətinə həm də şagirdin bilik, bacarıq və vərdişlərini qiymətləndirmək, nailiyyət və geriləmələrinin səbəblərini axtarıb tapmaq da daxildir. Müəlim dərs dediyi sinfi çox yaxşı tanımalıdır (Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası, 2015, s. 28).

Şagird vaxtının çoxunu məktəbdə, müəllim və sinif yoldaşları ilə birgə keçirir. Müəllim-şagird əlaqələri digər əlaqələrdən çox fərqlidir, çünki burada əsas məqsəd öyrənmək və nəyi isə öyrətməkdir.

Müəllim və şagird əlaqəsinin əsasını söz və təmas təşkil edir. Müəllimin şagird ilə yaxşı bir dialoq qura bilməsi şagirdin dərsdə daha aktiv iştirakını təmin edir. Müəllimi ilə rahat, çəkinmədən əlaqə qura bilən şagird ona verilən tapşırıqları aktiv şəkildə yerinə yetirə və nümunəvi davranışları ilə hər kəsə xoş təsir bağışlaya bilər. Müəllim dərs dediyi müddətdə şagirdləri ilə necə bir dialoq quracağı və onları necə yönləndirəcəyi barəsində daim düşünməlidir.

Şagirdlər müəllimlərdən çox tez təsirlənirlər. Yaxşı bir təhsilin ola bilməsi üçün şagird-müəllim münasibətləri yüksək səviyyədə olmalıdır. Müəllim həmişə şagird tərəfindən sevilməlidir.

Bacarıqlı müəllimin konkret hədəfləri olmalıdır. Doğru yolda olduğunu bilməli və doğru məqsədi olmalıdır.

Bacarıqlı müəllim qarşılıq gözləmədən işləyə bilməlidir. Bir dərs günündə şagirdlərlə çox səmimi olmaq, dərsin çox gözəl keçdiyini bildirmək və gülümsəyərək dərsi bitirmək müəllimin əsas işi olmalıdır. Ümumiyyətlə, müəllim şagirdin fikirlərini dəyərləndirməyi bacarmalıdır.

Şagirdlərin dərsə necə münasibət bəslədiklərini bilmək çox vacibdir. Şagirdlərinə qulaq asmayan müəllim bir müddət sonra bacarıqsız müəllim kimi tanınacaq. Lakin bütün gün şagirdlərini dinləyən, onların verdiyi suallara ətraflı və səmimi şəkldə cavab verən, şagirdlərin fikrini tam

şəkildə yerinə yetirən müəllimi isə şagirdlər bacarıqlı müəllim kimi tanıyır və hörmət edir (Məmmədova, 2022, s. 55).

Müəllim həm də nümunəvi davranışa sahib olmalıdır. Yaxşı müəllimlərin xoşniyyətli və xoşbəxt görünüşləri, həyat dolu enerjiləri olmalıdır. Müsbət düşüncəli olmaq yaradıcılıq qabiliyyətinin inkişafına şərait yaradar. Müəllim hər bir şagirdin uğur qazanacağına inanmalıdır. Şagirdlər öz bacarıqlarını görəcək ağıllı və savadlı insanları ətrafında görmək istəyərlər. Bacarıqlı müəllimlər hər zaman şagirdlərə hədəfləri yüksəkdə qoyub, uğura gedən yolda səhvlər etməyin normal olduğunu izah edər, şərait yaradar. Bu da şagirdlərdə hədəfə gedən yolda səhv etsələr də, ruhdan düşməmələri üçün yaxşı bir motivasiya verər (Təhsil haqqında Azərbaycan Respublikasının qanunu, 2009, s. 57 ).

Yaxşı müəllimin həm də yumor hissi olmalı, səmimi tərif dolu sözlər deməli, risk etməyi bacarmalıdır.

Risk edib addım atmaq uğur qazanma formulunun bir parçasıdır. Şagirdlər risk edərkən səhv edəndə bu səhvlərin öhdəsindən necə gəldiyini onlara göstərərkən onlar çox maraq və diqqətlə izləyəcəklər. Bu çox vacib və dəyərlidir (Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası, 2015, s. 109).

Müəllim işini ardıcıl görməyi bacarmalı, valideynlərlə hər zaman əlaqə saxlamalıdır. Valideynlərlə müəllimlər arasında əlaqə bir şagirdin bacarıqlı ola biməyi üçün çox vacib və dəyərlidir. Valideynlərlə elə əlaqə yaratmaq lazımdır ki, onları narahat edən bir məsələ olduqda, rahatlıqla müəllimə müraciət etsinlər. Valideynlərlə müəllim arasında əlaqə nə dərəcədə yaxşı olarsa, şagirdin seçimi də düzgün olar (“Kurikulum” jurnalı, 2016, s. 125).

Müəllim işindən zövq almalıdır və şagirdlərin ehtiyaclarına uyğun şəkildə adaptasiya olmalıdır. Şagirdlər böyüdükcə öyrətmə üsulları da dəyişməlidir. Şagirdlər və hədəflər arasında bir əlaqə qurulmalıdır. Bu zaman daha az problem yaranar (Məmmədova, 2022, s. 56).

Ümumiyyətlə, müəllim sinifdəki dəyişiklikləri xoş münasibətlə qarşılamalıdır. Bəzən sinif dəyişdirmək də şagirdlərə yeni motivasiya verir və bəzən partaların yerini dəyişdirmək, şagirdlərin yerini dəyişdirmək sinfin əhvalını dəyişdirir. Bu, şagirdlərin yenidən enerji ilə dərsdə həvəslə iştirak etmələrinə kömək edir.

Müəllim şagirdlərə hər zaman duyğusal dəstək olmalı, bəzən sinfə əyləncə gətirməlidir. Sinifdə həddindən artıq ciddi olmaq olmaz. Bəzi günlərdə hədəf “əyləncə” olmalıdır. Bacarıqlı müəllim uşaqların psixoloji vəziyyətləri ilə daim maraqlanmalıdır. Depressiya, narahatlıq və zehni stress öyrənmə prosesinə ciddi təsir göstərə bilər.

Müəllim heç vaxt öyrənməkdən əl çəkməməlidir, bəzən öz ciddi qaydalarını da dəyişdirməyi bacarmalıdır. Bu qaydalar bəzən şəxsi qaydalar da ola bilər. Məsələn, “Bunu heç vaxt etmərəm” deyən biri və yaxud “Heç vaxt şagirdlərin bir-birinə qiymət verməsinə icazə verməriəm” deyən müəllim özünə ciddi qayda qoya bilər. Şagirdlərdə qaydanı dəyişdirəndə də bunun effektinin yaxşı olacağını müəllim bilməlidir (Elmi-metodik “Kurikulum” jurnalı, № 2016, s. 85).

Ən nəhayət ki, müəllim öz sahəsində professional olmalıdır. Təhsil metodologiyasına əlavə olaraq öz sahəsini yaxşı bilməli, öyrənməyi heç vaxt buraxmamalı, maraq axtarışında olmalıdır (Zakharova, 2003, s. 159).

Ona görə də Naxçıvan Muxtar Respublikasının bütün məktəblərində yüksək təhsilli şagirdlər təhsil alır. Hər il universitetlərə qəbul olan tələbələrin sayı artır və bu da həm müəllimlərin, həm də valideynlərin birgə səyi nəticəsində əldə olunur. Müəllim-şagird münasibətlərinin xeyrini, yüksək səviyyədə olduğunu bilirik və buna da davam etməyə çalışacağıq.

**Tədqiqatın metodu**

Taranma modelində formalaşdırılan tədqiqatda mövzu ilə əlaqəli elmi ədəbiyyata istinad edilərək əldə edilən məlumatlar ümumiləşdirilmişdir. Eyni zamanda Naxçıvan Muxtar Respublikasının müxtəlif məktəblərində müşahidələr aparılmış, şagird-müəllim münasibətlərinin mənfi və müsbət halları müzakirə olunmuş və əldə olunan nümunələr ətraflı şəkildə izah olunmuşdur.

**Tapıntılar**

Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında ümumtəhsil məktəbləri uğurlu inkişaf yolu keçmişdir. Naxçıvan Muxtar Respublikasının bütün orta məktəblərində təhsil maarifçilik

hərəkəti ilə üzvi surətdə bağlı olaraq böyük nailiyyətlər əldə etmişdir. XX əsrin əvvəllərindən etibarən burada təhsil şəbəkəsi genişlənmiş, maarifçi ziyalıların yeni nəsli yaranmış, dünyəvi məktəblər fəaliyyətə başlamışdır. Bu dövr təhsildə baş verən ən mühüm dəyişikliklərdən biri azərbaycanlı qızların təhsilə cəlb edilməsi oldu. Müasir dövrdə pedaqoji yanaşmada əsas paradiqmalar dəyişdiyindən müəllim-şagird münasibətləri də buna uyğunlaşdırılmalıdır. Şagirdin obyektdən subyektə doğru inkişafı, ona şəxsiyyət kimi yanaşılmasını bütün təlim prosesinin şagirdin marağı, qabiliyyəti üzərində qurulmasını, onun fərdi-psixoloji xüsusiyyətlərinin nəzərə alınmasını tələb edir. Bu gün müəllim qarşısında dərsdə susan, yalnız sual verdikdə cavab verən, heç bir təşəbbüskarlıq göstərməyən dünənki şagirddən tamamilə fərqli bir insan dayanmışdır. İndi şagird müəllimlə əməkdaşlıq edir, öz fikir və mülahizələrini sərbəst şəkildə bildirir, rəy söyləyir, fərqli yanaşma nümayiş etdirə bilir, hətta müəyyən məsələlərdə müəllimlə razılaşmaya da bilir.

## Nəticə

Dünya ölkələrində yeni təhsil konsepsiyaları tətbiq olunur. Artıq bir ildir ki, Naxçıvan Muxtar Respublikası məktəblərində də yeni təhsil proqramları həyata keçirilir və təbii ki, islahatlar prosesində dəyişikliklərdə müəllimlər həlledici sima kimi çıxış edirlər. Təhsildə aparılan kompleks islahatların təsiri nəticə etibarilə sinif otaqları mühitində reallaşır və şagirdlərin göstərdiyi təlim nəticələrinin yüksəldilməsinə xidmət edir. Müəllim-şagird münasibətlərinin daha da yaxşılaşması üçün məktəblərdə müəyyən işlər görülür. Azərbaycanda təhsilin inkişafını və onun həyata keçirilməsini konseptual baxımdan əsaslandıran iki ən vacib sənədin – “Azərbaycan Respublikasının ümumi təhsil Konsepsiyası” – Milli kurikulum (2006) və “Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)”nın (2011) təhlili bir daha təsdiq edir ki, məktəblərdə pedaqoji proses təhsilalanın bütöv şəxsiyyət kimi formalaşması tələbatlarına cavab verməli, cəmiyyətin təhsil gözləntilərini doğrultmalı, dövlət tərəfindən müəyyən olunmuş məqsəd və vəzifələr lazımi səviyyədə yerinə yetirməlidir. Yeni təsdiq olunmuş təhsil konsepsiyası 20-30 il əvvəlkindən əhəmiyyətli dərəcədə fərqlənir. Azərbaycanda təhsilin günü-gündən daha da inkişaf etməsi müəllim-şagird münasibətlərinin düzgün qurulmasından da asılıdır. Qeyd etmək lazımdır ki, aparılan uzunmüddətli tədqiqatlar göstərir ki, Naxçıvan Muxtar Respublikasının müxtəlif məktəblərində şagirdlərin inkişafı müəllimlərin sistematik və düzgün münasibəti nəticəsində yaranır. Bu münasibət həm də yeni kurikulumlarla aparılan dərslərdə şagirdlər həm öz fikirlərini sərbəst şəkildə bildirir, həm də mənimsədikləri materialları tətbiq etməyi öyrənirlər. Bu da onlarda biliklərin möhkəmlənməsinə və uğurlara gətirib çıxarır. Bunlarla yanaşı, müəllimlər şagirdlərin akademik bacarıqlarını sosial bacarıqlarla əlaqələndirirlər (Süleymanova, 2014, s. 152).

Siniflərdə aparılan tədqiqatlardan belə qənaətə gəlmək olur ki, kurikulum islahatının ilkin mərhələsində müəllimlərin verdiyi dəstəyin səviyyəsi peşəkarlıq səviyyələrinə olan inam və uzunmüddətli təcrübələr şagirdlərdə daha da yaxşı ruh yüksəkliyi yaradır və yaxşı oxumalarına təkan verir (Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu, 2009, s. 92).

Tədqiqatlardan əldə edilən nəticələrə əsaslanaraq belə qənaətə gəlmək olar ki, məktəblərdə “müəllim-şagird” birliyinin sistematik çalışması, şagirdlərə fərdi yanaşaraq onlara bilik, bacarıq və vərdişlərinin üzə çıxarılması, onların qabiliyyətlərini müəyyənləşdirib o istiqamətdə yönəldilməsi şagirdlərin düzgün şəkildə formalaşmasına və inkişaf etməsinə kömək edir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. (2013).
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. (2015).
3. Elmi-metodik “Kurikulum” jurnalı. (2016).
4. Mehrabov, A. (2005). Şəxsiyyətyönümlü təhsil standartlarının hazırlanma texnologiyası. *Azərbaycan məktəbi*, 4.
5. Məmmədova, Y. (2022). *Naxçıvan Muxtar Respublikasında ümumtəhsil məktəblərinin inkişaf tarixi.*
6. Mikhaylova, S. (2012). *«Monitoring» kak sredstvo povysheniya kachestvo obrazovaniya.* «Sankt-Peterburg».

7. Süleymanova, A. (2014). *Təhsilin əsasları*. Təhsil.
8. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. (2009). *"Kurikulum" jurnalı.*
9. *Ümumtəhsil səviyyəsində yeni dövlət proqramları* (kurikulumları). (2013).
10. Zakharova, I. G. (2003). *Informatsionnyye tekhnologii v obrazovanii*. Akademiya.

Daxil oldu: 26.06.2024
Baxışa göndərildi: 13.07.2024
Təsdiq edildi: 12.08.2024
Çap olundu: 30.09.2024

https://doi.org/10.36719/2706-6185/39/43-46

**Zeynəb Rüstəmova**
Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
zeynab109rustamova@gmail.com

# Xarici dillərin tədrisi prosesində nitq fəaliyyətinin əsası kimi oxunun rolu

**Xülasə**

Xarici dil öyrənmə prosesində "oxu" nitq fəaliyyətinin əsasını təşkil edir. Oxu, dil öyrənənlərə söz ehtiyatını genişləndirmək, qrammatik qaydaları möhkəmləndirmək və dilin üslubunu öyrənmək imkanı verir. Eyni zamanda mətnlər vasitəsilə tələbələr dil daşıyıcılarının mədəniyyətini və ünsiyyət qaydalarını daha yaxşı başa düşürlər. Oxu digər nitq bacarıqları ilə inteqrasiya edildikdə, dinləmə, danışıq və yazı kimi qabiliyyətlərin inkişafına böyük töhfə verir.

***Açar sözlər:*** *xarici dil tədrisi, oxu bacarığı, nitq fəaliyyəti, qrammatik öyrənmə, söz ehtiyatı, mətn anlama, dil öyrənmə strategiyaları, interaktiv tədris*

**Zeynab Rustamova**
Azerbaijan State Academy of Physical Education and Sports
zeynab109rustamova@gmail.com

# Speech Activity in the Process of Teaching Foreign Languages the Role of Reading as the Basis

**Abstract**

In the process of learning a foreign language, "reading" is the basis of speech activity. Reading allows language learners to expand their vocabulary, reinforce grammar rules, and learn the style of the language. At the same time, through texts, students better understand the culture and communication rules of the speakers of the language. When reading is integrated with other speaking skills, it greatly contributes to the development of abilities such as listening, speaking and writing.

***Keywords:*** *foreign language teaching, reading skills, speaking activity, grammar learning, vocabulary, text comprehension, language learning strategies, interactive teaching*

## Giriş

Xarici dillərin tədrisi prosesində nitq fəaliyyətinin əsası kimi oxunun rolu mühüm əhəmiyyət kəsb edir. Oxu, dildən istifadə etməyin ən vacib üsullarından biridir və dil öyrənənlər üçün nitqin inkişafı baxımından əsaslı vasitədir. Bunun səbəbi, oxunun dilin qrammatik quruluşunu, söz ehtiyatını və məna əlaqələrini öyrənməyə kömək etməsidir (Brown, 2007, pp. 90-120).

Oxu, xarici dil öyrənən tələbələrin həm söz ehtiyatını artırır, həm də qrammatik biliklərini möhkəmləndirir. O, dil daşıyıcılarının mədəniyyətini, düşüncə tərzini və ünsiyyət qaydalarını daha yaxşı anlamağa kömək edir. Eyni zamanda düzgün mətn seçimi vasitəsilə tələbələrin diqqətini müəyyən nitq modellərinə yönəltmək, onların nitq bacarıqlarını inkişaf etdirmək mümkündür (Harmer, 2007, pp. 50-75).

Oxunun rolu haqqında bir neçə əsas məqam var:

1. Qavrama və dərketmə: Oxu tələbələrə nitqin quruluşunu, məntiqini və cümlələrin necə formalaşdığını başa düşməyə imkan verir. Bu, onların dinləmə və danışıq bacarıqlarını da inkişaf etdirir.

2. Dil ehtiyatı və qrammatika: Oxu vasitəsilə öyrənənlər yeni sözlər və ifadələr əldə edir, həmçinin qrammatik quruluşların təkrarını görərək onları tətbiq etməyi öyrənirlər.

3. Mətn vasitəsilə öyrənmə: Müxtəlif növ mətnlər (məsələn, hekayələr, elmi məqalələr, xəbərlər) oxucunu müxtəlif üslublarla tanış edir və onların nitq fəaliyyətini genişləndirir.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

4. Motivasiya və maraq: Maraqlı və uyğun seçilmiş mətnlər tələbələrin oxumağa marağını artırır, bu da dil öyrənmə prosesini daha effektli edir.

Beləliklə, xarici dillərin tədrisi prosesində oxu nitq fəaliyyətinin inkişaf etdirilməsində əsas rol oynayır və digər dil bacarıqları (dinləmə, danışma, yazı) ilə inteqrasiya olunmuş şəkildə tətbiq olunduqda daha çox fayda verir (Grabe, 2009, pp. 30-60).

Oxunun xarici dil öyrənmə prosesindəki rolu haqqında daha dərin məlumat almaq üçün bəzi əlavə məqamlara diqqət yetirək:

1. Oxu növləri və onların funksiyaları

Oxu növləri dil öyrənmə məqsədlərinə görə fərqlənir və hər biri nitq bacarıqlarını müxtəlif şəkildə inkişaf etdirir:

− Əyləncə məqsədli oxu: Bu oxu növü tələbələrə dili zövqlə öyrənmək üçün motivasiya verir. Məsələn, hekayələr və ya romanlar oxumaq tələbələrin söz ehtiyatını genişləndirir, məntiqi düşüncəni və təxəyyülü inkişaf etdirir.

− İnformativ oxu: Bu növ oxu daha çox məlumat əldə etməyə yönəlmişdir. Məqalələr, xəbər yazıları və elmi mətnlər tələbələrin məlumat bazasını genişləndirir və formal yazı üslubunu daha yaxşı başa düşmələrinə kömək edir.

− Təhlil məqsədli oxu: Tədris prosesində tələbələr mətnləri təhlil edərək onlardan qrammatik və məntiqi qaydaları öyrənir. Bu da onlara strukturlaşdırılmış şəkildə düşünmə və danışma bacarığını inkişaf etdirmək imkanı verir.

2. Oxu və digər nitq fəaliyyətləri arasında əlaqə

Oxu, dil öyrənmədə digər nitq fəaliyyətləri ilə qarşılıqlı əlaqədədir:

− Oxu və dinləmə: Hər iki fəaliyyət anlama bacarıqlarını inkişaf etdirir. Oxu vasitəsilə öyrənilən dil strukturları dinləmə zamanı anlaşılmanı asanlaşdırır. Eyni zamanda dinləmə bacarığı da oxu prosesində daha sürətli və effektiv nəticələr verir.

− Oxu və yazı: Oxu və yazı bir-birini tamamlayan proseslərdir. Yaxşı oxucular adətən yaxşı yazıçılardır, çünki oxu zamanı dilin strukturunu və üslubunu öyrənərək yazı prosesində onlardan istifadə edirlər. Oxu zamanı əldə edilən qrammatik biliklər yazı prosesini təkmilləşdirir.

− Oxu və danışıq: Oxu vasitəsilə öyrənilən söz ehtiyatı və ifadələr tələbələrin danışıq bacarıqlarını zənginləşdirir. Oxunan mətnlərdən öyrənilən dil modelləri, ifadələr və cümlə quruluşları danışıq zamanı təbii olaraq istifadə olunur.

3. Oxu strategiyaları və metodikası

Xarici dil öyrənənlər üçün oxu strategiyaları düzgün metodik yanaşma ilə həyata keçirildikdə daha təsirli olur. Bəzi strategiyalar:

− Skimming və scanning: Bu strategiyalar tələbələrə mətni sürətlə oxuyaraq əsas fikirləri anlamağa kömək edir. Bu yanaşma mətndəki lazımlı məlumatları qısa müddətdə müəyyən etməyi və ümumi məzmunu tez bir zamanda dərk etməyi öyrədir.

− Dərin oxu: Bu strategiya daha detallı və analitik oxunu tələb edir. Tələbələr mətnin hər cümləsini diqqətlə oxuyaraq qrammatik, leksik və üslub nüanslarını başa düşməyə çalışırlar. Bu metod daha dərindən nitq bacarıqlarının inkişaf etdirilməsinə xidmət edir.

4. Oxu prosesində interaktiv yanaşmalar

Müəllimlər interaktiv metodlardan istifadə etməklə oxu prosesini daha maraqlı və effektiv edə bilərlər. Məsələn:

− Diskussiya əsaslı oxu: Tələbələr oxuduqları mətni müzakirə edərək, mətndəki məzmunu analiz edir və öz fikirlərini bölüşürlər. Bu, onlara təkcə mətni anlamağa deyil, həm də aktiv nitq fəaliyyətini inkişaf etdirməyə imkan verir.

− Sual-cavab sessiyaları: Tələbələrə mətni oxuduqdan sonra suallar vermək, onların anlayış səviyyəsini yoxlamaq və həmçinin onların öz fikirlərini nitq şəklində ifadə etmələrini təmin edir.

− Rol oynama və dram: Oxunan mətndəki xarakterlər və hadisələr əsasında dram əsasında rol oynama fəaliyyətləri tələbələrin oxuduqlarını tətbiq etməyə kömək edir.

5. Oxu bacarıqlarının inkişafının dəyərləndirilməsi

− Tələbələrin oxu bacarıqlarının inkişafını dəyərləndirmək üçün müəllimlər müxtəlif testlər və tapşırıqlar tətbiq edə bilərlər. Məsələn:

− Mətn əsaslı suallar: Tələbələrin mətni başa düşdüyünü yoxlamaq üçün suallar verilir. Bu suallar həm faktiki məlumatları, həm də məntiqi əlaqələri yoxlamağa yönəlmiş ola bilər.

− Xülasə yazma: Tələbələr mətni oxuyub, onun qısa xülasəsini yazmaqla başa düşdüklərini nümayiş etdirirlər. Bu, həm də onların yazı bacarıqlarını inkişaf etdirir.

Bu qeyd olunan məqamlar xarici dillərin tədrisində oxunun nitq fəaliyyətində nə qədər vacib və təsirli olduğunu göstərir. Oxu bacarıqlarının inkişaf etdirilməsi xarici dilin ümumi mənimsənilməsini gücləndirir və tələbələrin digər dil bacarıqlarını daha sürətli öyrənməsinə yardım edir (Nation, 2009, pp. 60-90).

Xarici dillərin tədrisi prosesində nitq fəaliyyətinin əsası kimi oxunun rolu haqqında daha geniş məlumat verə və bu məlumatı alman dilindəki nümunələrlə izah edə bilərik. Oxu, dil öyrənənlərə yeni sözlər, qrammatik qaydalar və dilin təbii istifadə formaları ilə tanış olmağa imkan verir. Alman dili tədrisində də oxu prosesi bu səbəblərdən mühüm rol oynayır. İndi bu mövzunu daha dərindən araşdıraq və alman dili nümunələri ilə izah edək (Ur, 1996, pp. 80-110).

1. Alman dilində oxu vasitəsilə söz ehtiyatının artırılması

Alman dilini öyrənən tələbələr oxu vasitəsilə geniş bir söz ehtiyatı qazanırlar. Məsələn, tələbə bir hekayə oxuyarkən çoxsaylı yeni sözlər öyrənir. Hermann Hesse və ya Franz Kafka kimi məşhur alman yazıçılarının mətnləri tələbələrə müxtəlif üslublarda nitq nümunələri təqdim edir.

Məsələn, "Die Verwandlung" (Kafka) əsərində belə bir cümlə var:

− Almanca: "Als Gregor Samsa eines Morgens aus unruhigen Träumen erwachte, fand er sich in seinem Bett zu einem ungeheuren Ungeziefer verwandelt".

− Tərcümə: "Gregor Samsa bir səhər narahat yuxulardan oyandıqda, özünü yatağında nəhəng bir həşərata çevrildiyini gördü".

Bu cümləni oxuyaraq, tələbə "erwachen" (oyanmaq), "finden" (tapmaq), "Bett" (yataq), "Ungeziefer" (həşərat) kimi sözləri və müxtəlif qrammatik strukturları öyrənir.

2. Alman dilində qrammatik qaydaların təkrar olunması

Alman dilində oxu tələbələrin qrammatik biliklərini möhkəmləndirmək üçün əla vasitədir. Cümlələrdəki qrammatik strukturlar təkrarlanaraq tələbənin yaddaşına yaxşıca yerləşir. Məsələn, alman dilində "Partizip II" (keçmiş zaman feilləri) mətnlərdə çox tez-tez istifadə olunur və oxu vasitəsilə tələbə bu formaları tez öyrənir.

Bir cümləyə diqqət edək:

− Almanca: "Er hat das Buch gelesen".

− Tərcümə: "O, kitabı oxudu".

Bu cümlədə "gelesen" sözü, keçmiş zamanda istifadə olunan Partizip II formasıdır. Tələbə oxu zamanı bu kimi formaları çox görür və təkrarlandıqca asanlıqla mənimsəyir.

3. Alman dilində oxu və mədəniyyətin öyrənilməsi

Oxu, təkcə dil öyrənmək deyil, həm də dil daşıyıcılarının mədəniyyəti ilə tanış olmaq üçün vacibdir. Məsələn, alman mədəniyyətinə aid mətnlər oxumaq tələbələrin alman dəyərlərini və düşüncə tərzini öyrənməsinə kömək edir.

Bir alman mədəniyyəti ilə əlaqəli nümunəyə baxaq:

− Almanca: "In Deutschland gibt es viele traditionelle Feste wie das Oktoberfest".

− Tərcümə: "Almaniyada Oktoberfest kimi bir çox ənənəvi bayramlar var".

Bu cümlə alman mədəniyyəti haqqında məlumat verir və tələbənin dil ilə yanaşı, həmin ölkənin mədəniyyətini də öyrənməsinə kömək edir.

4. Oxu strategiyaları ilə nitqin inkişaf etdirilməsi

Alman dilində oxu zamanı müəyyən strategiyalar tətbiq edilərək tələbələrin nitq qabiliyyəti daha effektiv şəkildə inkişaf etdirilə bilər. Misal üçün, "Skimming" və "Scanning" kimi oxu strategiyaları tələbələrə böyük mətnləri qısa müddətdə oxumağa və əsas məlumatları müəyyən etməyə kömək edir. Bununla yanaşı, dərin oxu strategiyası tələbələrin qrammatik strukturları və yeni sözləri daha dərindən başa düşməsinə imkan yaradır.

5. Alman dilində oxu üçün mətn nümunələri

Alman dilində oxu bacarıqlarını inkişaf etdirmək üçün müxtəlif növ mətnlərdən istifadə etmək olar. Həm bədii ədəbiyyat, həm də informasiya mətnləri oxunaraq müxtəlif dil səviyyələri inkişaf etdirilir (Nuttall, 2005, pp. 25-55).

- A1 səviyyəsində: Sadə hekayələr və dialoqlar tələbələrə əsas sözlər və ifadələr öyrətmək üçün istifadə olunur.
- Mətn nümunəsi: “Hallo! Ich heiße Anna und ich wohne in Berlin”.
- Tərcümə: “Salam! Mənim adım Anna və mən Berlində yaşayıram”.
- B2 və daha yüksək səviyyədə: Bu səviyyələrdə daha mürəkkəb mətnlər, məqalələr və klassik ədəbiyyat əsərlərindən istifadə olunur. Məsələn, Thomas Mann və ya Goethe kimi yazarların əsərləri oxu bacarıqlarını inkişaf etdirmək üçün əla mənbədir.
- Mətn nümunəsi (Goethe – “Faust”):
- Almanca: “Zwei Seelen wohnen, ach! In meiner Brust”.
- Tərcümə: “Ah! İki ruh yaşayır mənim sinəmdə”.

Bu cümlə tələbələrə dərin məna və dilin poetik istifadəsini göstərir və onları düşünməyə, dilin incəliklərini başa düşməyə dəvət edir (Hedge, 2000, pp. 100-130).

6. Oxu prosesində interaktiv metodların tətbiqi

Oxu prosesini interaktiv etmək tələbələrin daha fəal iştirakı üçün mühüm rol oynayır. Məsələn, oxunan mətnlər əsasında rol oyunları təşkil edərək tələbələr həmin mətndəki hadisələri canlandıra bilərlər. Alman dilində oxunan hekayələrin və ya dram əsərlərinin səhnələrini oynamaq, tələbələrin həm oxu anlama bacarıqlarını, həm də danışıq qabiliyyətlərini inkişaf etdirir (Krashen, 2004, pp. 40-70).

## Nəticə

Oxu xarici dillərin, xüsusilə də alman dilinin tədrisi prosesində nitqin əsasını təşkil edir. Alman dilində oxu prosesində tələbələr yeni sözlər öyrənir, qrammatik qaydaları təkrar edir və dili təbii şəkildə mənimsəyirlər. Həmçinin oxu vasitəsilə tələbələr alman mədəniyyətinə yaxından bələd olur, bu da onların dil öyrənmə motivasiyasını artırır.

## Ədəbiyyat

1. Brown, H. D. (2007). *Principles of Language Learning and Teaching.* Pearson Longman.
2. Grabe, W. (2009). *Reading in a Second Language: Moving from Theory to Practice.* Cambridge University Press.
3. Harmer, J. (2007). *How to Teach English.* Pearson Education Limited.
4. Hedge, T. (2000). *Teaching and Learning in the Language Classroom.* Oxford University Press
5. Krashen, S. (2004). *The Power of Reading.* Libraries Unlimited.
6. Nation, I. S. P. (2009). *Teaching ESL/EFL Reading and Writing.* Routledge.
7. Nuttall, C. (2005). *Teaching Reading Skills in a Foreign Language.* Macmillan Education.
8. Ur, P. (1996). *A Course in Language Teaching: Practice and Theory.* Cambridge University Press.

Daxil oldu: 08.07.2024
Baxışa göndərildi: 29.07.2024
Təsdiq edildi: 18.08.2024
Çap olundu: 30.09.2024

https://doi.org/10.36719/2706-6185/39/47-54

**Qərənfil Rzayeva**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin
Ağcabədi filialı
qerenfilrzayeva40@gmail.com

# Məmməd Araz yaradıcılığında Azərbaycançılıq ideologiyası

**Xülasə**

Məqalədə Xalq şairimiz Məmməd Arazın mənsub olduğu xalqa dərin məhəbbəti, vətənpərvərlik ideyaları fonunda Azərbaycançılıq ideologiyasının mühüm aspektləri işıqlandırılmışdır. Azərbaycanın poetik dünyasına xidmət, Vətən qarşısında vətəndaşlıq borcunu yerinə yetirmək şairin yaradıcılıq qayəsi, vətəndaşlıq məramı kimi dəyərləndirilmişdir.

M. Araz yaradıcılığının əsasını, başlıca ideyasını vətənə sədaqət və xalqa dərin məhəbbət təşkil edir. Şair üçün Vətən – doğma ata ocağı, el-oba qədər əzizdir. Vətən vüqarlı dağlar, bar-bərəkətli torpaqlar, gur suları torpaqların bağrını sərinlədən Kür, Arazdır. Xalqını dərin məhəbbətlə sevən şairin əsərlərini oxuduqca gözlərimiz önündə bütöv Azərbaycanın ən kamil, bitkin, dolğun poetik obrazı canlanır.

Millilik və müstəqillik, azadlıq düşüncəsinin ayıq, fəal vətəndaşlıq mövqeyinin şeirdə bənzərsiz ifadəsi Məmməd Araz sənətinin mayasını, cövhərini təşkil edir desək, yanılmarıq. O, sözün həqiqi mənasında böyük istiqlal şairidir. Xalqın milli birliyi, mənəvi bütövlüyü, azadlıq yanğısı M. Araz şeirinin əsas ilham qaynağı kimi diqqətimizi çəkir. Bəzi məqamlarda şairin poeziyası Azərbaycan tarixinin bugünkü gənclik üçün qaranlıq qalan məqamlarına işıq salan poeziyadır.

***Açar sözlər:*** *Azərbaycan, millilik, Məmməd Araz, Azərbaycançılıq ideologiyası, milli düşüncə, vətənpərvərlik, sənətkar qayəsi, motiv, ədəbi ünvan, poeziya, vətəndaş-şair*

**Garanfil Rzayeva**
Agjabadi branch of
Azerbaijan State Pedagogical University
qerenfilrzayeva40@gmail.com

# The Ideology of Azerbaijanism in the Creation of Mammad Araz

**Abstract**

The article highlights the important aspects of the ideology of Azerbaijanism against the background of the deep love of the people to whom our People's Poet Mammad Araz belongs, the ideas of patriotism. Service to the poetic world of Azerbaijan, fulfillment of civic duty to the Motherland was valued as the poet's creative goal, civic goal.

Loyalty to the motherland and deep love for the people are the basis and main idea of M. Araz's work. For the poet, the homeland is as dear as the fatherland of the dogma, the village. The homeland is the Kura, Araz, with its majestic mountains, fertile lands and abundant waters that cool the soil. As we read the works of the poet, who loves his people with deep love, the most perfect, exhausted, full poetic image of the whole of Azerbaijan comes to life before our eyes.

It is safe to say that the unique expression in the poem of nationalism and independence, the idea of freedom, sober, active citizenship is the essence of Mammad Araz's art. He is a great poet of Independence in the true sense of the word. The national unity of the people, moral integrity, the fire of freedom attract our attention as the main source of inspiration for M. Araz's poetry. At some points, poet's poetry is a poetry that sheds light on the dark moments of Azerbaijan's history for today's youth.

***Keywords:*** *Azerbaijan, nationality, Mammad Araz, ideology of Azerbaijanism, national thought, patriotism, artist's rock, motive, literary address, poetry, citizen-poet*

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

Xalq şairi Məmməd Araz müasir Azərbaycan poeziyasının ən qüdrətli simalarından biridir. Ötən əsrin 50-ci illərindən yaradıcılığa başlasa da, 70-ci illərin əvvəlindən bədii siqlətli qələm sahibi kimi tanınmağa başlayan Məmməd Araz bir-birindən sanballı əsərlər yaratmış və özündən sonra xalqı üçün əvəzsiz bədii irs qoyub getmişdir. Onun yaradıcılığı əsl vətənpərvərlik dərsliyi və vətəndaşlıq məktəbinin başlıca məramıdır.

Məmməd Araz böyük poetik ilhama malik sənətkar kimi, bütün ömrü boyu bir vəzifəni icra edib. O vəzifə Azərbaycanın poetik dünyasına xidmət, Vətən qarşısında vətəndaşlıq borcunu yerinə yetirməkdir. Parlaq istedadı və poetik duyumu sayəsində Məmməd Araz Nizami Gəncəvi, Məhəmməd Füzuli, Mirzə Ələkbər Sabir və Səməd Vurğun poeziyası ilə ona qədər gəlib çatan klassik şeir ənənəsini və üslubunu təkmilləşdirərək hamının gördüyü və bildiyi, lakin dilə gətirməyi bacarmadığı məsələləri ictimai düşüncənin məhsulu edərək, Azərbaycanda vətəndaşlıq poeziyasının əsasını qoya bilib. Gənc yaşlarından başlayaraq yarım əsrdən artıq davam edən Məmməd Araz yaradıcılığı mənsub olduğu xalqa layiqli şair – vətəndaş xidməti nümunəsidir. Onun şeirinin başlanğıcı da, sonu da Vətəndir. “Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı” məşhur deyimi Məmməd Araza məxsus olmaqla yanaşı, hazırkı dövrdə poeziya və eləcə də ictimai mühitdə vətəndaşlığın milli düsturu kimi qəbul olunur (Ağlayan qayalar, 2002).

M. Araz yaradıcılığının əsasını, başlıca ideyasını vətənə sədaqət və xalqa dərin məhəbbət təşkil edir. Şairin “Vətən mənə oğul desə”, “Yenə Arazı gördüm”, “Dağlara çağırış”, “Dünya düzəlmir”, “Bu millətə nə verdik ki”, “Əsgər oğul”, “Ağlama”, “Kəlbəcər qaçqınlarına”, “Ayağa dur, Azərbaycan!” kimi ittiham və səfərbərlik ruhlu şeirləri xalqa məhəbbətdən yoğrulmuş poetik nümunələrdir.

M. Araz üçün Vətən – dogma ata ocağı, el-oba qədər əzizdir. Vətən vüqarlı dağlar, bar-bərəkətli torpaqlar, gur suları torpaqların bağrını sərinlədən Kür – Arazdır. Məmməd Arazın əsərlərini oxuduqca gözlərimiz önündə bütöv Azərbaycanın ən kamil, bitkin, dolğun poetik obrazı canlanır. XX əsrin 90-cı illərində müstəqilliyini bəyan edən Azərbaycan sanki Məmməd Araz şeirlərilə boy atmış, istiqlaliyyətinin mayasını bu poetik duyumdan almışdır.

Məmməd Araz yaradıcılığının baş qəhrəmanı da Azərbaycandır. Onun “Məndən ötdü, qardaşıma dəydi”, “Mənim Naxçıvanım”, “Ata ocağı”, “Ana yurdum, hər daşına üz qoyum” şeirləri vətən mövzusunda ən yaxşı əsərlər kimi sənətsevərlərin dilinin əzbərinə çevrilib.

Azərbaycanımızın görkəmli Xalq şairi Məmməd Araz mənalı, keşməkeşli və şərəfli, bütövlükdə Vətənə və sənətə həsr olunmuş əsl şair-vətəndaş ömrü yaşadı. Sənətkarın tərcümeyi-halı, taleyi və həyatı daha çox onun yaradıcılığında öz əksini tapır. Bunu şair özü də etiraf edir (Əsgər andı, 2003).

Məmməd Arazda sevgi tamamilə fərqlidir. Onun sevgisinin kökündə yalnız və yalnız Vətən dayanır. Şair Vətənin adi bir daşını da, adi bir çiçəyini də, bir udum havasını da, bir içim suyunu da, ağacdan düşmüş bir yarpağını da elə canlandırır, elə təsvir edir və onlara elə bir sevgi ilə yanaşır ki, o daş da, o çiçək də, o ağacdan düşən yarpaq da ruhumuza çiçək, yarpaq, su kimi deyil, bir Vətən kimi hopur.

Qayaların harayını,
Qayalara yazdım deyə,
Bəlkə Vətən sanar məni,
Bir balaca vətən daşı,
Vətən daşı olmayandan
Olmaz ölkə vətəndaşı!

## Tədqiqat

Millilik və müstəqillik, azadlıq düşüncəsinin, ayıq, fəal vətəndaşlıq mövqeyinin şeirdə bənzərsiz ifadəsi Məmməd Araz sənətinin mayasını, cövhərini təşkil edir. O, sözün həqiqi mənasında böyük İstiqlal şairidir. Yaxın və uzaq tariximizlə yanaşı, bu günümüzün və hətta sabahımızın da böyük, mühüm, ciddi həqiqətləri "Məmməd Araz karandaşından" göyərir (Həbibbəyli, 2013, s. 3).

“Məni şeirimdə gəz bir insan kimi, Qəlbimdə nə varsa ona demişəm. Anadan-bacıdan gizlətdiyimi, Kağızdan, qələmdən gizlətməmişəm”, – deyən şair səmimi və zəngin bir yaradıcılığa malikdir. Görkəmli elm xadimi akademik İsa Həbibəyli yazır: “Xalq şairi Məmməd Arazın sənəti

onun özünün və mənsub olduğu xalqının qeyri-adi tərcümeyi-halıdır". Buna görə də: "Şair dostum, çaldığın saz, Eldən ayrı səs ucaltmaz", – deyən Xalq şairi yaradıcılığın yalnız el həqiqətinə xidmət etməsini doğru bilmişdir.

Görkəmli söz ustadı Məmməd Arazın sənət dünyasında vətən müqəddəsliyi, xalq məhəbbəti, el həqiqətləri bədii yaradıcılığın nüvəsində dayanır. Məmməd Araz şeirinin hər sətri, hər misrası, təqdim və təsvir olunan hər obrazı, detalı vətən qüdsiyyətini ifadə edir. Ədibin əsərlərinə gətirdiyi hər daş parçası, qaya, hər kol, ağac, dərə, dağ, quş, heyvan, ot – bir sözlə: hər xilqət vətən əzəməti, el sevgisi, yurd müqəddəsliyinə xidmət edir. Bu baxımdan professor Yaşar Qarayev doğru deyib: "Məmməd Arazın şeiri düşüncədə, əxlaqda və qeyrətdə yaddaşın şeirdə ifadəsidir".

Məmməd Arazın yaradıcılığında vətən sevgisi, vətənpərvərlik, ümumiyyətlə, Azərbaycançılıq motivləri öndə gəlir. Şairin ilk sözü Vətəndən başlayıb, Vətəndə də bitir. "Ürəyimsiz kəlmə yazan deyiləm", – deyən sənətkar bütün varlığı ilə özünü Vətənə həsr etdiyi şeirlərində əsl, nümunəvi bir vətəndaş kimi ifadə edir, xalqına bağlı olan ədib bütün yaradıcılığı boyu əsərləri ilə sanki vətəndaşlıq himnləri yaradır. Akademik Kamal Abdullanın dediyi kimi: "Məmməd Arazın sevgisinin kökündə yalnız və yalnız vətən dayanır". "Ana yurdum, hər daşına üz qoyum, Hər dərəndə çaldığım saz yaşayır", – deyən ədib üçün ana yurdu bir səcdəgah, insanı kainatın sirri-sehri, incisi olaraq əbədiyyətə qovuşduran məbədgah, məzargahdır. Xalq şairi Məmməd Araz həm də o sənətkardır ki, "Vətən daşı olmayandan olmaz ölkə vətəndaşı", – deyə vətəndaşlıq konsepsiyasını irəli sürüb. Buna görə də:

Vətən mənə oğul desə, nə dərdim,
Mamır olub qayasında bitərdim.
Bu torpaqsız harda, nə vaxt, nə dərdim –
Xəzanımdır, xəzanımdır, xəzanım,

– deyən şairin misraları vətəndaşlıq şəhadətinin özünəməxsus poetik dillə ifadəsidir (Məmməd Araz, 2003). Qətiyyətlə demək olar ki, Azərbaycan ədəbiyyatı tarixində Azərbaycanın milli istiqlaliyyəti, birliyi və ərazi bütövlüyü uğrunda öz qələmilə mübarizə aparan əbədiyaşar sənətkarlardan biri də "Xətayinin qılıncını suvardım, Məmməd Araz karandaşı göyərdi", – deyərək öz poeziyası ilə qələmini milli ideallar, dövlətçilik və ərazi bütövlüyü uğrunda mücadilədə silaha çevirən görkəmli söz ustadı Məmməd Arazdır. "Mənim yurdum hardan başlar? – ürəyimin kandarından..." – deyən şairin yaradıcılığında Azərbaycan bütün mənəvi böyüklüyü, qüdrətilə əks olunur. Məmməd Araz yaradıcılığı və bədii düşüncəsində Azərbaycan bir Dünyadır, Kainatdır. Onun yaradıcılığında Azərbaycan öz əxlaqı, mənəviyyatı, dərin ruhi-mənəvi aləmi, zəngin dəyərləri və sairləri ilə bir baxış, dünyagörüşü, özünəməxsus bir dünyadır.

Şairin yaradıcılığında əsaslı, aparıcı yer tutan, mövzu-məndəricəsini təşkil edən Araz mövzusu eyni zamanda ədibin möhürünə, onun ədəbi ünvanına, təxəllüsünə çevrilir. Şairin "Arazın nəğməsi", "Bu gecə yuxumda Arazı gördüm", "Araz üstə çinar gördüm", "Yenə Arazı gördüm", "Arazın işıqları", "Mən Araz şairiyəm" və bu kimi şeirləri, "Araz axır" poeması məhz Arazla ayrı bölünmüş vətənin bütövlük həsrətinə həsr olunub. Bu əsərlərdə paralanmış Azərbaycanın dərin nisgili yer alıb. Buna görə də: "Qələm gəldi əlimə – Araz gəlir dilimə", – deyə Araz mövzusu şairin sənət kredosu və yaradıcılığının baş mövzusuna çevrilməklə bütün sənət idealını özündə cəmləşdirir. "Mən Arazın səsiyəm" – deyən şair həm də ona görə "Böyük Azərbaycan"çı şairdir ki, Araza həsr olunan əsərlərində Azərbaycançılıq məfkurəsi ilə yaşadığını əks etdirməyə nail olmuşdur. Çünki şair Araza təkcə bir çay kimi deyil, həm də tarix kimi, bütöv Azərbaycanın açarı, bütöv vətən idealının rəmzi kimi baxır. Buna görə də şairin yaradıcılığında Araz çox zaman obrazlaşır: Araz özünün dərdli, həsrətli, bəlalara, ayrılıqlara salınmış taleyi, əzəmətli xarakterilə yer alır və dil açıb danışır. Bu baxımdan Araz onun yaradıcılığında həm Azərbaycandır, bir ölkənin, vətənin tarixi, taleyi, bir xalqın, millətin ayrılıq dərdi, həsrətidir, həm də bir vətəndaş-şairin nisgili, qəlb yarası, sənət mövzusudur (Sənətdə son mənzil olmur, 2001).

Məmməd Araz həm də milli istiqlalımızın önəmli simalarından biridir. Şairin "Ayağa dur, Azərbaycan" və bu kimi şeirləri 1988-90-cı illər Azərbaycanın milli müstəqillik uğrunda apardığı mücadilə dönəmində böyük mənəvi təkan rolunu oynayıb. Ədibin "Ata millət, ana millət ağlama",

"Bizi vətən çağırır", "Ulu şahım, qılıncına söykənim mən" və başqa şeirləri milli istiqlal şeirimizin ən tutarlı nümunələrindəndir.

Xalq şairi Məmməd Araz yaradıcılığında Araz mövzusu ilə vətənin bütövlüyü ideyası istiqamətində bir çox milli məsələləri işıqlandırdığı kimi, XX əsrin axırlarında xalqımızın bəxtinə yazılan Qarabağ problemini də vətəndaşlıq yanğısı ilə əks etdirib. Xalq şairi öz yaradıcılığına Azərbaycan xalqının yeni əsr, yeni minillikdə başına açılan problemlərini də gətirib, Qarabağ dərdini, qaçqınlıq, köçkünlük faciəsini, xalqın taleyinə yazılan dərdləri əhatəliliklə işıqlandırıb. Əsərlərində qüvvətli mübarizə idealı olan Məmməd Araz milli oyanışa, Qarabağ savaşına aid yazdığı əsərlərində mübarizə əzmini qoruyaraq "Ayağa dur, Azərbaycan" əsərində "Atın məni tank altına, Qundaqdakı bir körpəni xilas edim. Neçə "səni", neçə "məni" xilas edim", – deyə babalardan gəlmə döyüş və mübarizə qeyrətini, vətən sevgisi və fədakarlığını nümayiş etdirib (Məmməd Araz, 2003).

Xalq şairinin "Ya rəbbim, bu dünya sən quran deyil", "Ata millət, ana millət, ağlama", "Bizi vətən çağırır", "Əsgər oğul", "Dilənçi qaçqın", "Kəlbəcər qaçqınlarına" və başqa əsərləri məhz bu dövrün problemlərini əks etdirən qiymətli ədəbi nümunələrdir. Xalq şairi Məmməd Araz mövzusu nə olursa olsun, Azərbaycan həyatından, taleyindən, dərdindən, sevincindən yazaraq yenə də bir ideala – Azərbaycanın bütövlüyü və azadlığı idealına xidmət edib. Elə "Ya rəbbim, bu dünya sən quran deyil" əsərində də əsas motivlər "Ya rəbbim, bizlərə qaytar bizləri", "Ya rəbbim, əl açdıq, tut əlimizdən, Çıxmasın bu doğma yurd əlimizdən" kimi motivlər üzərində qurulub. Xalq şairi Məmməd Araz milli istiqlal tariximizdə oynadığı rola görə idi ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən "İstiqlal" ordeni ilə təltif edilib.

Vətəni daş kimi, yosunca sevmənin nəğməsini yaradan Məmməd Araz bu nəğmənin sözlərini də məhz bal-şəkər ana dilində yazıb. Onun şeirlərində Azərbaycan dili, sözün əsl mənasında, hünərdir. Azərbaycançılığı bütün ruhu ilə ifadə edən Xalq şairi Məmməd Araz ana dilinin bütün poetik qüdrəti ilə yaratdığı əsərləri ilə Azərbaycançılığın dərslik kitabını yazıb. Bu mənada, Məmməd Arazın yaradıcılığında sözlər sanki böyük bir yükü daşıyan incə, zərif bir kərpic kimi dəqiq yerləşib. Şairin yaradıcılığında sözlərin dəqiq istifadəsinə o qədər əməl var ki, sanki Azərbaycan dilinin ən səlis nümunəsi yaradılıb (Vətən deyin, 2003).

Mənalarına görə sözlərin dəqiq yerləşimi, fikrin ifadəsi üçün tutumlu ifadə və dolğun, dəqiq sözlərin tapılması böyük sənətkarlıq nailiyyəti olaraq Məmməd Araz sənətkarlığının səciyyəsidir. Bəzən ən az istifadə edilən sözlərin belə tapılıb istifadə edilməsi Məmməd Araz yaradıcılığının leksik zənginliyi kimi diqqəti cəlb edir. Şairin: "Dolular qırımlı, daşlar döyənək, Sən kimə gərəksən, mən kimə gərək" və yaxud: "Haray durnam, qatarımı itirdim, Havar çəkdim, havarımı itirdim. Dalğasında avarımı itirdim", habelə: "Keçməzliyə keçid olan Çəhlimlərin açarını", "Girəvə-marıqda yatar birisi" və sair kimi misralarında olanlar tək elə sözlər işlənir ki, bu sözlər ana dilimizin söz, məna zənginliyi və forma gözəlliyini əks etdirən mükəmməl göstəricilərdir. Ana dilinin belə kamil işlənməsi və təcəssümünə görə onun yaradıcılıq dilinə xüsusi qiymət verən tədqiqatçılar, o cümlədən yazıçı Sabir Rüstəmxanlı da haqlı olaraq yazırdı: "Məmməd Araz üçün ana dili taleyin əlilə ölçülüb-biçilib. Ana dili onun şeirində diridir, qanadlıdır, qalxıb-qabarır, ümman kimi ləngər vurur. ...Məmməd Araz sözü seçmə dən kimi ürəkdə yüz faizli çıxış, cücərti verən şeirdir". Yazıçı Anarın bu fikirləri də ifadə və tutum baxımından daha dəqiqdir ki: "Məmməd Araz şeirində sanki fikirlər sözlərin boyuna biçilib. Nə vəznin boş xanələrini doldurmaq üçün artırılan lüzumsuz kəlmələr var burda, nə də darısqal dil köynəyində çırpınan düşüncələr".

Xalqın milli birliyi, mənəvi bütövlüyü, azadlıq yanğısı M. Araz şeirinin əsas ilham qaynağı kimi diqqətimizi çəkir. Hələ sovet ideologiyasının sərt dönəmində Azərbaycan ədəbiyyatında hamıdan əvvəl "Məndən, səndən ötən zərbə, Vətən, Vətən sənə dəydi" – deyən Məmməd Araz qorxmadan, təhlükələrə məhəl qoymadan açıq-aşkar hiddətini ifadə edirdi. "Məndən ötdü, qardaşıma dəydi…" şeiri Azərbaycan məmləkətinin başına gətirilən müsibətlərin tarixi salnaməsini verən bir sənəd qədər əhəmiyyətlidir.

Ey daşlaşan, torpaqlaşan,
ulu babam.
Bu günümdən dünənimə uzaqlaşan,

ulu babam.
Küləkləşən, dumanlaşan ruhunla sən,
Ayağa dur, səninləyəm!
Səs getməyən, əl yetməyən
Qədim tarix dərəsindən səs ver mənim səsimə sən.
Sənə gələn, səndən ötən nəydi belə?
Səndən ötüb qardaşına dəydi belə? (Məmməd Araz, 2004, s. 84)

Şeirin ilk misralarından anlaşılır ki, şair azadlığı əlindən alınmış, tarixin yaddaşında qeyrət qalası kimi daşlaşan, küləkləşən ruhu səsləyir. Ayağa durması üçün sanki onu silkələyir və əbədiyyət yuxusundan oyandırmağa çalışır. Bədii yaddaşda qəhrəmanlıq simvolu kimi tarixə köçən xalqın əzəli qəhrəmanlarına səs salır. İtirilmiş azadlığın, çəkilən müsibətlərin səbəbkarlarını soraqlayır.

Şair haqlı olaraq vətənin düşdüyü durumu mənəmlik iddiasında olan xanların, bəylərin xudpəsəndliyində, xalqa ögey münasibətində görür. Minillik dədə-baba torpaqlarımızı birər-birər satan "soysuz ata"ları lənətləyir. Vətənə tuşlanmış zərbələrin qarşısına sipər olmaq yerinə onu "qardaşına, sirdaşına ötürən kəs"lərin xain xislətinə, qeyrətsizliyinə qəzəblənir. Qəflətən şairə elə gəlir ki, "məndən ötdü" deyə sevinc hissi yaşayan xanlar, sanki Şah İsmayıl Xətayinin tarixi süqutuna qəh-qəh çəkirlər.

Məndən ötdü!
Qulağımdan getmir bu səs!
Zərbələri qardaşına, sirdaşına ötürən kəs,
Elə bil ki, bax bu gecə,
Qulağımın dibindəcə
Xətayinin süqutuna qəh-qəh çəkdi,
Sonra, sonra
Səhərəcən başına yüz qədəh çəkdi!
O qəhqəhin dalğasından,
O məstliyin baş fırladan havasından qopan daşdı,
Azərbaycan torpağında
Araz boyda şırım açdı… (Məmməd Araz, 2004, s. 85)

"Bir çox məqamlarda M. Arazın poeziyası Azərbaycan tarixinin bugünkü gənclik üçün qaranlıq qalan məqamlarına işıq salan poeziyadır. Xüsusilə şairin hələ sovet qadağaları dövründə qələmə aldığı və bu gün də günün döyünən nəbzinə çevrilən "Məndən ötdü, qardaşıma dəydi" şerində M. Araz böyük cəsarətlə Azərbaycanın başına gətirilən bəlalardan danışır, zaman-zaman onun üzərində gedən "cahan çarpışmalarını" diqqətə çatdırır, xanlıqlar dövrü Azərbaycanın bir dövlət kimi keçirdiyi sarsıntılardan söz açır" (Qasımov, 2017, s. 23).

"Mən-mən" dedi bir ölkədə nə qədər xan,
Onlar "mən-mən" deyən yerdə
Sən olmadın, Azərbaycan!
Səni səndən alıb belə
Yüz illərlə uyutdular,
Səni səndə ələdilər,
Səni səndə üyütdülər.
*Nəticədə də:*
Dibək oldun öz duzunla, öz daşınla,
Ögey oldun doğma, əkiz qardaşınla.
*Ona görə də:*
Səndən ötən mənə dəydi,
Məndən ötən sənə dəydi,
Səndən, məndən ötən zərbə,
Vətən, Vətən, sənə dəydi... (Məmməd Araz, 2004, s. 86)

Məmməd İbrahimovu Məmməd Araz edən beləcə xalqın Araz dərdi, Araz yanğısı oldu…

"Şairin yaradıcılığında əsaslı, aparıcı yer tutan, mövzu-mündəricəsini təşkil edən Araz mövzusu eyni zamanda ədibin möhürünə, onun ədəbi ünvanına, təxəllüsünə çevrilir. Şairin "Arazın nəğməsi", "Bu gecə yuxumda Arazı gördüm", "Araz üstə çinar gördüm", "Yenə Arazı gördüm", "Arazın işıqları", "Mən Araz şairiyəm" və başqa bu kimi şeirləri, "Araz axır" poeması məhz Arazla ayrı bölünmüş vətənin bütövlük həsrətinə həsr olunub. Bu əsərlərdə paralanmış Azərbaycanın dərin nisgili yer alıb. Buna görə də: "Qələm gəldi əlimə – Araz gəlir dilimə", – deyə Araz mövzusu şairin sənət kredosu və yaradıcılığının baş mövzusuna çevrilməklə bütün sənət idealını özündə cəmləşdirir. "Mən Arazın səsiyəm" – deyən şair həm də ona görə "Böyük Azərbaycan"çı şairdir ki, Araza həsr olunan əsərlərində Azərbaycançılıq məfkurəsi ilə yaşadığını əks etdirməyə nail olmuşdur. Çünki şair Araza təkcə bir çay kimi deyil, həm də tarix kimi, bütöv Azərbaycanın açarı, bütöv vətən idealının rəmzi kimi baxır. Buna görə də şairin yaradıcılığında Araz çox zaman obrazlaşır: Araz özünün dərdli, həsrətli, bəlalara, ayrılıqlara salınmış taleyi, əzəmətli xarakterilə yer alır və dil açıb danışır. Bu baxımdan Araz onun yaradıcılığında həm Azərbaycandır, bir ölkənin, vətənin tarixi, taleyi, bir xalqın, millətin ayrılıq dərdi, həsrətidir, həm də bir vətəndaş-şairin nisgili, qəlb yarası, sənət mövzusudur" (Qasımov, 2017, s. 23).

Məmməd Arazın "Ayağa dur, Azərbaycan" (1992) şeiri də təxminən eyni ruhda yazılmış əsərdir. Bu şeirin yazılma tarixinə diqqət etsək görərik ki, şair ifadə etdiyi fikirlərdə necə də haqlıdır. Səslənən hər bir kəlmə zamanında deyilmiş qiymətli sözlərdir.

"Məmməd Araz həm də milli istiqlalımızın önəmli simalarından biridir. Şairin "Ayağa dur, Azərbaycan" və bu kimi şeirləri 1988-90-cı illər Azərbaycanın milli müstəqillik uğrunda apardığı mücadilə dönəmində böyük mənəvi təkan rolunu oynayıb. Ədibin "Ata millət, ana millət ağlama", "Bizi vətən çağırır", "Ulu şahım, qılıncına söykənim" və başqa şeirləri milli istiqlal şeirimizin ən tutarlı nümunələrindəndir. Xalq şairi Məmməd Araz yaradıcılığında Araz mövzusu ilə vətənin bütövlüyü ideyası istiqamətində bir çox milli məsələləri işıqlandırdığı kimi, XX əsrin axırlarında xalqımızın bəxtinə yazılan Qarabağ problemini də vətəndaşlıq yanğısı ilə əks etdirib" (Həbibbəyli, 2013, s. 1).

Məmməd Araz Azərbaycan xalqının yeni əsr, yeni minillikdə başına gətirilən faciələri də dilə gətirib, Qarabağ dərdini, qaçqınlıq, köçkünlük faciəsini, xalqın taleyinə yazılan dərdləri ətraflı işıqlandırıb. Əsərlərində qüvvətli mübarizə idealı olan Məmməd Araz milli oyanışa, Qarabağ savaşına aid yazdığı əsərlərində mübarizə əzmini qoruyaraq "Ayağa dur, Azərbaycan" şeirində "Atın məni tank altına, Qundaqdakı bir körpəni xilas edim. Neçə "səni", neçə "məni" xilas edim", – deyə babalardan gəlmə döyüş və mübarizə qeyrətini, vətən sevgisi və fədakarlığını nümayiş etdirmişdir. Xalq şairi Məmməd Arazın mövzusu hər nə olursa-olsun, Azərbaycanımızın həyatından, taleyindən, dərdindən, sevincindən yazaraq yenə də bir ideala – Azərbaycanın bütövlüyü və azadlığı idealına xidməti hər şeydən üstün tutmuşdur.

Məmməd Araz burada da ("Ayağa dur, Azərbaycan") xalqın vətənpərvər oğlu olaraq doğma torpaqlarını yad caynaqlardan qorumaq, xilas etmək və yaşatmaq naminə haray çəkir, "Bu, Şəhriyar harayıdı, bu, Bəxtiyar harayıdı" – deyə yatmış Qoca Vulkanı püskürtmək istəyir.

Nə yatmısan, qoca vulkan, səninləyəm!
Ayağa dur, Azərbaycan, səninləyəm! (Məmməd Araz, 2004, s. 132)

Vətənsiz yaşamağın mümkünsüzlüyünü dərk edən şair, xalqın ağır günündə igid oğulları yada salır.

… Hanı sənin tufan yıxan,
gürşad boğan, yurda oğul
oğulların?!
Qara Çoban, Dəli Domrul oğulların?
Çək sinənə-qayaları yamaq elə,
Haqq yolunu ayağına dolaq elə,
Bayrağını Xəzər boyda bayraq elə,
Enməzliyə qalxmış olan bayrağını!
Azərbaycan, Azərbaycan,
Azərbaycan bayrağını! (Məmməd Araz, 2004, s. 132)

Bu çağırışda xalqın azadlıq eşqinə güvənən, onun gücünə arxalanan sənətkar ürəyinin hərarətini görməmək mümkün deyildir.

"Məmməd Arazın yaradıcılığında vətən sevgisi, vətənpərvərlik, ümumiyyətlə, Azərbaycançılıq motivləri öndə gəlir. Şairin ilk sözü Vətəndən başlayıb, Vətəndə də bitir. "Ürəyimsiz kəlmə yazan deyiləm", – deyən sənətkar bütün varlığı ilə özünü Vətənə həsr etdiyi şeirlərində əsl, nümunəvi bir vətəndaş kimi ifadə edir, xalqına bağlı olan ədib bütün yaradıcılığı boyu əsərləri ilə sanki vətəndaşlıq himnləri yaradır" (Qasımov, 2017, s. 23).

Poeziyamızda Azərbaycan mövzusunda çox yazılıb. Azərbaycana çoxlu şeirlər ithaf olunub. Amma Məmməd Arazın "Azərbaycan – dünyam mənim" şeirinin bənzəri yaradılmayıb. Bu şeirin bütün intonasiyası şair qəlbinin ağrılarından, fəal vətəndaş narahatlığından keçir.

"Azərbaycan – dünyam mənim" (1971) şeirində igid oğullar məskəni, "mayası nur, qayəsi nur" olan, sanki çiçəklərin içində qaya əzəmətilə boy göstərən gözəlliklər diyarı Azərbaycan yüksək şövqlə təsvir və tərənnüm olunmuşdur.

Azərbaycan – qayalarda
bitən bir çiçək,
Azərbaycan – çiçəklərin içində qaya.
Mənim könlüm bu torpağı
vəsf eləyərək
Azərbaycan dünyasından
baxar dünyaya! (Məmməd Araz, 2004, s. 100)

Göründüyü kimi, Azərbaycanı könlünə istinadgah seçən şair vətini ilə öyünür, sanki onun gözəlliyindən gözləri nurlanır.

Şeirdə təkcə gözəlliyi deyil, min illərlə zülmətdə, cəhalətdə saxlanılmış, ancaq macal tapan kimi öz ideallarına doğru yürüyüş edən qəhrəmanlar diyarı Azərbaycanımızın şərəfli tarixi keçmişi də yada salınır.

Min illərlə zülmətlərə yollar açıqdı,
Dalğalandı Sabirlərin
ümman dünyası,
Azərbaycan qatarı da yollara çıxdı
Dağılanda Qoca Şərqin duman dünyası (Məmməd Araz, 2004, s. 100).

"Düşüncə lirikası, mənəviyyat ədəbiyyatı, lirik-psixoloji şeir və nəsr, o cümlədən xalq şairi Məmməd Arazın yaradıcılığı belə çətin labirintlərdən keçib gəlmiş, nəhayət, ədəbi mühitdə özünü təsdiq etmişdir. Bunun nəticəsində XX əsrin 60-90-cı illərində Azərbaycan şeirində düşüncə lirikasının, lirik-psixoloji və romantik şeirin bir sıra tanınmış nümayəndələri yetişib formalaşmışdır. Əli Kərim, Fikrət Qoca, Nəriman Həsənzadə, Cabir Novruz, Hüseyn Razi, Sabir Rüstəmxanlı, İsa İsmayılzadə, Ələkbər Salahzadə, Zəlimxan Yaqub, Məmməd İsmayıl, Çingiz Əlioğlu, Ramiz Rövşən, Elman Həbib, Nüsrət Kəsəmənli, Vaqif Bəhmənli, Rüstəm Behrudi, Vaqif Məmmədov, Vaqif Bayatlı, Xanəli Kərimli mövzu və mətləbi ümumi tərənnüm yolu ilə deyil, orijinal poetik düşüncələrlə mənalandırmaq sahəsində maraqlı üsullar, düşünülmüş bədii vasitələr tapmışlar. Bununla belə, keçən yüzilliyin 70-80-ci illərində milli şeirdə düşüncə lirikası komandasının baş kapitanı Məmməd Araz olmuşdur. Şair insan mənəviyyatını kəşf etməyi böyük sənətin əsas qayəsi hesab etmişdir" (Həbibbəyli, 2013, s. 3)

## Nəticə

"Azərbaycan torpağını Arazsız təsəvvür etmək mümkün olmadığı kimi, Azərbaycan milli poeziyasını da Məmməd Arazsız təsəvvür etmək çox çətindir. Azərbaycan əlli milyonluq bir xalqın – azərbaycanlıların şəriksiz Vətəni olduğu kimi, Məmməd Araz yaradıcılığı da əlli milyonluq xalqımızın şəriksiz poeziyasıdır, ədəbiyyat, bədii düşüncə və təfəkkürünün vətənidir. Bu da ondan irəli gəlir ki, bu poeziyada hər bir oxucu öz hisslərini, düşüncə və təfəkkürünü görür, dərk edir, özünü bir çox məqamlarda Məmməd Araz yaradıcılığı ilə ifadə etmiş olur" (Kərimli, 2013, s. 1).

"Böyük vətəndaşlıq qayəsi, Vətən torpağının əzabına, ağrısına qatlaşmaq, şimallı, cənublu Azərbaycan torpağının vətəndaşlıq yükünü çəkmək – Məmməd Araz poeziyasının əsas gücü və qüdrəti bundadır" (Qarayev, 2004, s. 5).

Vaxtilə ədəbiyyatımızın, milli-mənəvi dəyərlərimizin böyük və əvəzsiz hamisi kimi tanınan ümummilli liderimiz Heydər Əliyev Məmməd Araz poeziyasına, onun fəlsəfəsinə və bəşəri dəyərinə çox yüksək qiymət verərək Məmməd Araza xitabən demişdir: "Doğrudur, bəzən bu yaradıcılığınıza görə siz sıxılmısınız da, sizi incidiblər də, sizə kəm baxıblar da, sizi açıq və ya gizli tənqid də eləyiblər. Ancaq mənə belə gəlir ki, Məmməd Arazın, Bəxtiyar Vahabzadənin, Xəlil Rzanın qəhrəmanlığı – mən bu sözü tam cəsarətlə deyirəm – elə ondan ibarətdir ki, onları heç bir şey qorxutmayıbdır. Onların qarşısını heç bir şey kəsməyibdir. Onlar öz işlərini görüblər. Xırda-xırda, çox incə, çox zərif görüblər və məhz bu incəliyə, zərifliyə, nazikliyə görə də sizin bu fikirləriniz bizim vətənpərvər insanlarımızın, xalqımızın ürəyinə yol tapıbdır".

Məmməd Arazın Azərbaycan xalqına, Azərbaycan torpağına məhəbbəti haqqında fikirlərimizi onun öz sözləri ilə yekunlaşdırmaq daha doğru olardı. Çünki bu məhəbbəti, bu ülviyyəti şair sözü daha dolğun ifadə edir.

Azərbaycan – mayası nur, qayəsi nur ki…
Hər daşından alov dilli ox ola bilər.
"Azərbaycan!" – deyiləndə ayağa dur ki,
Ana yurdun ürəyinə toxuna bilər! (Məmməd Araz, 2004, s. 101)

"Beləliklə, Məmməd Araz sənəti və sənətkarlığı ədəbi bir vətəndaşlıq tərbiyəsi məktəbidir. Ədibin xalqa bağlılığına, ana dilinə, xalq ədəbiyyatına, xalq müdrikliyinə, hikmətinə bələdçiliyinə görədir ki, onun əsərləri axan bir su, qaynayan bir bulaq təsiri bağışlayır. Bu mənada Xalq şairi Məmməd Araz Azərbaycan ədəbiyyatında liman salan bir gəmidir" (Qasımov, 2017, s. 23).

Böyük ədəbiyyat, həqiqi şeir-sənət artıq Məmməd Arazın tale ortağıdır. Bu böyük və müdrik sənətin şərəfli və məsuliyyətli yükünü ədəbiyyatımızın böyük idealları ilə səsləşən Məmməd Araz ideallarını ayrılıqda bir şair deyil və ya ümumiyyətlə, qələm əhli yox, sözün geniş mənasında bütöv Vətən əhli çəkib daşıyır. Bu isə öz növbəsində Xalq şairi Məmməd Arazın mənəvi zənginliyə, daxili saflığa, millilik və vətəndaşlığa, habelə müstəqilliyimizin daha da möhkəmləndirilməsinə aparan böyük, magistral yolun əsas, güclü poetik lokomotivi olması deməkdir. Milli yüklü həmin şeir-sənət, ədəbiyyat qatarı təkcə öz müəllifini deyil, bütövlükdə xalqımızı XXI əsrə aparır.

## Ədəbiyyat

1. *Ağlayan qayalar*. (2002). "Araz" nəşriyyatı.
2. *Əsgər andı*. (2003). "Araz" nəşriyyatı
3. Həbibbəyli, İ. (2013, 12 oktyabr). O daş altda Məmməd Araz yaşayır. *"Azərbaycan" qəzeti*.
4. Kərimli, X. (2013, 12 iyun). Məmməd Araz yaradıcılığında Azərbaycançılıq. *"Şərq qapısı" qəzeti*.
5. Qasımov, R. (2017, 17 oktyabr). Azərbaycan ünvanlı Məmməd Araz poeziyası. *"525"-ci qəzet*.
6. Qarayev, Y., Məmməd Araz. (2004). *Seçilmiş əsərlərinin I cildinə yazılmış ön söz.*
7. Məmməd Araz. (2004). *Seçilmiş əsərləri*. I cild.
8. Məmməd Araz. (2004). *Seçilmiş əsərləri*. II cild.
9. Məmməd Araz. (2003). *Seçilmiş əsərləri* (dörd cilddə). I cild. "Ozan" nəşriyyatı.
10. Məmməd Araz. (2003). *Seçilmiş əsərləri* (dörd cilddə). II cild. "Ozan" nəşriyyatı.
11. *Sənətdə son mənzil olmur*. (2001). "Adiloğlu" nəşriyyatı.
12. *Vətən deyin*. (2003). "Adiloğlu" nəşriyyatı.

Daxil oldu: 26.06.2024
Baxışa göndərildi: 29.07.2024
Təsdiq edildi: 07.08.2024
Çap olundu: 30.09.2024

*Qədim Diyar* Beynəlxalq Elmi Jurnal. 2024 / Cild: 6 Sayı: 9 / 55-67 ISSN: 2706-6185
*Ancient Land* International Scientific Journal. 2024 / Volume: 6 Issue: 9 / 55-67 e-ISSN: 2709-4197

https://doi.org/10.36719/2706-6185/39/55-67

**Bəhruz Orucov**
Mərkəzi Avropa Universiteti (CEU)
magistrant
orujov.bahruz@gmail.com

# Arbitraj və mülki iddia icraatı: beynəlxalq qaydalar və Azərbaycan qanunvericiliyi

**Xülasə**

Qeyd edilməlidir ki, arbitraj ölkəmizdə geniş tətbiq edilməsə də, dünyada mübahisələrin arbitraj məhkəmələrində baxılması daha geniş yayılmış təcrübədir. Bununla əlaqədar, dövlətlər arbitrajla bağlı müvafiq qanunvericilik aktları qəbul etmiş, öz qanunvericiliklərini bu sahədə olan beynəlxalq qanunlara uyğunlaşdırmışlar. Dünya iqtisadiyyatında lider olan iri korporasiyalar və kommersiya subyektləri mübahisələrin həll edilməsində arbitraj məhkəmələrinə müraciət etməyə üstünlük verirlər. Bunun səbəbi arbitraj məhkəmələrində mübahisələrə vaxta qənaət edilməklə, obyektiv və ağlabatan müddət ərzində baxılması ilə əlaqədardır. Eyni zamanda arbitraj məhkəmələri mübahisələrə baxılması tərəflərin qarşılıqlı razılığı ilə müəyyən edilir və qeyri-dövlət təsisatı olaraq arbitrajda qəbul olunan qərarlara etimad daha yüksəkdir. Eyni zamanda qərarların icrası daha realdır və ağlabatan müddətdə icra edilməsi ehtimalı böyükdür.

Son dövrlərdə Azərbaycan qanunvericiliyi daha təkmilləşdirilir, beynəlxalq tələblərə uyğunlaşdırılır və beynəlxalq təcrübə nəzərə alınır. Son dövrlər qəbul edilmiş belə mütərəqqi qanunlardan biri də 26 dekabr 2023-cü il tarixində təsdiq edilmiş "Arbitraj haqqında" Azərbaycan Respublikasının Qanunudur (bundan sonra Arbitraj haqqında qanun). Bu qanun Azərbaycan Respublikasında arbitraj məhkəmələri tərəfindən mübahisələrə baxılmasına, məhkəmələrin yardım və nəzarət funksiyalarını həyata keçirməsinə, xarici arbitraj qərarlarının tanınmasına dair münasibətləri tənzimləyir («Arbitraj haqqında» Azərbaycan Respublikasının Qanunu, 2023).

Bu sahənin ölkəmiz üçün yeni olmasına baxmayaraq, arbitrajın ölkəmizdə inkişafı ilə bağlı əməli addımlar atılmaqdadır. Hazırda ölkəmizdə mübahisələrə mülki məhkəmə icraatı qaydasında, daha dəqiq desək, iddia icraatı qaydasında məhkəmələrdə baxılmasına üstünlük verilir. Bu məqalənin məqsədi arbitraj məhkəmələrində mübahisələrə baxılması ilə birinci instansiya məhkəmələrində mübahisələrə baxılmanın oxşar və fərqli xüsusiyyətlərini aşkara çıxarmaq, Arbitraj haqqında qanunun beynəlxalq arbitraj qaydaları ilə əlaqəsini müəyyənləşdirmək, beynəlxalq arbitraj qaydalarının yaranmasının və inkişafının təhlilini aparmaq, eyni zamanda arbitraj məhkəmələrində işə baxılmanın üstün cəhətlərini üzə çıxartmaqdır. Məqalədə BMT-nin Beynəlxalq Ticarət Hüququ üzrə Komissiyasının arbitraj qaydalarının yaradılması, inkişaf yolu, Azərbaycanın Arbitraj haqqında qanunvericiliyi ilə bağlılıqları aydınlaşdırılacaq, arbitraj və kommersiya məhkəmələrində işə baxılması zamanı həyata keçirilən prosessual hərəkətlərin təhlili aparılmaqla, mübahisəyə baxılmanın nəzəri və praktiki tərəfləri aydınlaşdırılacaq, kommersiya məhkəmələrinin yardım funksiyaları araşdırılacaq. Eyni zamanda arbitraj məhkəmələri tərəfindən qəbul edilmiş məhkəmələr tərəfindən tanınmasının və icra edilməsinin mexanizmlərinə aydınlıq gətiriləcək.

***Açar sözlər:*** *arbitraj, arbitr, arbitraj qərarı, ədalət naminə qərar, beynəlxalq arbitraj, arbitraj sazişi, beynəlxalq arbitraj qaydalarının Azərbaycan qanunvericiliyə təsiri, arbitraj və mülki məhkəmə icraatlarının fərqli və oxşar xüsusiyyətləri, məhkəmənin yardım və nəzarət funksiyaları, kommersiya məhkəmələri, arbitraj məhkəmələri, daimi arbitraj təşkilatları, arbitraj icraatında müvəqqəti xarakterli təminat tədbirləri, kollizion normalar, beynəlxalq xüsusi hüquq, arbitraj qərarlarının tanınması və icrası*

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

**Bahruz Orujov**
Central European University (CEU)
Master student
orujov.bahruz@gmail.com

# Arbitration and Civil Litigation: International Rules and Azerbaijani Legislation

**Abstract**

It is significant to point out that even though arbitration is not commonly utilized in our country, it is a popular method for settling disputes in arbitration courts internationally. The states have put into effect relevant legal measures on arbitration and adjusted their legislation to comply with international norms in this sector. This is the reason why major companies and business entities, who hold top positions in the global economy, opt for arbitration tribunals to settle disagreements among themselves. This relates to the adjudication of conflicts in arbitration within an objective and practical timeframe, leading to time savings. The selection of arbitration is based on the agreement of both parties, and since it operates separately from the government, there is an increased level of confidence in the outcomes of arbitration. At the same time, decisions are put into effect more realistically, with a significant probability of being enforced within a reasonable timeframe.

In the recent past, Azerbaijani legal framework has been refined to meet international standards and draw from global expertise. The Law on Arbitration of the Republic of Azerbaijan, passed on December 26, 2023, is a notable instance of a progressive legal measure. This legislation in Azerbaijan governs the handling of disputes by arbitration courts, the implementation of court assistance and oversight functions, and the recognition and enforcement of foreign arbitration awards. Despite being a new concept in our country, active measures are being taken to enhance the progress of arbitration within our jurisdiction.

At present, in our country, the prevailing method is to resolve conflicts through litigation, particularly within the judicial system. The primary focus of this article is to highlight the resemblances and divergences in the handling of disputes between arbitration litigation. Furthermore, examining how the Law on Arbitration interacts with international arbitration regulations, and studying the evolution of international arbitration regulations. Simultaneously, to highlight the benefits of examining cases in arbitration tribunals.

The article aims to explain how the arbitration rules of the UN Commission on International Trade Law were set up, their evolution, and their connection to Azerbaijan's Arbitration legislation. Additionally, it will entail analyzing the procedural maneuvers carried out during the case deliberation in arbitration and commercial courts, shedding light on the theoretical and practical dimensions of dispute resolution. Investigation will be carried out on the extra responsibilities of commercial courts. Simultaneously, there will be a clarification of the mechanisms for recognition and enforcement of awards issued by arbitration tribunals by courts.

***Keywords:*** *an arbitration, an arbitrator, an arbitral award, ex aequo et bono, an international arbitration, an arbitration award, an influence of international arbitration rules on Azerbaijan legislation, similar and distinct features between arbitration and litigation, an implementation of a court assistance and oversight functions, commercial courts, arbitration courts, permanent organizations of an arbitration, interim measures in an arbitration, conflict of laws, private international law, recognition and enforcement of arbitration awards*

## Giriş

Arbitraj haqqında qanun Azərbaycan Respublikasında arbitrajın həyata keçirilməsinin ümumi qaydalarını, arbitraj məhkəmələrinin yaradılmasını, arbitrajın aparılması ilə bağlı məhkəmələrin nəzarət və yardım funksiyalarını, xarici arbitraj qərarlarının tanınmasını və arbitrajın aparılması ilə bağlı digər məsələləri əhatə edir («Arbitraj haqqında» Azərbaycan Respublikasının Qanunu, 2023).

Azərbaycanda yeni qəbul edilmiş Arbitraj haqqında qanunvericiliyin əsası Birləşmiş Millətlər Təşkilatının Beynəlxalq Ticarət Hüququ üzrə Komissiyasının arbitraj qaydalarından (UNCITRAL) götürülmüşdür. Bu qaydalar arbitrajla bağlı ilkin olaraq müvafiq çərçivəni müəyyənləşdirmişdir. Bu qaydalara görə, BMT-nin Beynəlxalq Ticarət Hüququ üzrə Komissiyasının arbitraj qaydaları o halda tətbiq edilir ki, tərəflər bununla bağlı qabaqcadan razılığa gəlməlidirlər (United Nations Commission on International Trade Law (UNCITRAL) Arbitration Rules, 2010).

**Tədqiqat**

UNCITRAL arbitraj normaları arbitrajın tərəflər arasında kommersiya fəaliyyəti sahəsində yaranacaq mübahisələrin arbitrajda baxılmasının prosessual qaydalarını müəyyən edir. Bu qaydalar arbitrajın bütün sahələrini, arbitrajın aparılması, arbitrların təyin edilməsi, arbitraj qərarlarının qəbul edilməsini əhatə edir. Hazırda bu qaydaların dörd versiyası mövcuddur. İlkin versiya 1976-cı ildə hazırlanaraq qəbul edilmişdir. 15 avqust 2010-cu il tarixində bu qaydalar təkmilləşdirilmişdir. Hazırda tərəflər arasında mübahisələrə arbitraj qaydalarının 2010-cu ildə təkmilləşdirilmiş versiyası tətbiq edilməklə baxılır. Qaydaların təkmilləşdirilməsinə baxmayaraq, ilkin versiyasında olan strukturunu, mətnini, əsas da ruhunu saxlamışdır. Təkmilləşdirilmiş versiya yeni imkanlar açmışdır. Çoxtərəfli arbitrajın həyata keçirilməsi, üçüncü şəxslərin (tərəflərin) işə qoşulması, müvafiq öhdəliklərin yaranması, təyin edilmiş arbitrlara etiraz hüququnun həyata keçirilməsi sonuncu versiyanın gətirdiyi yeniliklərdir. Bundan əlavə yeni versiya arbitrlarin dəyişdirilməsinin təkmilləşdirilmiş qaydalarını, xərclərin əsasının tələb edilməsini, arbitraj xərclərinin yenidən baxılması qaydalarını əhatə edir. Eyni zamanda sonuncu versiya müvəqqəti xarakterli təminat tədbirlərinin daha müfəssəl qaydalarını müəyyənləşdirmişdir. 2013-cü ildə Müqavilə əsaslı investor-dövlət arbitrajında şəffaflıq haqqında qaydaları 1-ci fəsil 4-cü paraqraf olaraq təkmilləşdirilmiş 2010-cu il versiyasına əlavə edilmişdir. Eyni zamanda 2021-ci ildə sürətləndirilmiş arbitraj qaydaları 1-ci fəsil 5-ci paraqraf olaraq sözügedən təkmilləşdirilmiş versiyaya əlavə edilmişdir. Lakin sürətləndirilmiş arbitrajın keçirilməsi üçün tərəflər bununla bağlı arbitraj sazişində razılığa gəlməlidirlər. Yəni sürətləndirilmiş arbitrajın keçirilməsinə razılıq konkret göstərilməli və tərəflər bunu öhdəlik olaraq üzərlərinə götürməlidirlər (UNCITRAL Arbitration Rules).

Ümumilikdə götürsək, arbitraj məhkəmələrində mübahisələrə baxılması və buna dair müvafiq qərarların çıxarılması prosesi özlüyündə arbitraj adlanır. Yəni arbitraj bir anlayış olaraq bütün mümkün prosesləri özündə cəmləşdirir. Arbitraj lap əvvəldən tələbin irəli sürülməsindən başlanmış, müvəqqəti təminat tədbirlərinin tətbiqini də əhatə etməklə arbitraj qərarının qəbulu və onun tanınması kimi bütün hərəkətlərin kompleksini cəmləşdirir. Arbitraj təktərkibli arbitrla keçirilməklə yanaşı, kollegial qaydada da aparıla bilər. Tərəflər arbitraja müraciət etməzdən əvvəl gələcəkdə aralarında yarana biləcək mübahisənin arbitraj məhkəməsində baxılıb həll edilməsilə bağlı razılığa gəlməlidirlər. Sözügedən razılıq arbitraj sazişi adlanır. Arbitraj məhkəməsinə müraciət edərkən məhkəməyə təqdim edilən sənədlərin sırasında eyni zamanda arbitraj sazişi də olmalıdır. Bunun əhəmiyyəti ondadır ki, tərəflər mübahisə yarandıqda yerli məhkəmələrə müraciət etməyəcəklərinə, mübahisənin arbitrajda baxılacağına öhdəlik götürürlər. Mülki prosessual qanunvericiliyin tələblərinə görə də məhkəmə aidiyyəti məsələsi həll edilərkən əgər tərəflər mübahisənin arbitrajda baxılmasına dair razılığa gəlmişlərsə, məhkəmə işi arbitraja göndərməlidir ("Arbitraj haqqında" Azərbaycan Respublikasının Qanunu, 2023, mad. 1).

Arbitrajın yerli və ya xarici olması onun məkanı ilə müəyyən edilir. Yəni əgər arbitraj Azərbaycan Respublikasının yurisdiksiyasına aid olan ərazidə təşkil edilmişdirsə yerli, xaricdə, yəni Azərbaycan Respublikasının yursidiksiyasına daxil olmayan ərazidə təşkil edilmişdirsə xarici arbitraj adlanır. Arbitraj haqqında qanun eyni zamanda arbitrajı səciyyələndirərkən onu beynəlxalq və daxili olaraq iki növə ayırır. Daxili arbitrajı müəyyənləşdirməyin üsulu çox sadədir. Belə ki, arbitraj beynəlxalq arbitrajla bağlı deyilsə, daxili arbitraj adlanır. Lakin Arbitraj haqqında qanun beynəlxalq arbitrajı fərqləndirmək üçün bir sıra xüsusiyyətlərini qeyd edir. Belə ki, arbitrajın beynəlxalq olması üçün vacib əlamətlərdən biri mübahisə tərəflərinin sahibkarlıq fəaliyyətinin bir dövlətin ərazisi ilə məhdudlaşmamasıdır. Yəni bu fəaliyyət ən azından iki dövlətin ərazisində aparılmalıdır. Eyni zamanda tərəflərin bir neçə dövlətin ərazisində fəaliyyəti arbitraj sazişinin

bağlandığı vaxta təsadüf etməlidir. Digər əsas hal arbitrajın yerinin tərəflərin sahibkarlıq fəaliyyəti ilə məşğul olduqları ərazinin hüdudlarından kənarda yerləşməsidir. Yəni arbitrajın yerləşdiyi yer tərəflərin fəaliyyət göstərdikləri yerlə eynilik təşkil etməməlidir. Bu halda da arbitraj beynəxalq sayılacaqdır («Arbitraj haqqında» Azərbaycan Respublikasının Qanunu, 2023, mad. 4).

Deməli, beynəlxalq arbitraj bir sıra səciyyələndirici əlamətlərə malikdir. İlk növbədə mübahisədə xarici elementlərin olmasıdır. Tərəflərin xarici ölkədə fəaliyyətilə bağlı olması, ya da arbitrajın tərəflərin fəaliyyət göstərdikləri ərazidən kənarda yerləşməsi. Digər səciyyələndirici əlamət isə mübahisə baxan və qərar qəbul edən qurumların, təşkilatların və məhkəmələrin dövlətə bağlı olmamasıdır. Beynəlxalq arbitrajın əsas xarakterik əlaməti kimi tərəflərin arasında arbitraj sazişinin mövcudluğu ilə əlaqədardır (Qafarov, Əbilov, 2007, s. 309).

Arbitraj haqqında qanun Azərbaycan Respublikasının yurisdiksiyasında olan ərazilərdə təşkil edilən istər beynəlxalq, istərsə də daxili arbitraja tətbiq edilir. Belə ki, istər daimi, istərsə də adhoc qaydada təşkil edilmiş arbitraj məhkəmələri bu qanunvericiliyi imperativ norma kimi qəbul etməli, bu qanunvericiliyə uyğun olaraq arbitrajı həyata keçirməlidir. Qanunvericilik eyni zamanda arbitrajın yerləşdiyi yerin Azərbaycan Respublikasından kənarda olduqda və ya bu yer qeyri-müəyyən olduqda belə bu qanunun tətbiq dairəsini müəyyən etmişdir. Belə ki, kommersiya məhkəmələrinin, apellyasiya və kassasiya instansiya məhkəmələrinin nəzarət və yardım funksiyalarına dair müddəalar, eyni zamanda arbitrajda həll edilməsi məhdudlaşdırılmış sahələrin siyahısı, müvəqqəti təminat tədbirinin keçirilməsi, bu qərarların tanınması və icrası, bu qərarların tanınması və icrasından imtina, sübutların təmin edilməsi, Azərbaycan Respublikası normativ hüquqi aktlarının xarici dövlətin hüququn tətbiq edilməsinə məhdudiyyələrin tətbiqi, xarici arbitraj məhkəmələrinin qərarlarının tanınması və icrasına, bu qərarların tanınmasından və icrasından imtinaya dair müddəalar arbitrajın yerini Azərbaycan Respublikasından kənarda olduqda və ya arbitrajın yerini müəyyənləşdirmək mümkün olmadıqda belə tətbiq ediləcək. Arbitraj prosesi bir tərəfin digər tərəfə arbitraj bildirişini göndərməsi və qarşı tərəfin bu bildirişi alması ilə başlayır. Arbitraj qeyri-dövlət təsisatıdır və dövlətlə heç bir bağlılığı yoxdur. Məhz buna görə də dövlətin arbitraj prosesinə və çıxarılan qərarlara təsir imkanları da yoxdur. Belə ki, məhkəmələrin arbitraja müdaxilə etməsinə yol verilmir. Lakin məhkəmələrin yardım və nəzarət funksiyaları ilə bağlı arbitraja kömək etmək imkanları mövcuddur. Lakin bu təsir işin mahiyyəti üzrə baxılmasına və qərarın çıxarılmasına heç bir müdaxiləni nəzərdə tutmur. Arbitraj məhkəmələri iki qaydada daimi arbitraj təşkilatları formasında, o cümlədən adhoc arbitrajı qaydasında təşkil edilə bilər. Ad hoc arbitraj yalnız beynəlxalq arbitraja münasibətdə təşkil edilir və bu arbitrajda BMT-nin Beynəlxalq Ticarət hüququ üzrə komissiyasının sürətləndirilmiş arbitraj qaydaları (UNCİTRAL) tətbiq edilir. Daimi arbitraj təşkilatları hüquqi şəxs kimi dövlət qeydiyyatına alınmalıdır, bu təşkilatların adlarında arbitraj məhkəməsi sözündən istifadəyə icazə verilmir. Daimi arbitraj təşkilatları idarəetmə funksiyaları həyata keçirməklə, arbitrajın təşkil edilməsi ilə bağlı inzibati məsələləri həll edirlər. Bu səlahiyyətlərə arbitrların təyin edilməsi, arbitrlara etirazlara baxılması, arbitrların səlahiyyətlərinə xitam verilməsi və digər inzibati məsələlər daxildir. Daimi arbitraj təşkilatlarının akkreditasiya və akkreditasiyanın ləğvi qaydasını Azərbaycan Respublikasının Nazirlər Kabineti müəyyən edir. Nazirlər Kabinetinin bu sahədə səlahiyyətlərini isə Azərbaycan Respublikasının Prezidenti müəyyənləşdirir. Daxili Arbitraj təşkilatları arbitrləin reyestrini aparır və ora arbitlərin məlumatlarını əks etdirən informasiyalar daxil edilir.

Arbitraj sazişi – tərəflərin gələcəkdə aralarında olan mübahisənin arbitrajda baxılması ilə bağlı razılığını əks etdirən sənəddir. Bu razılıq tərəflərin kommersiya fəaliyyətilə əlaqədar bağladıqları müqavilələrdə bir bənd olaraq şərt kimi göstərilə bilər. Eyni zamanda tərəflər arbitrajla bağlı əlavə olaraq ayrıca müqavilə bağlaya bilərlər. Arbitraj sazişinin əsas elementlərin biri onun yazılı formasına riayət edilməsidir. Tərəflər bu razılığı yazılı olaraq ifadə etməlidirlər. Yəni tərəflər bu razılığı qeydə aldıqları andan mübahisənin arbitrajda baxılmasını razılaşdırırlar. Tərəflərdən biri digərinə bu şərtlə bağlı məktub göndərirsə, qarşı tərəf də buna etiraz etmirsə, arbitraj sazişinin yazılı formasına riayət edilmiş hesab edilir. Arbitraj sazişi muxtar üstünlüyə və hüquqi müstəqilliyə malikdir. Arbitraj sazişi barədə qeyri-şərt olan müqavilə etibarsızdırsa, bu arbitraj sazişinin

etibarsızlığı ilə nəticələnə bilməz. Yəni arbitraj sazişi müqavilədən kənar hüquqi qüvvəyə malik öhdəlikdir, həmin müqavilədən asılı deyil (Qafarov, Əbilov, 2007, s. 311-312).

Arbitraj haqqında qanuna görə, tərəflər istənilən sayda arbitr seçə bilər, lakin arbitrların sayı hər bir halda tək olmalıdır. Arbitrlərin sayı müəyyən edilmədikdə üç arbitr təyin edilir. Arbitrın vətəndaşlığı onun arbitr kimi təyin edilməsinə məhdudiyyət kimi qəbul edilə bilməz. Tərəflər arbitrların təyin edilməsi zamanı razılığa gələ bilməsələr bu məqsədlə onlar Bakı Kommersiya Məhkəməsinə müracit etməlidirlər, bu barədə qərar qətidir və mübahisələndirilə bilməz. Əgər tərəflər arbitrlarin təyin edilməsini üçüncü şəxslərə tapşırılması barədə əvvəlcədən razılığa gəlmişlərsə onda məhkəməyə müraciət edə bilməzlər. Arbitrlərin qərəzsizliyinə və müstəqilliyinə əsaslı şübhələr yaranarsa, onlara etiraz verilə bilər. Etirazla əlaqədar qəbul edilmiş qərarın mübahisələndirilməsi məqsədilə tərəflər Bakı Kommersiya Məhkəməsinə müraciət edə bilər. Məhkəmənin bununla bağlı səlahiyyətləri yalnız prosesual qaydalara riayət edilib-edilməməsini yoxlamaqdan ibarətdir, məhkəmə işə mahiyyəti üzrə baxa bilməz.

Kommersiya mübahisələrinə arbitraj məhkəmələrində baxılmasının işə birinci instansiya məhkəmələrində iddia icraatı qaydasında baxılmasının müqayisəli təhlili zamanı hər iki icraatın oxşar və fərqli xüsusiyyətlərini aşkar etmək mümkün olur. Mübahisələrə arbitrajda baxılmasının vacib şərtlərindən biri tərəflər arasında arbitraj sazişinin – arbitrajla bağlı razılaşmanın olmasıdır. Bu razılaşma mövcud olmadan tərəflərin mübahisəsinə arbitrajda baxıla bilməz. Lakin birinci instansiya məhkəmələrində iddia icraatı qaydasında işə baxılması üçün qabaqcadan razılaşdırılmış müqavilənin mövcudluğuna ehtiyac yoxdur. Belə ki, tərəf hüquqlarının pozulduğunu hesab edirsə, qanunvericiliyin tələblərinə uyğun olaraq, aidiyyət məsələsini gözləməklə istənilən məhkəməyə müraciət edə bilər. Mülki Prosessual qanunvericiliyin tələblərinə görə, istənilən fiziki və hüquqi şəxslər qanunla qorunan hüquq və azadlıqlarını, maraqlarını qorumaq və təmin etmək məqsədilə məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdir. Bu hüquq heç bir müqavilə və ya razılaşma ilə məhdudlaşdırıla bilməz. Belə razılaşma və ya müqavilə etibarsızdır. Həm arbitraj, həm də iddia icraatı qaydasında birinci instansiya məhkəməsində mübahisələrə baxılması üçün bu qurumlara müraciət etmək vacibdir. Yəni bir tərəf pozulmuş hüquqlarının bərpa edilməsi və müvafiq qərarın qəbul edilməsi üçün hökmən bu təsisatlara müraciət etməlidir. Deməli, hər iki təsisatda mübahisələrə baxılması tərəflərin iradə ifadəsindən, mübahisəyə baxılması niyyətlərindən asılıdır. Nə arbitraj, nə də ki, kommersiya məhkəmələri onlara tərəflər müraciət etməsələr, işlərə baxa bilməzlər. Arbitrajda icraatın aparıldığı dil prosessual qaydaların vacib elementlərindən sayılır. Belə ki, mülki prosessual qanunvericiliyə görə, mülki məhkəmə icraatı Azərbaycan Respublikasında dövlət dilində – Azərbaycan dilində aparılmalıdır. Eyni zamanda Azərbaycanda yaşayan etnik azlıqların üstünlük təşkil etdikləri ərazilərdə onların dilində də aparıla bilər. Dil ünsiyyət vasitəsi kimi çıxış etməklə mülki məhkəmə icraatında tərəflərin öz hüquq və azadlıqlarının qorunmasında, ədalətli məhkəmə çəkişməsinin təmin edilməsində mühüm rol oynayır. Tərəflərin onlara qarşı irəli sürülmüş tələblərin nədə ifadə olunması, bu tələbə qarşı qanunun onlara verdiyi müdafiə vasitələrini bilmələri mühüm əhəmiyyət kəsb edir. İcraatın aparılması ilə bağlı dilin müəyyən edilməsi arbitrajda da vacib elementlərdən biridir. Belə ki, Arbitraj haqqında qanuna görə, tərəflərin icraatın aparılmasında dilin müəyyən edilməsində müstəqilliyi mövcuddur. Belə ki, tərəflər dilin seçilməsilə bağlı qarşılıqlı razılaşa bilərlər. Əgər tərəflər dilin müəyyən edilməsilə bağlı razılığa gələ bilmədikdə, bunu arbitraj məhkəməsi özü edir. Arbitraj məhkəməsi dili müəyyən edirsə, bu icraat çərçivəsində aparılan yazışmalar və sənədlər də həmin dildə olmalıdır. Arbitraj məhkəməsinin icraatın aparıldığı dildə olmayan sənədlərin və yazışmaların həmin dilə tərcümə olunması ilə bağlı tərəflərə tələb irəli sürə bilər. Belə aydın olur ki, icraatın aparıldığı dilin müəyyən edilməsilə bağlı razılıq əldə edilmədiyi təqdirdə bu dilin müəyyən edilməsi yerli məhkəmələrin yardım və nəzarət funksiyalarından kənarda qalır. Sözügedən səlahiyyə yalnız arbitraj məhkəməsinə məxsusdur. Mübahisələrə həm arbitaj, həm də mülki məhkəmə icraatı qaydasında baxılmanın vacib elementlərindən biri arbitr və hakimə etiraz məsələsidir. Arbitr və hakimlər hüquqi təbiətlərinə görə oxşardırlar. Belə ki, hər iki subyekt mübahisəyə baxır və ədalətli aktın qəbul edilməsinə çalışır. Hər iki subyekt müstəqildir və tərəflərlə heç bir formada bağlı deyil, asılılığı yoxdur. Etiraz etmə institutunun da əsas məqsədi ondan ibarətdir ki, tərəflərə hüquq verir ki, müstəqilliyinə və digər

formada qərəzsizliyə şübhə doğuran məlumatlar olduğu təqdirdə bu hüquqdan istifadə etsinlər. Arbitraj icraatında etiraz etmə spesifik əlamətlərə malikdir. Belə ki, arbitrajda arbitra etirazın edilməsi əsaslarından ən vacibi onların müstəqilliyi və qərəzsizliyi ilə bağlı şübhə doğuran məlumatların olmasıdır. Etiraz üçün əsaslardan biri də arbitrın bu vəzifəyə uyğun olmaması ilə bağlıdır. Yəni arbitr olmaq üçün nəzərdə tutulmuş tələblərə malik olmamaq etiraz üçün əsasdır. Arbitrajda etirazla mülki məhkəmə icraatında etirazın əsaslarında oxşar cəhətlər mövcuddur. Belə ki, müki məhkəmə icraatında hakimə etiraz üçün əsasların konkret dairəsi müəyyən edilmişdir. Bu siyahıda olan əsaslardan qanunvericiliyə uyğun qaydada təyin edilmiş hakim olmaması və işin baxılması üçün nəzərdə tutulmuş hakim olmamasıdır. Bu arbitrajda arbitrın bu vəzifəyə uyğun olmaması ilə eynilik təşkil edir (Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsi, 1999, mad. 4, 11; «Arbitraj haqqında» Azərbaycan Respublikasının Qanunu, 2023, mad. 3, 21, 40).

Belə ki, Azərbaycan Respublikasında hakim vəzifəsinə namizədlərin seçilməsi və onlara hakim vəzifələrinə təyin edilməsilə bağlı müvafiq qaydalar müəyyən edilmişdir. "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikası Qanununa görə, hakim vəzifəsinə namizədlərin seçilməsi hakimlərin seçki komitəsi tərəfindən təşkil edilir. Birinci instansiya məhkəmələri hesab edilən kommersiya məhkəmələrində hakim vəzifələrinə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təyin edilirlər («Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikasının Qanunu, 1997, mad. 2, 93; Azərbaycan Respublikasının Konstitusiyası, 1995, mad. 109).

Arbitların təyin olunması, onlara etiraz və onların fəaliyyətlərin xitam verilməsi isə daimi arbitraj təşkilatlarının səlahiyyətlərinə daxildir. Arbitraj təşkilatları arbitrajla bağlı inzibati funksiyaları yerinə yetirməklə arbitrların reyestrini də aparırlar. Arbitraj haqqında qanun eyni zamanda daxili arbitraj icraatına münasibətdə arbitrlara olan minimum tələbləri müəyyən etmişdir. Bu tələblərə şəxsin işin nəticəsində maraqlı olmaması, 25 yaşının tamam olması, ali təhsilli və ixtisası üzrə 3 il iş stajına malik olması daxil edilmişdir. Arbitraj təşkilatları öz qaydalarına uyğun olaraq arbitrlərə əlavə tələblər də irəli sürə bilərlər («Arbitraj haqqında» Azərbaycan Respublikasının Qanunu, 2023-cü il, mad. 11, 14).

Deməli, belə qənaətə gəlmək olar ki, Arbitraj haqqında qanunun və arbitraj təşkilatları qaydalarının tələblərinə cavab verməmək arbitra etiraz üçün əsas yaradır. Azərbaycan qanunvericiliyə uyğun olmayaraq təyin edilməmələri hakimlərin etirazı üçün isə əsas kimi hesab edilməlidir. Mülki məhkəmə icraatında işə baxan hakimin əvvəllər başqa instansiya məhkəmələrində işə baxması etiraz üçün əsas sayılır. Eləcə də tərəflərin birinin nümayəndəsi, vəkili olması, işdə şahid, ekspert, mütəxəsssis, tərcüməçi, məhkəmə iclas katibi iştirak etmişsə, tərəflərdən biridirsə, tərəflərin və ya nümayədəsinin qohumdursa və ya qohum olmuşsa, hakimə etiraz verilə bilər. Eyni zamanda mülki prosessual qanunvericilik bir-birləri ilə qohum olan hakimlərin işə bir tərkibdə baxmasını qadağan edir. Lakin arbitraj icraatında arbitrın mülki məhkəmə icraatında olduğu kimi əvvəllər işə baxılmasında iştirakı və yuxarıda sadalanan vəzifələrdə işdə iştirakı etirazın əsası kimi göstərilməmişdir. Arbitraj haqqında qanun deyir ki, əgər arbitrın müstəqilliyinə və qərəzsizliyinə şübhə varsa, etiraz üçün əsas yarana bilər. Hər bir halda, arbitra etiraz məsələsi sonda kommersiya məhkəmələri tərəfindən həll edilir və bununla bağlı qərar qətidir. Mülki məhkəmə icraatında etiraz üçün əsas olan hakimin işinin nəticəsində maraqlı olması, onun obyektivliyi və qərəzsizliyinə şübhə doğuran məlumatların olması, arbitrajda olan etiraz üçün əsas arbitrın müstəqilliyinə və qərəzsziliyinə şübhə doğuran məlumatların olması ilə eyni hüquqi təbiətə malikdir. Yəni hər iki icraatda əsas məqam obyektivlik, qərəzsizlik, müstəqillik faktorlarıdır. Bu faktorlardan hər hansı birininin həm arbitrda həm də hakimdə olmaması sonda ədalətli qərarın çıxarılmasına şübhələr yarada bilər. Bununla da qanunvericilik belə halların olduğu təqdirdə hər iki subyektə etiraz verilməsinin hüququnu təmin etmişdir (Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsi, 1999, mad. 19, 21).

Məhkəməyə müraciət edilməsindən əvvəl mübahisənin hansı məhkəmədə baxılmasının müəyyən edilməsi vacib şərtdir. Mülki prosessual qanunvericiliyik məhkəmə aidiyyətinin əsas növlərini – ümumi, ərazi, müstəsna, müqavilə və digərləri müəyyənləşdirir. İlk növbədə müəyyən edilən aidiyyət növü mübahisənin mülki və ya kommersiya məhkəməsinin aidiyyatinə aid olub-olmamasıdır. Mübahisənin mülki və ya kommersiya məhkəməsi aidiyyətini müəyyən etmək üçün işdə iştirak edən şəxslərin subyektiv tərkibi, mübahisənin predmeti və hüquq münasibətinin xarakteri əsas rol

oynayır. Müstəsna aidiyyət qanunvericilikdə sadalanan xüsusi şərtlər daxilində tətbiq edilir. Buna misal olaraq, yüklərin, sərnişinlərin və və ya baqajın daşınma müqavilələrindən əmələ gələn yük daşıyanlara qarşı iddialar nəqliyyat təşkilatı idarəsinin yeri üzrə verilməsini göstərmək olar. Müqavilə aidiyyətində isə tərəflər aidiyyət məsələsini qabaqcadan razılaşdıraraq saziş formasında rəsmləşdirirlər. Arbitraj haqqında qanuna görə, arbitrajda mübahisələrə baxılması zamanı aidiyyət məsələsinin müəyyən edilməsi zamanı arbitraj sazişi mühüm rol oynayır. Belə ki, arbitrajda tərəflər mübahisənin harada həyata keçirilməsini qabaqcadan razılaşdıra bilərlər. Bu bir növ mülki iddia icraatında müqavilə aidiyyəti ilə eynilik təşkil edir. Müqavilə aidiyyətində və arbitraj icraatında tərəflər müqavilə bağlayaraq mübahisənin baxılma yeri barədə əvvəlcədən razılığa gəlirlər. Mülki iddia icraatında tərəflər aidiyyətlə bağlı qabaqcadan razılığa gəlmişlərsə, onda ərazi aidiyyətinin tətbiqi istisna edilir. Mülki məhkəmə icraatında aidiyyətin mülki və ya kommersiya məhkəmələrinə aid olmasını tərəflər arasında olan mübahisənin sahibkarlıq fəaliyyətindən əmələ gəlib-gəlməməsilə müəyyənləşdirmək mümkündür. Sahibkarlıq fəaliyyətindən irəli gələn sahələr üzrə yaranan mübasilərə kommersiya məhkəmələrində baxılır. Arbitraj haqqında qanuna görə, arbitrajda həll edilə bilən məsələlərin konkret dairəsi müəyyənləşdirmişdir. Kommersiya mübahisələri, tərəflərin mübahisə predmeti barədə sərəncam vermə səlahiyyətlərinin olduğu və digər şəxslərin hüquqlarına və qanuni maraqlarına toxunmayan mübahisələrə arbitraj məhkəmələrində baxılır (Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsi, 1999, mad. 24-26, 29, 39-40).

Lakin cinayət, inzibati xətalarla bağlı, inzibati və digər publik hüquq, ailə münasibətlərindən irəli gələn mübahisələr, şəxsin hüquqi vəziyyəti ilə bağlı işlər, əmək mübahisələri, ətraf mühitin mühafizəsi sahəsində işlər, vərəsəlik işləri, əqli mülkiyyətin müəyyən edilməsi və bu hüquqların qeydiyyatı ilə bağlı, rəqabət hüququ və istehlakçıların hüquqlarının müdafiəsi, habelə istehlak kreditləri ilə əlaqədar yaranan mübahisələr, Azərbaycan Respublikasının ərazisində yerləşən daşınmaz əmlak üzərində mülkiyyət və digər əşya hüquqları ilə bağlı yaranan mübahisələr, müflisləşmə və iflasa dair işlər, hüquqi şəxsin ləğvi, yaxud onun qərarlarının ləğvi ilə bağlı iddialara dair işlər (hüquqi şəxsin Azərbaycan Respublikasında hüquqi ünvanı (olduğu yer) olduqda), fiziki şəxslərin tərəf olduğu mübahisələr (bu mübahisələr fiziki şəxslərin sahibkarlıq fəaliyyəti ilə əlaqədar olmadıqda), yükdaşıma müqavilələrindən əmələ gələn yükdaşıyanlara qarşı iddialara dair işlər, Azərbaycan Respublikasının ərazisində yerləşən daşınmaz əmlakın icarəyə verilməsi ilə bağlı mübahisələr arbitrajda baxıla bilməyən sahələrdir («Arbitraj haqqında» Azərbaycan Respublikasının Qanunu, 2023, mad. 13).

Arbitraj icraatında mübahisələrə baxılmasından fərqli olaraq, müflisləşmə ilə bağlı, kommersiya hüquqi şəxsləri ilə bağlı korporativ tələblər, hüquqi şəxsin yaradılması, yenidən təşkil olunması, təsis paylarının alqı-satqısı ilə bağlı işlər, əqli mülkiyyət hüquqlarının pozulması və ya qeydiyyatı ilə bağlı mübahisələr iddia icraatı qaydasında kommersiya məhkəmələrində baxıla bilər. Bu sadalanan mübahisələr arbitrajda baxılmalı mübahisələrin dairəsinə daxil deyil (İşlərin ümumi və yaxud kommersiya məhkəmələrinə aidiyyətinin müəyyən edilməsi, məhkəmə aidiyyəti ilə bağlı mübahisələrə və məhkəmələr arasında yaranan fikir ayrılıqlarına baxılmasının xüsusiyyətlərinə dair Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 10 nömrəli 18 sentyabr 2020-ci il tarixli qərarı).

Arbitraj haqqında qanun qəbul edilikdən sonra mülki prossesual qanunvericiliyə də müvafiq olaraq əlavə və dəyişikliklər edilmişdir. Arbitraj haqqında qanun qəbul edilməzdən əvvəl mülki prosessual qanunvericilikdə müvəqqəti xarakterli təminat tədbirlərinin tətbiqi ilə əlaqədar arbitraja dair müddəalar yer almamışdı. Lakin hazırki mülki prosessual qanunvericilik arbitraj icraatı zamanı müvəqqəti xarakterli tədbirlərin tətbiqi, buna dair qərarların qəbulu, həmin qərarların mübahisələndirilməsi və icrasını da əhatə etmişdir.

Mülki iddia icraatı və arbitraj icraatında müvəqqəti xarakterli təminat tərbirlərinin tətbiqi yekunda qəbul ediləcək qərarın icrasının asanlaşdırılması məqsədi güdür. Tərəflər bu tərdbirlərin görülməsilə bağlı məhkəməyə müraciət edirlər ki, gələcəkdə qəbul ediləcək qərarın icrasında çətinliklər yaranmasın və bu qərarın icrası mümkün olsun.

Müvəqqəti xarakterli təminat tədbirlərinin tətbiqi ilə bağlı həm arbitraja həm də birinci instansiya məhkəməsinə istənilən vaxt verilə bilər. Belə qənaətə gəlmək olar ki, müraciət

mübahisənin mahiyyəti üzrə yekun qərar qəbul edilənədək verilməlidir. Tərəflər mülki iddia icraatında müvəqqəti xarakterli təminat tədbirlərinin tətbiqi ilə bağlı müraciət edərkən müvafiq halların mövcudluğunu əsaslandırmağa borcludur. Deməli, müvəqqəti xarakterli təminat tədbirlərinin tətbiqi xüsusi şərtlərin mövcud olmasından asılıdır. Əgər bu şərtlər yoxdursa, deməli müvəqqəti xarakterli təminat tərbirlərinin tətbiqi ilə bağlı müraciət də əsassızdır. Əsaslardan ən vacibi ilk növbədə müvəqqəti xarakterli təminat tərbirlərinin tətbiq edilməyəcəyi təqdirdə tərəflərin hüquqlarının pozulacağı və bu hüquqların bərpasının mümkün olmayacağı ehtimalının olmasıdır. Digər əsas isə iddianın kifayət qədər əsaslığına dair sübutların mövcud olmasıdır. Bildiyimiz kimi iddia tərəfinin irəli sürdüyü tələbin əsaslı olmasını sübut etmə vəzifəsi mövcuddur. İddiaçı iddianın əsasını təşkil edən halları sübut edən dəlilləri məhkəməyə verməyə borcludur. Sübutların təqdim edilməsi həm iddianın verilməsilə eyni vaxtda həm də sonrakı mərhələlərdə mümkündür (Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsi, 1999, mad. 157).

Bu tədbirlərin tətbiqi xüsusi meyarlara cavab verməlidir. İlk növbədə bu tədbirlərin tətbiqi üçün əsasların kifayət qədər olduğu halda qısa müddəti əhatə etməlidir. Bu müddət hüquqların pozulduğu, bu tədbirlərin tətbiqi ilə bağlı müraciət edildiyi vaxtdan mübahisənin həlli ilə əlaqədar yekun qərarın qəbul edilməsini əhatə etməlidir. Eyni zamanda adından göründüyü kimi müvəqqəti xarakter daşımalıdır. Bu tədbirlər mübahisənin həlli ilə bağlı yekun akt göstəricilərinə malik deyil və müvəqqəti olaraq xüsusi məqsədlə qəbul edilir. Digər əhəmiyyətli meyar bu tətbirlərin irəli sürülmüş iddia tələbinə mütənasib olması, yəni uyğun olmasıdır. Bu o deməkdir ki, bu tədbirlər iddia tələbinin həddini aşmamalı, lüzumsuz olaraq insan və vətəndaş hüquq və azadlıqlarını məhdudlaşdırmamalıdır (Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 157 və 157-ci maddələrinin bəzi müddəalarının dair 14 mart 2018-ci il tarixli qərarı).

Arbitraj haqqında qanunda müvəqqəti xarakterli təminat tədbirlərinin tətbiqi dairəsi, bu qərarlarla arbitraj məhkəməsinin tələbləri, tətbiq edilmə əsasları, növləri və digər xüsusatlar müəyyən edilmişdir. Arbitraj icraatında iddia icraatında olduğu kimi müvəqqəti xarakterli təminat tədbirlərinin tətbiqi ilə bağlı müvafiq şərtlər və əsaslar mövcud olmalıdır. İlkin şərt odur ki, bu tətbirlər tətbiq edilməsə əgər tərəflərə ziyan dəyəcəksə və arbitraj qərarı bu ziyanı aradan qaldırmaq gücünə malik olmayacaq və ya artıq dəymiş zərərdən daha çox ziyan dəyəcək. Digər əsas isə arbitrajda qərarın bu tədbirlərin tətbiqi ilə bağlı müraciət etmiş tərəfin xeyrinə qəbul edilməsi ehtimallarının mövcudluğudur.

Göründüyü kimi, mülki məhkəmə icraatında və arbitraj icraatında müvəqqəti xarakterli təminat tədbirlərinin tətbiqi oxşar xüsusiyyətlərə malikdir. Hər iki icraatda müvəqqəti xarakterli təminat tədbirlərinin tətbiqinin məqsədi qəbul ediləcək yekun qərarın icrasını sığorta etməkdən ibarətdir.

Arbitraj icraatında arbitraj məhkəməsi tərəfindən müvəqqəti xarakterli təminat tədbirlərinin tətbiqi ilə əlaqədar qərar qəbul edilir. Bu qərarla arbitraj məhkəməsi tərəflərdən mövcud və ilkin vəziyyəti mübahisənin həllinə qədər saxlamağı və bərpa etməyi tələb edir, zərərin qarşısını almaq üçün tədbirlər görür, şəxslərə bu zərər səbəb olacaq hərəkətlərdən çəkinmək öhdəliyi qoyur, yekun arbitraj qərarının icrası üçün aktivlərin mühafizəsini təmin edir, eləcə də iş üzrə mühüm əhəmiyyət kəsb edən sübutların mühafizəsini həyata keçirir («Arbitraj haqqında» Azərbaycan Respublikasının Qanunu, 2023, mad. 27).

Mülki məhkəmə icraatında da müvəqqəti xarakterli təminat tədbirlərinin tətbiqi ilə əlaqədar məhkəmə qərardadı ilə tərəflərin üzərinə müəyyən hərəkətləri etmək və ya müəyyən hərəkətləri etməkdən çəkinmək öhdəliyini qoyula, mülkiyyət hüquqlarının həyata keçirilməsilə bağlı məhdudiyyətlər tətbiq edilə bilər.

Tətbiq edilən tədbirlər də mahiyyət etibarilə və hüquqi təbiətlərinə görə hər iki icraatda eynilik təşkil edir. Bu tədbirlərin əsas qayəsi müvəqqəti məhdudiyyətlərin və öhdəliklərin qoyulmasından ibarətdir və son məqsəd yekun qərarın icrasını mümkün etməkdir.

Arbitraja yardım və nəzarət funksiyaları məhkəmə instansiyaları arasında bölüşdürülmüş və konkret səlahiyyətlərin dairəsi müəyyən edilmişdir. Müvəqqəti təminat tədbirlərinin tətbiq edilməsi, arbitrlərin təyin edilməsi zamanı razılıq əldə edilmədikdə arbitrlərin təyini, etiraz proseduru haqqında razılaşma olmadıqda arbitrə etirazla bağlı qəbul edilmiş rədd qərarına baxılması, arbitrin

səlahiyyətlərinə xitam verilməsi, arbitraj məhkəməsinin səlahiyyətli olmaması, sübutların təmin edilməsi, arbitraj qərarının tam və ya qismən ləğv edilməsi, arbitraj qərarının məcburi icrası üzrə məhkəmə funksiyalarını Bakı Kommersiya Məhkəməsi həyata keçirir. Müvəqqəti təminat tədbirinin tətbiqi barədə arbitraj məhkəməsinin qərarlarının tanınması və icrası, bu qərarların tanınması və icrasından imtina ilə bağlı məhkəmə funksiyalarını isə Bakı Apellyasiya Məhkəməsi həyata keçirir. Lakin iki instansiya məhkəmələri onların səlahiyyət dairəsində olan funksiyaları həyata keçirərkən, heç bir halda arbitrajın qəbul etdiyi qərarlara mahiyyəti üzrə baxaq bilməzlər. Bu məhdudiyyətin əsas səbəbi ondadır ki, arbitraj məhkəmələrdən asılı deyil və mahiyyəti üzrə qəbul etdiyi qərarı heç bir məhkəmə mübahisələndirə və yenidən baxa bilməz. Məhkəmələr yalnız arbitraj qərarlarının qəbul edilməsi zamanı prosedual qaydalara riayət edilib-edilməməsini yoxlaya bilər, yəni məhkəmələrin bu qərarların yoxlanılması ilə bağlı səlahiyyət həddi yalnız prosessual hissədə mümkündür ("Arbitraj haqqında" Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1077-VIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında 25 yanvar 2024-cü il tarixli 2455 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı).

Arbitrajda hansı ölkənin hüquq normalarının tətbiq ediləcəyi tərəflərin qabaqcadan əldə edilmiş razılığı əsasından müəyyən edilir. Tərəflər arbitraj sazişində hazırda mövcud olan və ya gələcəkdə yaranacaq mübahisəyə hansı hüquq normalarının tətbiq edəcəyini razılaşdırırlar. Lakin bu tətbiq edilən normalar həmin ölkənin kollizion deyil, maddi hüquq normalarının tətbiqini ehtiva edir. Tərəflər bu barədə razılığa gəlmədikdə, onda arbitraj məhkəməsi mübahisənin mahiyyətinə uyğun olaraq kollizion normalar əsasında müəyyən edilən normalar tətbiq edilir. Eyni zamanda tərəflər arbitra heç bir hüququn tətbiq edilməməsi və işə mahiyyəti üzrə ədalətli qaydada baxılaraq qərar qəbul edilməsi üçün müraciət edə bilərlər. Belə olan halda heç bir hüquq norması tətbiq edilmir, yalnız hüququn ümumi prinsipləri rəhbər tutulur və hüquq normasına zidd olsa da belə qərar ədalət meyarları ilə qəbul edilir («Arbitraj haqqında» Azərbaycan Respublikasının Qanunu, 2023, mad. 48).

Maddi hüquq normaları tərəflərin hüquq və vəzifələrini müəyyən etməklə, onların hərəkətlərini birbaşa tənzimləyir. Kollizion normaları isə birbaşa tənzimləmə xüsusiyyətinə malik deyil. Kollizion normalar mübahisənin mahiyyəti üzrə baxılması üçün tətbiq ediləcək hüququ müəyyən edir. Kollizion normalar adından göründüyü kimi toqquşma mənasını verir. Beynəlxalq xarakterli mübahisələrin tənzimlənməsi üçün bir neçə hüquq mövcud ola bilər. Kollizion normalar bu hüquqları toqquşdurmaqla, nəticə etibarı ilə effektiv və səmərəli tətbiq ediləcək hüquq normalarını müəyyən etmiş olur. Bu məqsədlə ilkin olaraq kollizion problem həll edilir, daha sonra münasibət mahiyyəti üzrə həll edilir. Bu iki mərhələ bir birilə sıx bağlıdır. Tətbiq ediləcək hüququn müəyyən edilməsi üçün kollizion normaların tətbiqi bu iki mərhələdən keçir. Kollizion normanın əsas təyinatı xarici elementli mülki dövriyyədə baş verən münasibətləri tənzimləyən hüququ seçməkdir (Qafarov, Əbilov, 2007, s. 43).

Həcm və bağlanma kollizion normanın əsas tərkib hissəsidir. Normanın həcmi beynəlxalq xüsusi hüququn predmeti ilə bağlıdır, normanın bağlanma hissəsi beynəlxalq xüsusi hüququn metodoloji funksiyasını həyata keçirir. Onun əsas məqsədi kollizion problemi həll etməkdən ibarətdir. Bağlanma münasibətin mahiyyətini öyrənməklə, onun daha çox sıx bağlı olduğu maddi hüququ müəyyən edir. Kollizion hüquq normalarının iki növü mövcuddur. Birtərəfli kollizion hüquq normalarından normanın bağlanması hissəsinin əsasında dövlət dayanır. Tətbiq ediləcək normanı isə qeyd edilən dövlət yaradır. Adından göründüyü kimi dövlət birtərəfli qaydada yalnız özünün yaratdığı hüquq normalarını müəyyən edir. İkitərəfli kollizion normalar beynəlxalq xüsusi hüquq üçün daha çox xarakterikdir. Beynəlxalq müqavilələrdə qeyd edilən normalar ikitərəfli kollizion normalardır. Hüquq normasının bağlanma hissəsində tətbiq ediləcək hüququ seçmək üçün konkret dövlətin hüququna deyil, ümumi prinsiplərə istinad edilməlidir (Qafarov, Əbilov, 2007, s. 44-46).

«Beynəlxalq xüsusi hüquq haqqında» Azərbaycan Respublikası Qanununa görə, məhkəmə borcludur ki, xarici dövlətin hüquq normalarının tətbiqi zamanı, onların rəsmi təfsirinə və tətbiq praktikasına uyğun müəyyənləşdirmək üçün bütün addımları atsın. Əgər bu bir nəticə vermirsə və eyni zamanda böyük xərclər tələb edirsə, tərəflər isə öz tələb və etirazlarını əsaslandıran

normaların tətbiqinə dair sənədlər təqdim edə bilmirsə Azərbaycan Respublikasının qanunvericiliyi tətbiq edilir. Xarici hüququn tətbiqi ilə əlaqədar bəzi məhdudiyyətlər də mövcuddur. Belə ki, sözügedən hüquq normaları Azərbaycan Konstitusiyasına və referendumla qəbul edilmiş aktları ilə ziddiyyət təşkil edirsə onların tətbiqinə icazə verilmir. Azərbaycan qanunvericiliyinə görə, imperativ-məcburi hüquqi qüvvəyə malik normaları da xarici hüquqi normalardan üstün hesab edilərək tətbiq edilir.

Mülki prosessual qanunvericiliyə görə, Azərbaycan Respublikasında xarici arbitraj məhkəmələrinin qərarlarının icrası və tanınmasında mühüm rolu Xarici arbitraj qərarlarının tanınması və icrası haqqında" 1958-ci il 10 iyun tarixli Nyu-York Konvensiyası (bundan sonra Konvensiya), "Arbitraj haqqında" Azərbaycan Respublikasının Qanunu oynayır («Xarici arbitraj qərarlarının tanınması və icrası» haqqında Konvensiyaya qoşulmaq barədə 734-IQ nömrəli 9 noyabr 1999-cu il tarixli Azərbaycan Respublikasının Qanunu).

Arbitraj qərarının tanınması müdafiə xarakterlidir, belə ki, artıq tərəflər arasında mübahisənin həlli ilə bağlı qərar var və maraqlı tərəf həmin qərarın tanınmasını istəyir. Xarici arbitraj qərarını digər ölkədə tanıtmaqla, həmin akt bunu tanıyan ölkənin milli hüquq sisteminin tərkib hissəsinə çevrilir. Tanınan qərar həmin ölkədə səlahiyyətli məhkəmələr tərəfindən qəbul edilmiş qərarlarla eyni qüvvəyə və gücə malik olur. Qərarın icra edilmə isə hücum xarakterlidir, yəni artıq qəbul edilmiş qərarın məcburi icra edilməsinə zərurət yaranmışdır. Belə ki, maraqlı tərəf ona çatası payı əldə etmək üçün səlahiyyətli məhkəməyə müraciət etməklə həmin qərara məcburi icra qüvvəsi verə bilər (Sanders, Kaplan, p. 9).

Konvensiya bir ölkədə qəbul edilmiş arbitraj qərarının digər ölkədə tanınmasına və icra edilməsinə dair beynəlxalq müstəvidə hüquqi münasibətlərini tənzimləyir. Bu konvensiya imkan verir ki, bir ölkədə arbitrajla bağlı qəbul edilmiş qərar konvensiyaya qoşulan digər bir ölkədə də legitim olsun, hüquqi nəticə yaratsın. Arbitraj qərarının qəbul edildiyi ölkənin konvensiyaya qoşulmasının əhəmiyyəti yoxdur, əsas məsələ qərarın tanınması və icra edilməsi üçün müraciət edilən məhkəmənin aid olduğu dövlətin konvensiyaya qoşulmasıdır. Eyni zamanda arbitraj qərarı qəbul edildiyi dövlətin yurisdiksiyası ilə məhdudlaşmamalı, lokal xarakterli olmamalı, beynəlxalq qaydada tanınan məhkəmələr tərəfindən verilməlidir. Bu müstəvidə hüquqi nəticə həm qərarın tanınmasını həm də onun məcburi icrasını əhatə etmiş olur. Arbitraj qərarı yalnız arbitraj məhkəmələri tərəfindən qəbul edilmiş qərarları ehtiva etmir, o cümlədən tərəflərin artbitrajın keçirilməsi ilə bağlı müraciət etdikləri daimi arbitraj təşkilatlarının qəbul etdiyini aktları da nəzərdə tutur. Arbitraj qərarının həll etdiyi mübahisənin mahiyyəti kommersiya fəaliyyəti zamanı yaranan münasibətlərdən doğmalıdır. Belə ki, arbitraj qərarı arbitrajla baxılmalı olmayan mübahisənin həlli ilə əlaqədar qəbul edilmişdirsə, onda konvensiyanın nəzərdə tutduğu tanınma və icra edilmə imkanlarından kənarda qalacaq. Arbitraj qərarlarının tanınması və icra edilməsi prosesində arbitraj sazişi əsas rol oynayır. Əgər arbitraj sazişi etibarsız hesab edilmişdirsə, onda arbitraj qərarının tanınması və icrası mümkün deyil. Çünki arbitrajın həyata keçirilməsi tərəflərin razılığından asılı edilmişdir, tərəflər arbitraja müraciət etmək üçün qabaqcadan və ya mübahisənin mövcud olduğu müddətdə arbitrajda həll edilməsilə bağlı arbitraj sazişi bağlamalıdırlar. Arbitraj sazişinin etibarsız hesab edildiyi halda, keçirilmiş arbitrajın da legitimliyi şübhə altına alınır. Arbitraj sazişinin etibarsızlığı, bütün arbitraj prosesini sıfırladığı kimi, bunun nəticəsində qəbul edilmiş qərar özü də qanuni və əsaslı hesab edilə bilmir. Bununla da, belə növ qərarlar da tanınma və icra edilmə imkanından kənarda qalır. Xarici arbitraj qərarlarının tanınması və icra edilməsi başqa dövlətlərin yurisdiksiyasında həyata keçirildiyi üçün, həmin ölkələrin prosessual normaları tətbiq edilir. Konvensiyaya görə dövlətlər arbitraj qərarlarının tanınması və icrası zamanı daha yüksək dövlət rüsumları və xərcləri müəyyən edə bilməzlər. Eyni zamanda xarici arbitraj qərarlarının tanınmasına və icrasına münasibətdə başqa ağır prosedurlar müəyyən etməməlidirlər. Bu o deməkdir ki, tanınma və icra edilmə üçün müraciət edilən məhkəmələr öz ölkələrində yerli mübahisələrin həlli zamanı tətbiq edilən prosessual qaydaları arbitraj qərarına münasibətdə də tətbiq etməli, arbitraj qərarlarına eynilə yerli məhkəmələrin qərarları kimi yanaşma olmalıdır. Bu qərarlar baxılma prosedurlarına uyğun olaraq yerli qərarlardan nə üstün, nə də ki, aşağı baxılmalı, bərabərlik təmin edilməlidir. Konvensiyaya görə, tərəflər tanınma və icra edilmə üçün

məhkəməyə müraciət edərkən xarici arbitraj qərarının və ya arbitraj sazişinin əslini və ya həmin sənədlərin təsdiq edilmiş surətlərini təqdim etməlidirlər. Əgər təqdim edilmiş arbitraj qərarı və sazişi qəbul edildiyi ölkənin dilində deyildirsə, həmin sənədlər rəsmi tərcüməçi və ya diplomatik, konsulluq orqanları tərəfindən qəbul ediliyi ölkənin dilinə tərcümə edilməlidir. Konvensiya qərarın qəbul edildiyi və ya tanınmaq və icra üçün müraciət edildiyi ölkələrin qəbul etdiyi və ya qoşulduğu çoxtərəfli və ikitərəfli müqavilələrin etibarlılığına heç bir təsir göstərmir, sözügedən müqavilələrlə tərəflərə verilən hüquqlardan onları məhrum etmir. Konvensiya digər müqavilələr üzərində öz üstünlüyünü göstərmir, digər əqdlərə hörmətlə yanaşır. Lakin bu konvensiya qəbul edilənədək mövcud olmuş, bu münasibətləri tənzimləyən 1923-ci il Ceneva Protokolu və 1927-ci il Ceneva Konvensiyasını qüvvədən düşmüş hesab edilir. Konvensiyaya görə, xarici arbitraj qərarının tanınması və icra edilməsindən imtina edilməsi üçün müəyyən edilən əsaslar Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsində göstərilən əsaslarla eynidir. Azərbaycan Respublikası sözügedən konvensiyaya qoşulduğundan daxili qanunvericiliyini bu konvensiyaya uyğunlaşdırmışdır. Bununla da Azərbaycan qanunvericiliyində xarici arbitraj qərarlarının tanınması və icrasının prosessual qaydaları öz kökünü sözügedən konvensiyadan götürmüşdür (United Nations Convention of Recognition and Enforcement of Foreign Arbitral Awards, 1958).

Qeyd edilməlidir ki, Azərbaycanda xarici arbitraj qərarlarının tanınması və icrası barədə nəzarət və yardım funksiyalarını Azərbaycan Respublikasının Ali Məhkəməsi həyata keçirir. Xarici arbitraj məhkəmələrinin qərarlarının tanınması və icrası zamanı qeyri-rezident hüquqi və fiziki şəxslərin hüquqi statusu və iştirakının prosessual əsasları qanunla və beynəlxalq aktlarda başqa hal nəzərdə tutulmamışdırsa, milli rejim tətbiq edilir. Milli rejim qeyri-rezident hüquqi və fiziki şəxslərin Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri ilə eyni prosessual hüquq və vəzifələrinə malik olması deməkdir. Lakin xarici hüquqi və fiziki şəxslər Azərbaycan Respublikası vətəndaşlarına və hüquqi şəxslərinə xüsusi məhdudiyyət tətbiq edən dövlətlərə aidiyyəti vardırsa, onda onlara qarşı da adekvat tədbir olaraq eyni məhdudiyyətlər tətbiq edilə bilər ("Xarici elementli kommersiya mübahisələrində qanunvericiliyin tətbiqi təcrübəsi haqqında" Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 15/2023 nömrəli 14 dekabr 2023-cü il tarixli Qərarı).

Arbitraj haqqında qanuna görə, xarici arbitraj qərarlarının məcburi icra qüvvəsinə malik olması onun hansı ölkədə qəbul edilməsindən asılı deyil. Lakin xarici arbitraj qərarlarını qəbul etmiş məhkəmələr beynəlxalq səlahiyyətlərə malik olmalıdırlar. Əgər qəbul edilmiş arbitraj qərarı beynəxalq səlahiyyətlərə malik olan məhkəmə tərəfindən qəbul edilməmişdirsə, onda onun hüquqi qüvvəsi olmayacaq. Xarici arbitraj məhkəmələrinin qərarlarının tanınması və icrası üçün tərəflər ərizə ilə Ali Məhkəməyə müraciət etməlidirlər, müraciət yalnız yazılı qaydada verilməlidir.

Xarici arbitraj qərarlarının tanınması və icrasından imtina üçün müxtəlif əsaslar mövcuddur. Əsaslardan birincisi arbitraj sazişi ilə bağlıdır. Bildiyimiz kimi, arbitraj sazişi arbitrajın özülünü təşkil edir. Bu sazişlə tərəflər arbitrajın əsas elemetlərini müəyyənləşdirməklə, əvvəlcədən razılığa gəlirlər. Məhz bu sazişin fəaliyyət qabiliyyətli şəxs tərəfindən bağlanmaması bu sazişin etibarsız olması ilə nəticələnir. Eyni zamanda xarici dövlətlərin qanunvericiliyinə görə, müqavilənin etibarsızlığının digər əsasları da müəyyən edilə bilər. Bununla da arbitraj sazişi həmin dövlətlərin qanunvericiliyə görə etibarsızdırsa, xarici arbitraj məhkəməsinin qərarının tanınması və icrasından imtina olunacaq. İmtina üçün digər əsas tərəflərin fundamental prosessual hüquqlarının pozulması ilə əlaqədardır. Belə ki, arbitraj prosesi zamanı tərəflərə arbitlərin təyin edilməsi, onlara etiraz verilməsi və iş üzrə sübutların təqdim edilməsinə imkan verilməməsi, arbitraj icraatı ilə bağlı xəbərdarlıq olunmaması tərəflərin hüquqlarını pozmuş olur. Bu pozuntularla qəbul edilmiş xarici arbirtraj qərarları da tanınma və icra edilməkdən imtina üçün əsas hesab edilir. Eyni zamanda qərar qəbul edilərkən arbitraj sazişində müəyyən edilən şərtlərdən və iddia tələbinin həddindən kənara çıxılarsa bu da imtina üçün əsas sayılır. Qərarın məcburi hüquqi qüvvəyə malik olmaması, qərarın çıxarıldığı dövlətin məhkəmələri tərəfindən ləğv edilməsi və ya etibarsız edilməsi, o cümlədən arbitraj məhkəməsinin tərkibinin tərəflərin razılaşmasına və arbitrajın keçirildiyi yerin qanunvericiliyinə uyğun olmaması da xarici arbitraj məhkəmələrinin qərarlarının tanınması və icrasından imtina üçün əsas hesab edilə bilər. Lakin qeyd edilməlidir ki, xarici arbitraj qərarlarının tanınması və icrasına dair tərəflərin müraciətlərinə baxılarkən heç bir halda məhkəmə tərəfindən mübahisənin

mahiyyəti üzrə yenidən baxılmasına icazə verilmir. Məhkəmə yalnız xarici arbitraj qərarının qəbul edilməsi zamanı prosessual pozuntuların olub-olmamasına aydınlıq gətirir. Hətta arbitrajla düzgün olmayan, mübahisənin obyektiv həllinə nail olunmayan qərarın qəbul edilməsinə, tanınma və icra ilə əlaqədar məhkəmələrin işə mahiyyəti üzrə baxaraq müdaxilə etməsinə yol verilmir. Arbitraj haqqında qanuna görə, yerli arbirtraj məhkəməsi qərarda icra edilmə qaydasını və icra müddətini göstərir. Əgər icra edilmə barədə müddət göstərilməmişdirsə, deməli, bu o anlama gəlir ki, qərar dərhal icra edilməli xarakterə malikdir. Yerli arbitraj qərarının icra müddətinin müəyyən edilib-edilməməsindən asılı olmayaraq könüllü icra müddəti kimi 3 (üç) ay nəzərdə tutmuşdur. Bu müddət ərzində tərəf qərarı könüllü icra etmirsə, xeyrinə qərar çıxarılmış tərəf məcburi icranın təmin edilməsi məqsədilə məhkəməyə müraciət edə bilər («Arbitraj haqqında» Azərbaycan Respublikasının Qanunu, 2023, mad. 56-57).

## Nəticə

Xarici elementli hüquq münasibətlərinin tənzimlənməsi sahəsində arbitraj məhkəmələri xüsusi rol oynayır. Kommersiya mübahisələri zamanı tərəflər yerli məhkəmələrə müraciət etmək əvəzinə arbitraj məhkəmələrinə üz tutmağı üstün bilirlər. Bu dünyada baş verən hadisələr, beynəlxalq müstəvidə mübahisələrin həlli ilə bağlı beynəlxalq sənədlərin qəbulu və ölkələrin bu sənədləri öz qanunvericiliyinə uyğunlaşdırması ilə əlaqədardır.

Azərbaycanda bu sahə yeni olmasa da, arbitrajın geniş tətbiq edilməsi hallarına rast gəlinmir. Məhz arbitrajla bağlı qanunvericiliyin təkmilləşdirilməsi bu sahənin ölkəmizdə inkişafına töhfə verə bilər. Azərbaycanın arbitrajla bağlı beynəlxalq konvensiya və müqavilələri ratifikasiya etməyi də bu sahədə əməlli addımların atılmasından xəbər verir.

Hesab edirəm ki, arbitrajla bağlı qanunvericiliyin təkmilləşdirilməsi və bu sahəyə diqqətin artırılması gələcəkdə arbitraj icraatı qaydasında mübahisələrə baxılma təcrübəsinin artmasına səbəb olacaq. Azərbaycan zəngin neft və qaz yataqlarına malik ölkə olduğundan, eyni zamanda beynəlxalq əhəmiyyətli yolların qovşağında yerləşdiyindən xarici elementli hüquq münasibətlərinin effektiv tənzimlənməsi öndə duran məsələlərdəndir. Buna görə də arbitraj icraatı qaydasında mübahisələrə baxılması və ədalətli həlli bu sahənin inkişafına töhfə vermiş olur.

Ümid edirəm ki, Azərbaycanda tezliklə daimi arbitraj təşkilatları yaradılacaq və işlərə arbitraj məhkəmələrində baxılması təcrübəsi genişlənəcək. Bu ədalətli məhkəmə araşdırmasının təmin edilməsi ilə bərabər yerli məhkəmələrin iş yükünün azalmasına səbəb olmuş olacaq.

## Ədəbiyyat

1. “Arbitraj haqqında” Azərbaycan Respublikasının Qanunu (Ümumi müddəalar, mad. 1, 3-4, 11, 13-14, 21, 27, 40, 48, 56-57). (23 dekabr 2023).
2. Azərbaycan Respublikasının Konstitusiyası (mad. 109). (1995).
3. Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsi (mad. 4, 11, 19, 21, 24-26, 29, 39-40, 157). (1999).
4. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin 157 və 157-ci maddələrinin bəzi müddəalarının dair 14 mart 2018-ci il tarixli Qərarı.
5. “Arbitraj haqqında” Azərbaycan Respublikasının 2023-cü il 26 dekabr tarixli 1077-VIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi haqqında 25 yanvar 2024-cü il tarixli 2455 nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
6. “Xarici arbitraj qərarlarının tanınması və icrası” haqqında Konvensiyaya qoşulmaq barədə 734-IQ nömrəli 9 noyabr 1999-cu il tarixli Azərbaycan Respublikasının Qanunu.
7. “Xarici elementli kommersiya mübahisələrində qanunvericiliyin tətbiqi təcrübəsi haqqında”Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 15/2023 nömrəli 14 dekabr 2023-cü il tarixli Qərarı.
8. İşlərin ümumi və yaxud kommersiya məhkəmələrinə aidiyyətinin müəyyən edilməsi, məhkəmə aidiyyəti ilə bağlı mübahisələrə və məhkəmələr arasında yaranan fikir ayrılıqlarına

baxılmasının xüsusiyyətlərinə dair Azərbaycan Respublikası Ali Məhkəməsi Plenumunun 10 nömrəli 18 sentyabr 2020-ci il tarixli Qərarı.
9. Qafarov, Z., Əbilov, A. (2007). *Beynəlxalq xüsusi hüquq kitabı.*
10. «Məhkəmələr və hakimlər haqqında» Azərbaycan Respublikasının Qanunu (mad. 2, 93). (1997).
11. Sanders, P., & Kaplan, N. (ed.). (n.d.). *ICCA Guide to the Interpretation of the 1958 New York Convention: A Handbook for Judges*. International Arbitration Technology.
12. United Nations Commission on International Trade Law (UNCITRAL) Arbitration Rules. Section 1. (2010).
13. *UNCITRAL Arbitration Rules*. (n.d.). Uncitral.un. https://uncitral.un.org/en/texts/arbitration/contractualtexts/arbitration
14. *United Nations Convention of Recognition and Enforcement of Foreign Arbitral Awards*. (1958).

Daxil oldu: 21.06.2024
Baxışa göndərildi: 24.07.2024
Təsdiq edildi: 11.08.2024
Çap olundu: 30.09.2024

https://doi.org/10.36719/2706-6185/39/68-76

**Elçin Əhmədov**
Maria Curie-Skłodowska Universiteti
magistrant
elchinahmadov54@gmail.com

# Süni intellektin beynəlxalq qlobal təhlükəsizliyə təsiri: yeni çağırışlar, imkanlar və qlobal güc balansında dəyişikliklər

**Xülasə**

Bu məqalə, süni intellektin beynəlxalq münasibətlər və qlobal təhlükəsizlik sahəsindəki rolunu araşdırır. Süni intellektin hərbi strategiyalara, kiber təhlükəsizliyə və diplomatik əlaqələrə təsiri ilə bağlı mövcud tədqiqatlar təhlil edilir. Nəticələr göstərir ki, süni intellekt texnologiyaları beynəlxalq güc balansında əhəmiyyətli dəyişikliklərə səbəb ola bilər. Süni intellektin tətbiqi həm müsbət imkanlar, həm də yeni təhdidlər yaradır. Bu səbəbdən, dövlətlər və beynəlxalq təşkilatlar süni intellektin tənzimlənməsi və etik istifadəsi üçün yeni qaydalar hazırlamalıdır. Məqalədə təqdim edilən təhlillər, süni intellektin beynəlxalq münasibətlərdəki rolunu daha dərindən anlamağa və gələcək strategiyaların formalaşdırılmasına töhfə verir.

***Açar sözlər:*** *süni intellekt, beynəlxalq münasibətlər, qlobal təhlükəsizlik, hərbi strategiyalar, kiber təhlükəsizlik, diplomatiya*

**Elchin Ahmadov**
Maria Curie-Skłodowska University
Master student
elchinahmadov54@gmail.com

# The Impact of Artificial Intelligence on International Global Security: New Challenges, Opportunities and Changes in the Global Balance of Power

**Abstract**

This article explores the role of artificial intelligence (AI) in international relations and global security. It analyzes existing research on the impact of AI on military strategies, cybersecurity, and diplomatic relations. The findings indicate that AI technologies can significantly alter the international balance of power. The application of AI creates both opportunities and new threats. Therefore, states and international organizations must develop new regulations and ethical guidelines for AI use. The analysis presented in the article contributes to a deeper understanding of AI's role in international relations and aids in shaping future strategies.

***Keywords:*** *artificial intelligence, international relations, global security, military strategies, cybersecurity, diplomacy*

## Giriş

Süni intellektin (SI) inkişafı beynəlxalq münasibətlər və qlobal təhlükəsizlik sahələrində dərin və uzunmüddətli təsirə malikdir. Bugünkü qlobal arenada dövlətlərarası rəqabət, hərbi strategiyalar və diplomatik əlaqələr süni intellektin imkanları ilə yenidən formalaşır. Bu məqalə, süni intellektin beynəlxalq təhlükəsizlik sahəsində yaratdığı yeni çağırışlar və imkanlar barədə ətraflı təhlil təqdim edir. Əsas məqsəd, oxuculara beynəlxalq münasibətlərdə süni intellektin rolunu və onun qlobal güc balansına təsirini qiymətləndirmək üçün əhəmiyyətli məlumatlar təqdim etməkdir.

### Ədəbiyyat icmalı

Ədəbiyyat icmalı, süni intellektin beynəlxalq münasibətlərə və qlobal təhlükəsizliyə təsirini araşdıran mövcud tədqiqatları əhatə edir. Ənənəvi silahlara nəzarət mexanizmləri və süni intellektlə işləyən silahların mövcud sistemlərlə uyğunluğu barədə geniş müzakirələr aparılmışdır. Məsələn, Horowitz (2018) süni intellektin beynəlxalq rəqabət və güc balansına təsirini təhlil edərək, bu

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

texnologiyaların beynəlxalq sabitliyi necə dəyişdirə biləcəyini vurğulamışdır. Eyni zamanda Scharre (2018) avtonom silahların inkişafını və bu silahların müasir müharibələrdə necə istifadə olunacağını təhlil edərək süni intellektin hərbi əməliyyatlara təsirini vurğulamışdır. Onun araşdırmaları, avtonom silah sistemlərinin döyüş meydanlarında qərar qəbul etmə sürətini artıraraq, strateji üstünlük təmin edə biləcəyini göstərir. Həmçinin Allen və Chan (2017) süni intellektin milli təhlükəsizlik strategiyalarına təsirini araşdıraraq, bu texnologiyaların diplomatik əlaqələrdə və qərar qəbul etmə proseslərində necə istifadə oluna biləcəyini vurğulamışlar. Onların araşdırmaları göstərir ki, süni intellekt məlumatın sürətli və dəqiq təhlilini təmin edərək, diplomatik qərarların qəbul edilməsində yeni imkanlar yaradır.

## Tədqiqat sualları və hipotez

Bu məqalədə cavablandırılacaq əsas tədqiqat sualları bunlardır:

1. Süni intellekt beynəlxalq təhlükəsizlik sahəsində hansı yeni çağırışlar və imkanlar yaradır?
2. Süni intellekt texnologiyalarının inkişafı beynəlxalq güc balansını necə təsir edir?
3. Süni intellektin tətbiqi beynəlxalq münasibətlərdə sabitliyi pozurmu, yoxsa gücləndirir?

Məqalənin hipotezi belədir ki, süni intellektin tətbiqi beynəlxalq təhlükəsizlik sahəsində həm yeni imkanlar, həm də yeni təhdidlər yaradır və bu, beynəlxalq münasibətlərdə yeni bir güc balansı yaratma potensialına malikdir.

## Metodologiya

Bu məqalə, süni intellektin beynəlxalq münasibətlərdə və qlobal təhlükəsizlikdəki rolunu qiymətləndirmək üçün təhlil və müqayisə metodlarından istifadə edir. Əsas mənbələr kimi elmi məqalələr, hökumət sənədləri və beynəlxalq təşkilatların hesabatları istifadə olunur. Təhlillər süni intellektin hərbi və kiber təhlükəsizlik sahələrində tətbiqini, eləcə də beynəlxalq güc balansına təsirlərini araşdırır. Məqalənin məqsədi, bu texnologiyaların beynəlxalq arenada yaratdığı yeni çağırışları və imkanları anlamaqdır.

## Tarixi

Süni intellektin beynəlxalq münasibətlərində rolu haqqında danışarkən, əvvəlcə tarixi kontekstdən başlamaq vacibdir. Bu konteksti başa düşmək üçün Alvin Toffler'in "Third Wave" əsərinə müraciət edirik. Toffler bu əsərində cəmiyyətin üç əsas inqilabını təsvir edir: birinci, agrar inqilab, ikinci, sənaye inqilabı və üçüncü, informasiya inqilabı. Ancaq biz artıq dördüncü bir inqilab, süni intellekt inqilabı ilə üz-üzəyik. Bu yeni dövr 21-ci əsrdən başlayaraq indiyə qədər davam etməkdədir (Toffler, 1980). Süni intellektin inkişafı ilə dünya diplomatiyası da əhəmiyyətli dəyişikliklərə məruz qalmışdır. Diplomatiyanın tarixindən bəhs edərkən, onun müəyyən tarixi inkişaf mərhələlərindən keçdiyini görürük. Əvvəllər diplomatiya əsasən insan təması üzərində qurulurdu. Ancaq texnologiyanın inkişafı ilə bu vəziyyət dəyişmişdir. Bu inkişaf mərhələlərini qısa şəkildə izah edək.

Birinci mərhələ teleqraf dövrü idi. Teleqrafın icadı diplomatiyada əhəmiyyətli bir dönüş nöqtəsi oldu. XIX əsrin ortalarında Samuel Morse tərəfindən icad edilən teleqraf, mesajların uzaq məsafələrə sürətli şəkildə ötürülməsini təmin etdi. Məsələn, 1850-ci illərdə Krım müharibəsi zamanı teleqrafdan istifadə edilərək London və Paris arasında sürətli məlumat mübadiləsi aparıldı. Bu, diplomatik qərarların daha sürətli və dəqiq olmasına imkan verdi və diplomatiyanın yeni bir dövrünə qapı açdı. İkinci mərhələ isə telefonun icadıdır. Telefonun icadı isə növbəti böyük inqilab oldu. XIX əsrin sonlarında Alexander Graham Bell tərəfindən icad edilən telefon, diplomatların birbaşa və anında danışmasına imkan yaratdı. XX əsrin əvvəllərində Birinci Dünya müharibəsi zamanı telefon, sürətli əlaqələr üçün geniş istifadə edildi. Bu, diplomatik danışıqların daha dinamik və çevik olmasına kömək etdi, beləliklə, əhəmiyyətli diplomatik qərarlar daha tez bir zamanda qəbul edilə bildi (Milli Arxiv, 2015). Üçüncü mərhələ internetin yayılması ilə başladı. İnternetin yayılması isə diplomatiyada üçüncü böyük dəyişiklik mərhələsi oldu. XX əsrin sonlarında və XXI əsrin əvvəllərində internet, məlumatların ani şəkildə ötürülməsini və geniş miqyaslı məlumat mübadiləsini mümkün etdi. Məsələn, 2010-cu ildəki "Ərəb Baharı" zamanı internet və sosial media platformaları diplomatik məlumatların yayılmasında və koordinasiyasında mühüm rol oynadı. İnternet, diplomatiyanın daha şəffaf və əhatəli olmasına, həmçinin daha geniş auditoriyaya çatmasına imkan verdi. Beləliklə, dördüncü mərhələ isə süni intellektdir. Onun təməli 1950-ci illərdə qoyulub. Alan Turing, 1950-ci ildə "Computing Machinery and Intelligence" adlı məqaləsində

"Maşınlar düşünə bilərmi?" sualını irəli sürərək, süni intellektin nəzəri əsaslarını yaratdı. Turing Testi adlı bir konsepsiya ortaya qoydu ki, bu test, bir maşının insana bənzər şəkildə düşünə bilib-bilmədiyini müəyyən etmək məqsədi daşıyır. Turing Testi bu gün də süni intellektin yetkinliyini ölçmək üçün istifadə edilən bir standartdır. 1956-cı ildə Dartmouth Konfransı süni intellektin rəsmi doğuş yeri hesab olunur. Bu konfransda John McCarthy, Marvin Minsky, Nathaniel Rochester və Claude Shannon kimi alimlər süni intellektin əsaslarını müzakirə etdilər və bu sahənin inkişafı üçün təməl qoydular. Bu konfransda "süni intellekt" termini ilk dəfə olaraq istifadə edildi. Konfransda iştirak edən alimlər, maşınların insan zəkasına bənzər şəkildə düşünə və öyrənə biləcəyi fikrini irəli sürdülər (Singh, 2018).

1970-1980-ci illərdə süni intellekt araşdırmaları maliyyə və hesablama gücü məhdudiyyətləri səbəbindən yavaşladı. "Süni İntellekt Qışı" olaraq adlandırılan bu dövr, süni intellekt tədqiqatlarına olan marağın və maliyyənin azalması ilə xarakterizə olunur. Bunun səbəbi, süni intellekt tədqiqatlarının böyük gözləntiləri qarşılayamaması və nəticələrin gözlənildiyi qədər sürətlə əldə olunmaması idi. Ancaq bu müddət ərzində ekspert sistemləri kimi müəyyən sahələrdə əhəmiyyətli irəliləyişlər əldə edildi. Ekspert sistemləri, müəyyən bir sahədə ixtisaslaşmış bilikləri istifadə edərək problemləri həll etmək üçün istifadə olunan proqramlardır. Məsələn, tibb sahəsində MYCIN adlı ekspert sistemi, infeksion xəstəliklərin diaqnozu və müalicəsi üçün istifadə edildi. Ekspert systemləri, süni intellektin müəyyən sahələrdə tətbiqini mümkün edərək, bu dövrdə əhəmiyyətli bir addım atdı. 1990 və 2000-ci illərdə süni intellekt araşdırmaları yenidən sürətləndi. Bu dövrdə, daha güclü kompüterlərin və daha geniş məlumat dəstələrinin mövcudluğu, süni intellekt tədqiqatlarının sürətlənməsinə səbəb oldu. 1997-ci ildə IBM-in Deep Blue adlı kompüteri şahmat üzrə dünya çempionu Garry Kasparovu məğlub edərək, süni intellektin potensialını nümayiş etdirdi. Deep Blue, milyonlarla şahmat mövqeyini analiz edərək və oyun strategiyalarını qiymətləndirərək Kasparovu məğlub edə bildi. Bu, süni intellektin mürəkkəb problemləri həll edə biləcəyini sübut edən əhəmiyyətli bir hadisə idi. 2011-ci ildə IBM-in Watson sistemi Jeopardy adlı televiziya yarışmasında qalib gəldi. Watson, təbii dil emalı və məlumatların təhlili texnologiyalarını istifadə edərək, insan rəqiblərini məğlub etdi. Bu, süni intellektin məlumat emalı və təhlili sahəsindəki üstünlüyünü nümayiş etdirdi. Bu dövrdə maşın öyrənməsi və dərin öyrənmə kimi texnologiyalar daha da inkişaf etdi. Maşın öyrənməsi, kompüterlərin məlumatlardan öyrənməsinə və təcrübələrindən nəticə çıxarmasına imkan verir. Dərin öyrənmə isə, neyron şəbəkələri vasitəsilə daha mürəkkəb məlumatları təhlil etmək üçün istifadə olunan bir maşın öyrənməsi alt sahəsidir. Bu texnologiyalar, süni intellektin müxtəlif sahələrdə tətbiqini mümkün etdi. Son illərdə süni intellektin inkişafı, təbii dil emalı sahəsində əhəmiyyətli irəliləyişlərə səbəb olmuşdur. OpenAI tərəfindən yaradılan ChatGPT kimi dil modelləri, mətn əsasında insanlarla əlaqə qurmaq və müxtəlif mövzularda məlumat vermək üçün istifadə olunur. ChatGPT, geniş miqyaslı mətn dəstələrindən öyrənərək insanlara oxşar şəkildə danışmağı və məlumat verməyi bacarır. ChatGPT kimi modellər, təhsil, tibb, müştəri xidməti və daha bir çox sahədə istifadə edilərək, insanlarla əlaqənin daha interaktiv və effektiv olmasına kömək edir. Bununla süni intellektin inkişafı və onun tətbiqləri, diplomatiya da daxil olmaqla bir çox sahəyə böyük təsir göstərir. Süni intellektin beynəlxalq münasibətlərdə və beynəlxalq təhlükəsizlikdə rolu və tətbiqləri haqqında daha ətraflı məlumat vermək üçün növbəti hissədə bu mövzunu daha dərindən araşdıracağıq.

**Strateji paradigmanın dəyişməsi: süni intellektin təhlükəsizlik imkanları**

Süni intellektin hərbi strategiyalara inteqrasiyası müasir müharibələrdə dəyişdirici bir qüvvə təmsil etməkdədir. Süni intellekt texnologiyaları öz istifadəçilərinə səmərəlilik, qərar qəbul etmə və əməliyyat imkanları baxımından əhəmiyyətli üstünlüklər təqdim edir. Hərbi strategiyalarda süni intellekt tətbiqləri texnologiyanın inkişafı ilə daim inkişaf edən və genişlənən səviyyədədir. Bu sahədə ən çox görülən tətbiqlər, minimal insan müdaxiləsi ilə kəşfiyyatdan hədəfli hücumlara qədər müxtəlif vəzifələri yerinə yetirə bilən avtonom silah sistemləridir (Russell və Tegmark, 2015). Bu texnologiyalara insan müdaxiləsi olmadan işləyə bilən avtonom sistemlər, məsələn, pilotsuz uçuş aparatları (PUA), yerüstü nəqliyyat vasitələri və sualtı dronlar daxildir. Bu sistemlər, hərbi əməliyyatların effektivliyini artırmaqla yanaşı, əsgərlərin təhlükəsizlik risklərini də azaldır. Hərbi texnologiyalar kontekstində digər bir vacib məsələ, süni intellektin hərbi təlimlərdə və simul-

yasiyalarda istifadəsidir. İnkişaf edən texnologiya sayəsində maşın öyrənmə alqoritmləri, əsgərlərə real mühitə yaxın təlim imkanları təqdim edə bilər. Bu yanaşma, əsgərlərə riskli canlı təlimlərə ehtiyac duymadan, simulyasiya edilmiş ssenarilər vasitəsilə təcrübələrini artırmaq və bacarıqlarını inkişaf etdirmək imkanı verir. Bundan əlavə, süni intellekt, komandirlərə real vaxtda məlumatların analizi və strateji qərarların qəbulunda proqnozlaşdırıcı analitika ilə dəstək verən qərar dəstək sistemlərinin yaradılmasında da istifadə olunur (Horowitz, 2018, pp. 36-57). Digər bir perspektivdən baxdıqda isə, süni intellektin hərbi sahədə tətbiqinə dair kiber təhlükəsizlik sistemlərindən də bəhs etmək olar. Bu sistemlər, kiberhücumları real vaxtda aşkarlamaq və onlara müdaxilə etmək vasitəsilə hərbi şəbəkələrin kibertəhlükələrdən qorunmasına xidmət edir (Brundage və b., 2018). Bununla yanaşı, süni intellekt, böyük məlumat kütlələrini təhlil edərək hərbi əməliyyatların istiqamətini təyin edən kəşfiyyat, müşahidə və kəşfiyyat (ISR) sistemlərini də dəstəkləyir (Horowitz, 2018, pp. 36-57).

Süni intellektdən istifadə edən hərbi sistemlər, hədəf dəqiqliyini artırmaq, resursların optimal bölgüsünü təmin etmək və döyüş sahəsində məlumatlılığı yüksəltmək üçün geniş şəkildə maşın öyrənmə alqoritmlərindən yararlanır. Bu alqoritmlər, eyni zamanda hərbi logistikaya da inteqrasiya edilir ki, nəticədə hərbi qüvvələrin hazırlıq müddəti qısalır və səmərəlilik artır. Başqa sözlə, süni intellekt, hərbi təchizat zəncirinin idarə edilməsini və texniki xidmət əməliyyatlarını asanlaşdırır (Scharre, 2018, pp. 11-14). Bundan əlavə, süni intellektlə dəstəklənən texniki xidmət sistemləri nasazlıqları öncədən proqnozlaşdıraraq, təmir işlərini vaxtında planlaşdırmağa və hərbi texnikanın daim istifadəyə hazır olmasına kömək edir (Scharre, 2018). Bu cür proqramlar, dayanma müddətini azaldır və hərbi vasitələrin hər zaman mövcud olmasını təmin edir. Bugünkü dövrdə, süni intellektin hərbi strategiyalara inteqrasiyası beynəlxalq hərbi balanslara oyun dəyişdirici təsir göstərir. Süni intellekt texnologiyaları, texnoloji cəhətdən inkişaf etmiş ölkələrə strateji üstünlüklər verərək güc iyerarxiyasında yeni tarazlıqlar yarada bilər (Allen, Chan, 2017). Hərbi süni intellektə böyük sərmayə qoyan ölkələr, sürət, dəqiqlik və qərar qəbul etmə qabiliyyəti baxımından rəqabət üstünlüyü əldə edə bilər və bu da beynəlxalq münasibətlərdə qüvvələr balansını ciddi şəkildə dəyişə bilər. Məsələn, ABŞ və Çin bu gün hərbi süni intellekt texnologiyalarının inkişafında ən qabaqcıl ölkələrdir və bu vəziyyət, Soyuq Müharibə dövründə olduğu kimi, süni intellekt imkanlarına diqqət yetirən güclər arasında yeni bir silahlanma yarışına səbəb olur. Artıq beynəlxalq arenada qeyri-ənənəvi yeni ittifaqlar meydana çıxa bilər, çünki süni intellekt imkanlarındakı bərabərsizliklər texnoloji cəhətdən geri qalan ölkələri süni intellektlə idarə olunan hərbi güclərə qarşı tarazlıq yaratmağa təşviq edəcək. Belə bir vəziyyətdə, status-kvonu qorumağa çalışan dövlətlər, qlobal qeyri-sabitliyə səbəb ola biləcək inkişaflardan narahatdırlar (Bendett, 2018, pp. 1-3).

**Süni intellekt müharibədə oyun qaydalarını dəyişə bilərmi?**

Əvvəldən vacib bir sual ortaya çıxır: Süni intellektlə işləyən silahlar keçmiş təcrübələrdən nə qədər fərqlidir? Axı, ölümcül gücün uzaqdan və avtomatik şəkildə çatdırılması metodları onilliklərdir ki, mövcuddur. Məsələn, Tomahawk qanadlı raketlər seriyası, birgə hava-yer qarşıdurma raketləri, eləcə də Phalanx Close-In Weapon System kimi taktiki hava hücumundan müdafiə sistemlərini misal çəkmək olar. Son zamanlar silahlı dronlar terrorla mübarizə əməliyyatlarında geniş istifadə edilir. Təlim məqsədləri üçün kompüterləşdirilmiş qərar dəstəyi sistemləri və simulyatorlar da uzun müddətdir mövcuddur. Həmçinin çoxsaylı mənbələrdən məlumatları işləyən alqoritmlər, döyüş təyyarələri kimi qabaqcıl adi silah sistemlərinin əsas tərkib hissəsidir.

Maşın öyrənməsi, dərin neyron şəbəkələri və gücləndirici öyrənmə kimi süni intellekt texnologiyalarının tətbiqi ilə qaydalara əsaslanan deterministik sistemlərdən məlumatlara əsaslanan və nəticəyə yönəlmiş sistemlərə tərəf bir keçid baş verdi. Süni intellektlə işləyən sistemlər təlim məlumatlarından insan proqramçıların görə bilməyəcəyi nümunələri çıxara bilir və əməliyyatlar zamanı ənənəvi sistemlərdən daha çox məlumat həcmini idarə edirlər. Məsələn, ABŞ Müdafiə Nazirliyinin Maven Layihəsi dronlardan əldə olunan böyük həcmli video görüntüləri sürətlə işləyərək daha yaxşı hədəf müəyyən etməyə imkan yaradır. Bundan əlavə, belə hesablama gücü döyüş cəbhəsinə daha yaxın ola bilər, məlumatların əsas bazasına yüksəkzolaqlı kanallar vasitəsilə ötürülməsini zəruri etməz. Süni intellekt adi silah sistemlərinə tətbiq edildikdə, məsələn, nüvə sualtı

qayıqlarını okeanların dərinliklərində izləmək kimi əvvəllər mümkün olmayan problemlər indi daha həllolunan görünür. Həmçinin pilotsuz hava və sualtı nəqliyyat vasitələrinin dəstələri kimi güc çatdırmağın yeni yolları da ortaya çıxır (Scharre, 2018, pp. 11-14). Təbii ki, bütün bunlar yüksək səviyyəli təsirlərlə məhdudlaşmır; piyada qüvvələrinin bəzi təhlükəli, çətin və monoton vəzifələri də muxtar sistemlərə həvalə edilə bilər.

İyirmi ildən sonra müharibələrin tamamilə robot orduları və pilotsuz uçuş aparatları (PUA) dəstələri arasında aparılacağı ehtimalı az olsa da, döyüş sistemlərinin daha çox muxtariyyətə sahib olacağı və insanların maşınlarla daha sıx əməkdaşlıq edəcəyi gözlənilir. Bu, mülki sahədə müşahidə olunan tendensiyaya uyğun gəlir, burada "dar AI" adlanan, yəni xüsusi tapşırıqları yerinə yetirmək üçün hazırlanmış alqoritmlər getdikcə daha çox tətbiqlərdə istifadə olunur, hətta geniş AI tədqiqatları sahəsində də. Döyüş məkanları qlobal miqyasda genişləndikcə, nişanlanma sürəti artdıqca və güclü dövlətlər minlərlə mil uzaqda məlumatın tez bir zamanda yayıldığı mühitlərdə rəqabət aparmağa məcbur olduqca, xüsusilə ağıllı muxtariyyətin rolu daha da önəmli olacaq. Bu, avtonom müşahidə və döyüş sistemləri, adaptiv kommunikasiya sistemləri, kiberhücumların azaldılması və əks-hücum sistemləri, multisensor məlumatların birləşməsindən asılı olan qərar qəbuletmə sistemləri kimi sahələrdə özünü göstərəcək. Tarix boyu texnologiya müharibənin ayrılmaz hissəsi olub, lakin süni intellektlə işləyən silahların potensial fərqləndirici cəhəti insan nəzarətinin azalması və ya itirilməsi perspektivi ola bilər (Saalman, 2018).

**Süni intellektlə ənənəvi silahlara nəzarət**

Silahlara nəzarət baxımından əsas suallar arasında silah sistemlərində süni intellektin istifadəsinin beynəlxalq münasibətlərdə güc tətbiqi həddini aşağı salıb-salmayacağı, strateji qeyri-sabitliyi artırıb-artırmayacağı və yeni silahlanma yarışlarına səbəb olub-olmayacağı, eləcə də qeyri-dövlət aktorlarına güc verib-verməyəcəyi məsələləri yer alır. Bu suallara cavab vermək çətindir, çünki Soyuq Müharibə dövründə analitiklərin konkret strateji silah sistemlərinin ilk zərbə sabitliyini, böhran stabilliyini və hücum-müdafiə balansını dəstəkləyib-dəstəkləmədiyini müzakirə etdiyi dövrlərdə olduğu kimi, vəziyyət hələ də qeyri-müəyyəndir. Məsələn, bu vəziyyətə yanaşmanıza görə, Çinin DF-ZF kimi hipersəs sürüşmə vasitələrinə süni intellekt imkanlarının əlavə edilməsi strateji sabitliyi poza bilər və ya rəqibin raketdən müdafiə sistemlərini aşaraq sabit çəkindirmə qabiliyyətini bərpa edə bilər. Avtonom pilotsuz hava vasitələrinin (İHA) dəstələri isə döyüş gəmiləri qruplarını müdafiə etmək və ya rəqibin irəli dəniz müdafiə strategiyasını zəiflədərək hücumu asanlaşdırmaqla müdafiəni gücləndirə bilər (Russell, Tegmark, 2015).

Döyüşdə süni intellektlə dəstəklənən qabiliyyətlərin "kənar" tərəfə, yəni məlumatların yaradıldığı və sürətli hesablama cavablarının tələb olunduğu yerlərə keçməsi isə uzaqdan gələn qüvvələrin sürpriz hücumlara qarşı həssaslığını azalda bilər və ya müharibənin dayandırılmasını çətinləşdirə bilər. Bundan əlavə, əsasən insanlardan ibarət üsyançı qüvvəyə qarşı avtonom silahların istifadəsi sürətlə sabitlik gətirə bilər, lakin eyni zamanda mülki şəxslərə və rəqəmsal infrastruktura qarşı asimmetrik hücumlara haqq qazandırmaq üçün istifadə edilə bilər. Bu sualların cavabı beynəlxalq təhlükəsizlik baxımından hələ də açıq və müzakirəyə açıqdır (Galliott, 2015, pp. 165–186).

Bu sualların cavabları, Soyuq Müharibə dövründə olduğu kimi, məsuliyyətli doktrinaların, komandanlıq və nəzarət sistemlərinin qurulması, etimadın möhkəmləndirilməsi və dialoq proses-lərinin, təmkin tədbirlərinin və ümumi normaların səbrlə formalaşdırılması kimi bir çox elementin birləşməsində tapıla bilər.

Eyni zamanda bu cavablar təkrarlanan şəkildə yenidən nəzərdən keçirilməli olacaq, çünki dərslər daha az fəlakətli uğursuzluqlarla öyrənilir. Bununla belə, silahlara nəzarət alətləri və bu sahədə çalışan mütəxəssislərin düşüncə tərzi də dəyişməlidir.

Silahsızlaşdırma və silahlara nəzarət üzrə mütəxəssislər ənənəvi olaraq tanklar, təyyarələr və raketlər kimi fiziki silahlarla işləməyə öyrəşiblər, məlumatlar və alqoritmlərlə deyil. Onlar öz paradiqmalarını paylaşanlarla daha rahat şəkildə danışıqlar aparmağa vərdiş ediblər və bu danışıqların nəticələri adətən sərt qanunlar və ciddi yoxlama rejimlərinə əsaslanır. Avtonom və ağıllı sistemlər isə bu cür silahlara nəzarət formalarına uyğun gəlmir. Ölümcül muxtariyyət, daha çox süni intellektin silah sistemlərinə inteqrasiyası ilə əlaqəlidir və bu texnoloji mənzərə təxminən

hər altı aydan bir dəyişir, beləliklə, sərt normativ çərçivələrə uyğun gəlmir. Ölümcül muxtariyyətlə bağlı razılaşdırılmış qaydalara uyğunluğu təmin etmək üçün təlim məlumat dəstlərinin və alqoritmlərin yoxlanması, nüvə və ya kimyəvi silahların istehsal yollarının yoxlanılmasından daha mürəkkəb problemlər yaradır. Üstəlik, nüvə və kosmik imkanlardan fərqli olaraq, süni intellekt texnologiyaları ilə əlaqəli əqli mülkiyyət və qabaqcıl insan resursları, hazırda silahsızlanma, beynəlxalq təhlükəsizlik və silahlara nəzarət üzrə mövcud forumlarda təmsil olunmayan özəl sektorun sahəsinə düşür (Atherton, 2018).

**Beynəlxalq təhlükəsizlikdə yeni forma: kəşfiyyat və süni intellekt**

Süni intellekt, kəşfiyyatın toplanması, beynəlxalq kəşfiyyat təhlili və təhlükəsizlik strategiyaları kimi müxtəlif sahələrdə inqilabi dəyişikliklərə səbəb olmuşdur. Xüsusi ilə, süni intellektin kəşfiyyat əməliyyatlarına inteqrasiyası, kəşfiyyat orqanlarının səmərəliliyini və effektivliyini artıran unikal imkanlar təqdim edir. Süni intellekt əsaslı kəşfiyyat toplama fəaliyyətləri, böyük həcmdə verilənləri emal edərək, müvafiq məlumatları sürətli və dəqiq şəkildə çıxarmaq üçün qabaqcıl alqoritmlərdən istifadə edir. Ənənəvi kəşfiyyat toplama üsulları çox vaxt vaxt və əmək tələb edən bir proses olur. Buna qarşı olaraq, süni intellekt, insan analitiklərinin gözündən qaça biləcək nümunələri və anomaliyaları müəyyən etmək qabiliyyətinə malikdir. Bu kontekstdə, sosial media, peyk şəkilləri və onlayn verilənlər bazaları kimi müxtəlif mənbələrdən məlumatları asanlıqla təhlil edə və aralarındakı əlaqələri aşkar edə bilər. Məsələn, maşın öyrənmə modelləri şübhəli fəaliyyətləri və ya kommunikasiya kanallarını aşkar etmək üçün öyrədilə bilər və kəşfiyyat agentliklərinə real vaxtda siqnallar verir (Jung və b., 2019, pp. 133-150). Bu imkan, təhlükəsizlik qüvvələrinin təhdidlərin qarşısını almaq və onlara daha effektiv şəkildə cavab vermək qabiliyyətini əhəmiyyətli dərəcədə artırır.

Beynəlxalq kəşfiyyat təhlili, süni intellektin müxtəlif geosiyasi kontekstlərdən məlumatları inteqrasiya və təhlil etmək qabiliyyətindən geniş şəkildə faydalanır. Süni intellekt sistemləri, çoxdilli mətnləri emal edə, kommunikasiyaları transkripsiya və tərcümə edə, həmçinin tarixi məlumatlar və cari tendensiyaları nəzərə alaraq geosiyasi hadisələri proqnozlaşdıra bilər. Bu texnologiya, kəşfiyyat agentliklərinə qlobal problemləri daha geniş və müasir şəkildə başa düşməyə imkan verəcəkdir. Məsələn, süni intellektin təhlükəsizlik sahəsində istifadəsinə dair bir nümunə olaraq, CCTV görüntüləri üzərində aparılan araşdırmalarda AI sisteminin şübhəli fəaliyyətləri aşkar etmək, silahları müəyyənləşdirmək, duruşları təhlil etmək və səsləri təsnif etmək qabiliyyəti göstərilə bilər (Raisinghani və b., 2022, pp. 33-42). Bu real vaxt analiz qabiliyyəti, təhlükəsizlik işçilərinə xəbərdarlıqlar yaradaraq cavab vaxtlarını azaltmağa və potensial olaraq cinayətlərin qarşısını almağa kömək edir.

Süni intellekt həmçinin daha dəqiq risk qiymətləndirmələri və strateji proqnozlar hazırlamaqla qərar qəbul edənlərə məlumatlı siyasətlər hazırlamaqda dəstək verir (Hudson, 2019). Süni intellektin gündəlik analiz tapşırıqlarını avtomatlaşdırmaq qabiliyyəti, insan analitiklərinin daha mürəkkəb və incə məqamları əhatə edən qiymətləndirmələrə fokuslanmasına imkan yaradır. Süni intellektin kəşfiyyat və təhlükəsizlik strategiyalarında rolu çoxşaxəlidir və həm hücum, həm də müdafiə imkanlarını artırmaqla əhəmiyyətli bir taktiki üstünlük təmin edir. Bundan əlavə, süni intellekt müxtəlif ssenarilərin və nəticələrin simulyasiyasını təmin etməklə strateji planlaşdırmaya da təsir göstərə bilər, bu isə potensial təhlükələrə hazırlıq görməyə və effektiv əks strategiyalar hazırlamağa imkan yaradır (Dangi, 2023, pp. 553-557). Süni intellektin kəşfiyyat əməliyyatlarına inteqrasiyası həm də müşahidə və kəşfiyyat missiyaları üçün avtonom dronların və robot sistemlərinin istifadəsini əhatə edir. Bu kontekstdə, süni intellektin kəşfiyyatda əhəmiyyətli bir taktiki üstünlük yaratdığı aydın görünür.

**Beynəlxalq təhlükəsizlikdə yeni forma: kibertəhlükəsizlik və süni intellekt**

Süni intellekt texnologiyaları kibertəhlükəsizliyin müxtəlif sahələrində, o cümlədən təhdidlərin aşkarlanması, insidentlərə reaksiya, zəifliyin aşkarlanması və idarə edilməsində geniş istifadə olunur. Maşın öyrənmə alqoritmləri, süni intellektin bir alt dəsti olaraq, böyük məlumat dəstlərini təhlil edərək potensial təhlükəsizlik pozuntularını aşkar edən anomaliyaları müəyyən edə bilir. Kiber təhlükəsizlik baxımından, süni intellekt sistemləri şəbəkə trafiki məlumatlarını real vaxtda emal edərək şübhəli fəaliyyətləri qeyd edir və dərhal müdaxiləni təmin edir. Eyni zamanda süni intellektlə dəstəklənən avtomatlaşdırma sistemləri kiber insidentlər zamanı tədbirləri avtomatlaş-

dıraraq cavab müddətlərini əhəmiyyətli dərəcədə azaldır, zərəri minimuma endirir və hadisənin böyüməsinin qarşısını alır.

Süni intellektin kibertəhlükəsizlikdəki ən mühüm üstünlüklərindən biri proqnozlaşdırma qabiliyyətidir. Süni intellekt alqoritmləri, tarixi məlumatlar və meydana çıxan nümunələr əsasında potensial kibertəhlükələri proqnozlaşdırmaq üçün istifadə olunur. Bu aspekt, kibertəhlükəsizlikdə proaktiv müdafiə tədbirlərini həyata keçirməyə imkan verir. Məsələn, proqnozlaşdırıcı analitika təşkilatlara zəiflikləri hələ təcavüzkarlar tərəfindən istismar edilmədən əvvəl aşkarlamağa və bağlamağa kömək edə bilər. Üstəlik, süni intellekt, davamlı izləmə və yeni təhdidlərə adaptiv cavab vermək qabiliyyəti ilə son nöqtə təhlükəsizliyini artırmaq üçün istifadə edilə bilər (Anand, 2023, pp. 630-635).

Süni intellektin kibertəhlükəsizliyə inteqrasiyası beynəlxalq münasibətlərə əhəmiyyətli təsir göstərir və bu, hərtərəfli kibertəhlükəsizlik siyasətlərinin hazırlanmasını tələb edir. Bu kontekstdə, beynəlxalq kibertəhlükəsizlik siyasətləri dövlətlərin kibeməkanda davranışları üçün təlimatlar müəyyən etməli və qlobal əməkdaşlıq və kiber davamlılığın artırılmasına yönəlmiş tədqiqatları dəstəkləməlidir. Müxtəlif beynəlxalq təşkilatlar və alyanslar bu istiqamətdə addımlar atır. Məsələn, Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO) kibermüdafiə imkanlarının gücləndirilməsində süni intellektin əhəmiyyətinə diqqət yetirir. NATO-nun kibertəhlükəsizlik siyasətləri, situasiya məlumatlılığını artırmaq, təhlükənin aşkarlanmasını təkmilləşdirmək və insidentlərə cavab verməyi asanlaşdırmaq üçün süni intellektin istifadəsini vurğulayır (Blessing və b., 2021). Başqa bir nümunə, məlumatların qorunması və məxfilik sahəsində süni intellekt tətbiqləri üçün müddəaları ehtiva edən Ümumi Məlumatların Qorunması Qaydasıdır (GDPR). Avropa İttifaqı (Aİ) bu tənzimləmə ilə möhkəm kibertəhlükəsizlik çərçivələri yaradaraq, süni intellektin tətbiqinə dair qaydalar və standartlar müəyyən edir.

Beynəlxalq əməkdaşlıq beynəlxalq kibertəhlükələrə qarşı mübarizədə həyati əhəmiyyət kəsb edir. Birləşmiş Millətlər Təşkilatı (BMT) kibertəhlükəsizlik məsələlərində beynəlxalq əməkdaşlığı gücləndirmək məqsədilə müxtəlif dialoqlar və işçi qrupları təşkil edir. Bu səylərin məqsədi kibeməkanda dövlət davranışına dair norma və standartlar müəyyən etmək və süni intellektin etik istifadəsini təşviq etməkdir.

Beynəlxalq münasibətlər kontekstində süni intellektin kibertəhlükəsizliyə təsirini nümayiş etdirən bir sıra nümunəvi tədqiqatlar mövcuddur. ABŞ Müdafiə Nazirliyi (DoD) kibermüdafiə imkanlarını artırmaq üçün süni intellektdən geniş istifadə edir. Müdafiə Nazirliyinin real vaxt rejimində təhdidlərin aşkarlanması və avtomatik cavab tədbirləri üçün süni intellekt texnologiyalarını istifadə etdiyi bildirilir, bu da kompleks kiberhücumlara qarşı müdafiə qabiliyyətini əhəmiyyətli dərəcədə artırır.

Bundan əlavə, Birləşmiş Ştatlar və Böyük Britaniya arasında kibermüdafiə sahəsində süni intellektə əsaslanan əməkdaşlıq səyləri beynəlxalq tərəfdaşlıqların əhəmiyyətini vurğulayan nümunələrdən biridir. Bu tərəfdaşlıq çərçivəsində iki ölkə kollektiv kibermüdafiə imkanlarını təkmilləşdirmək üçün birgə təlimlər və məlumat mübadiləsi təşəbbüsləri həyata keçirir (Alexandra, 2023). Bu cür tədqiqatlar süni intellektin milli və beynəlxalq kibertəhlükəsizlik çərçivələrini gücləndirməkdəki rolunu göstərir.

## Nəticə

Bu məqalə, süni intellektin beynəlxalq münasibətlər və qlobal təhlükəsizlik sahəsində yaratdığı yeni çağırışlar və imkanları təhlil etməklə, bu texnologiyaların beynəlxalq güc balansına təsirlərini araşdırmışdır. Süni intellektin hərbi strategiyalarda, kiber təhlükəsizlikdə və diplomatik əlaqələrdə getdikcə artan rolu, dövlətlərin və beynəlxalq təşkilatların yeni şəraitə uyğunlaşmasını tələb edir. Məqalənin təhlili göstərir ki, süni intellektin tətbiqi beynəlxalq münasibətlərdə həm müsbət, həm də mənfi nəticələr doğura bilər. Bir tərəfdən, süni intellekt texnologiyaları qərar qəbul etmə sürətini artıraraq, effektivlik və səmərəliliyi yüksəldir. Digər tərəfdən, bu texnologiyalar beynəlxalq arenada strateji qeyri-sabitliyi artırmaq və yeni silahlanma yarışlarına səbəb olmaq potensialına malikdir. Xüsusilə hərbi sahədə süni intellektin istifadəsi, güc balansında əhəmiyyətli dəyişikliklərə yol aça bilər.

Nəticə olaraq, süni intellektin beynəlxalq münasibətlərdəki təsirini nəzərə alaraq, dövlətlər və beynəlxalq təşkilatlar süni intellektin tənzimlənməsi və etik istifadəsi üçün yeni qaydalar və strategiyalar hazırlamalıdırlar. Bu çərçivələr, süni intellektin yaratdığı təhlükələrin qarşısını almaqla yanaşı, onun təqdim etdiyi imkanlardan səmərəli istifadəni təmin etməlidir. Süni intellektin qlobal təhlükəsizlik və beynəlxalq münasibətlərdəki rolunun daha da dərinləşdirilməsi üçün gələcək tədqiqatlar və beynəlxalq əməkdaşlıq vacibdir. Bu yanaşma, qlobal sabitliyin qorunmasına və dövlətlərarası rəqabətin sülh yolu ilə həllinə töhfə verə bilər.

## Ədəbiyyat


1. Alexandra-Cristina, D. I. N. U. (2023). *Cyber Diplomacy and Artificial Intelligence: Opportunities and Challenges. In Proceedings of the International Conference on Cybersecurity and Cybercrime-2023*. Asociatia Romana pentru Asigurarea Securitatii Informatiei.
2. Allen, G. C., & Chan, T. (2017). *Artificial Intelligence and National Security*. Belfer Center for Science and International Affairs, Harvard Kennedy School.
3. Anand, A., Chirputkar, A., & Ashok, P. (2023). Mitigating Cyber-Security Risks using Cyber-Analytics. *In 2023 7th International Conference on Trends in Electronics and Informatics (ICOEI)*. IEEE.
4. Atherton, K. D. (2018). *Targeting the Future of the DoD's Controversial Project Maven Initiative*. CISRNET. www.cisrnet.com/itnetworks////targeting-the-future-of-the-dods-contro-versial-project-maven-initiative/
5. Bendett, S. (2018). In AI, Russia is hustling to catch up. *Defense One*, 4(6), 1-3.
6. Blessing, J., Elgin, K. K., Ewers-Peters, N. M., & Tiderman, R. (Eds.). (2021). *NATO 2030: Towards a New Strategic Concept and Beyond*. Brookings Institution Press.
7. Brundage, M., Avin, S., Clark, J., Toner, H., Eckersley, P., Garfinkel, B., ... & Amodei, D. (2018). *The malicious use of artificial intelligence: Forecasting, prevention, and mitigation.* arXiv preprint arXiv:1802.07228
8. Dangi, A. K., Pant, K., Alanya-Beltran, J., Chakraborty, N., Akram, S. V., & Balakrishna, K. (2023). *A Review of use of Artificial Intelligence on Cyber Security and the Fifth-Generation Cyber-attacks and its analysis. In 2023 International Conference on Artificial Intelligence and Smart Communication (AISC)*. IEEE.
9. Galliott, J. (2015). *Military Robots: Mapping the Moral Landscape*. Ashgate.
10. Gill, A. S. (2017). *Introduction to Perspectives on Lethal Autonomous Weapon Systems*. UNODA Occasional Papers. s.amazonaws.com/unoda-web/wp-content/uploads///op.pdf
11. Hudson, V. M. (2019). *Artificial intelligence and international politics*. Routledge.
12. Horowitz, M. C. (2018). Artificial Intelligence, International Competition, and the Balance of Power. *Texas National Security Review*, 1(3), 36-57.
13. Jung, K., Yoon, S., & Lee, J. (2019). Machine learning for intelligence analysis: Applications and challenges. *Computational Intelligence Review*, 12(2), 133-150.
14. Milli Arxiv. (2015). The National Archives (Vol. 1). www.nationalarchives.gov.uk/. https://www.nationalarchives.gov.uk/
15. Saalman, L. (2018,). Fear of False Negatives: AI and China's Nuclear Posture. *Bulletin of the Atomic Scientists.* https://thebulletin.org///fear-of-false-negatives-ai-and-chinas-nuclearposture/
16. Raisinghani, M., Sawra, R., Dhavalikar, O., Chhabria, P., & Giri, N. (2022, April). Crime Analysis Using Artificial Intelligence. *In Edge Analytics: Select Proceedings of 26th International Conference-ADCOM 2020* (pp. 33-42). Springer Singapore.
17. Russell, S., & Tegmark, M. (2015). Research Priorities for Robust and Beneficial Artificial Intelligence. *AI Magazine*, 36(4), 105-114.
18. Scharre, P. (2018). *Army of None: Autonomous Weapons and the Future of War*. W. W. Norton and Company.

19. Singh Gill, A. (2018). Remarks taken from Amandeep Singh Gill (SIPRI workshop, "Mapping the Impact of Machine Learning and Autonomy on Strategic Stability and Nuclear Risk" Stockholm).
20. Toffler, A. (1980). *The Third Wave*. Morrow.

Daxil oldu: 28.06.2024
Baxışa göndərildi: 15.07.2024
Təsdiq edildi: 13.08.2024
Çap olundu: 30.09.2024

## İÇİNDƏKİLƏR

**Əsmətxanım Məmmədova**
Nizami Gəncəvi "Xəmsə"sində sintaktik üslubi xüsusiyyətlər ........ 7
**Ziat Fayssal, Shahrazad Derras**
The Hermeneutic Method in Human Sciences: Wilhelm Dilthey and
the Emergence of a New Epistemological Paradigm ........ 16
**Malahat Abdullayeva**
Organization Methodology of Diagnostic Assessment in Mathematics Lessons ........ 23
**Asya Şahverdiyeva, Gülbəniz Qədirova**
Ali məktəblərdə kimyanın tədrisində laboratoriya dərslərinin rolu ........ 28
**Ağalar Ağalarlı**
Orta Dəhlizin Cənubi Qafqaz regionu üçün geosiyasi əhəmiyyəti ........ 31
**Fatma Hacıyeva**
Naxçıvan Muxtar Respublikasının orta məktəblərində müəllim-şagird münasibətləri ........ 36
**Zeynəb Rüstəmova**
Xarici dillərin tədrisi prosesində nitq fəaliyyətinin əsası kimi oxunun rolu ........ 43
**Qərənfil Rzayeva**
Məmməd Araz yaradıcılığında Azərbaycançılıq ideologiyası ........ 47
**Bəhruz Orucov**
Arbitraj və mülki iddia icraatı: beynəlxalq qaydalar və Azərbaycan qanunvericiliyi ........ 55
**Elçin Əhmədov**
Süni intellektin beynəlxalq qlobal təhlükəsizliyə təsiri: yeni çağırışlar, imkanlar və
qlobal güc balansında dəyişikliklər ........ 68

İmzalandı: 27.09.2024
Onlayn çap: 30.09.2024
Format: 60/84, 1/8
H/n həcm: 9,75 ç.v.
Sifariş: 797

---

aem.az saytında çap olunub.
Ünvan: Bakı şəh., Mətbuat pr., 529,
"Azərbaycan" nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 50 209 59 68
+994 55 209 59 68
+994 12 510 63 99
e-mail: info@aem.az